# “BANK OF BAKU” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 dekabr 2017-ci il tarixində tamamlanan il üzrə
**Maliyyə hesabatları**

# "BANK OF BAKU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


Müstəqil auditorların hesabatı 2

31 dekabr 2017-ci il tarixində tamamlanan il üzrə maliyyə hesabatları:

Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat 6
Maliyyə vəziyyəti haqqında hesabat 8
Kapitalda dəyişiklik haqqında hesabat 9
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat 10-11

Maliyyə hesabatlarına dair qeydlər:

1. TƏŞKİLAT 11
2. MALİYYƏ HESABATLARININ TƏRTİB EDİLMƏSİNİN ƏSASLARI 12
3. ƏSAS UÇOT QAYDALARI 14
4. MALİYYƏ HESABATLARININ YENİ VƏ TƏKMİLLƏŞDİRİLMİŞ BEYNƏLXALQ STANDARTLARININ TƏTBİQİ (MHBS) 26
5. KREDİT DƏYƏRSİZLƏŞMƏSİ ZƏRƏRLƏRİ ÜZRƏ EHTİYAT 35
6. HAQQ VƏ KOMİSSİYA GƏLİRLƏRİ 35
7. HAQQ VƏ KOMİSSİYA XƏRCLƏRİ 35
8. ƏMƏLİYYAT XƏRCLƏRİ 36
9. MƏNFƏƏT VERGİSİ 36
10. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ 38
11. BANKLARDAN VƏ SAİR KREDİT TƏŞKİLATLARINDAN ALINMALI VƏSAİTLƏR 38
12. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR 39
13. SATILABİLƏN İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI 46
14. ƏMLAK VƏ AVADANLIQ 47
15. QEYRİ-MADDİ AKTİVLƏR 49
16. SAİR AKTİVLƏR 49
17. BANKLARA VƏ SAİR MALİYYƏ TƏŞKİLATLARINA ÖDƏNİLMƏLİ VƏSAİTLƏR 50
18. MÜŞTƏRİLƏRƏ ÖDƏNİLMƏLİ VƏSAİTLƏR 52
19. SAİR ÖHDƏLİKLƏR 53
20. SUBORDİNASİYA BORCLARI 53
21. NİZAMNAMƏ KAPİTALI 53
22. ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ TƏƏHHÜDLƏR 54
23. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR 55
24. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ 58
25. KAPİTALIN İDARƏ EDİLMƏSİ 60
26. RİSK İDARƏÇİLİYİ QAYDALARI 61
27. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR 72

KPMG Audit Azərbaycan" MMC
Port Baku, Cənub Qülləsi
Neftçilər prospekti, 153
Bakı, Azərbaycan,
Telefon +994 (12) 404 89 10
Faks +994 (12) 404 89 14
İnternet www.kpmg.az

# Müstəqil Auditorların Hesabatı

## "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Müşahidə Şurasına

### Rəy

Biz "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından, Bankın 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

### Rəy üçün əsas

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlara əsasən bizim məsuliyyətimiz hesabatımızın *"Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti"* hissəsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının *Peşəkar Mühasiblərin Etika Məcəlləsinə* (IESBA Məcəlləsi) və Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə müvafiq olan etik tələblərə əsasən Bankdan müstəqilik və bu tələblər və IESBA Məcəlləsi üzrə digər etik öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### İzahedici paraqraf

Maliyyə hesabatlarına dair 2 saylı qeyddə 31 dekabr 2017-ci il tarixinə Bankın məcmu kapitalı qanunvericilik ilə tələb olunan minimumdan aşağı olmuş və 25 saylı qeyddə təsvir edildiyi kimi Bank tələb olunan minimum kapital adekvatlığı əmsalına cavab verməmişdir. Bu məsələ ilə bağlı rəyimiz müsbətdir.

"KPMG Audit Azərbaycan" MMC Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmışdır və İsveçrə şirkəti olan "KPMG International Cooperative" ("KPMG International") müstəqil üzv şirkətlər şəbəkəsinin üzvüdür

## Maliyyə hesabatlarına görə rəhbərliyin və idarəetməyə məsul şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdimatına, habelə dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin müşahidə olunmadığı maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Rəhbərliyin Bankı likvidasiya etmək və ya əməliyyatları dayandırmaq niyyətinin olduğu və ya qeyd edilən tədbirlərdən başqa real alternativinin olmadığı hallar istisna olmaqla, maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Bankın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsi, müvafiq hallarda fəaliyyətin fasiləsizliyi ilə bağlı məsələlərin açıqlanması və hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Bankın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## Maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında, dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi əhatə edən auditor hesabatını təqdim etməkdən ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur, lakin bu BAS əsasında aparılmış auditin əhəmiyyətli təhrifi hər zaman aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhv nəticəsində yarana bilər və istifadəçilərin bu maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlara ayrı-ayrılıqda yaxud ümumilikdə təsir edə bilməsi əsaslı şəkildə ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

BAS əsasında aparılmış audit çərçivəsində biz peşəkar mühakimə yürüdür və bütün audit müddətində peşəkar inamsızlığımızı qoruyub saxlayırıq. Biz həmçinin:

— Dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını işləyib hazırlayır və icra edir, rəyimizi bildirmək üçün yetərli və müvafiq olan audit sübutunu əldə edirik. Dələduzluq nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riski səhv nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, məlumatın təhrifli təqdimatı və ya daxili nəzarətə əməl olunmamasından ibarət ola bilər.

— Bankın daxili nəzarət sisteminin səmərəliliyinə dair rəyin ifadə edilməsi üçün deyil, şəraitə uyğun zəruri audit prosedurlarının planlaşdırılması məqsədilə auditlə əlaqəli daxili nəzarət barədə anlayış əldə edirik.

— İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunu və rəhbərlik tərəfindən aparılmış uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların kafiliyini qiymətləndiririk.

— Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsiz aparılma prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğuna və əldə edilmiş audit sübutları əsasında Bankın fəaliyyətini fasiləsiz davam etdirmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması barədə nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqət cəlb etməliyik, bu cür açıqlamalar qeyri-dəqiq olduğu halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilmiş sübutlara əsaslanır. Bununla belə, sonrakı hadisələr və ya şəraitlər Bankın fasiləsiz fəaliyyətini dayandırmağa məcbur edə bilər.

— Açıqlamalar da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə maliyyə hesabatlarında əsas əməliyyatların və hadisələrin ədalətli şəkildə əks etdirilib-etdirilməməsini dəyərləndiririk.

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və müddəti və mühüm audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlarla bağlı idarəetməyə məsul şəxsləri məlumatlandırırıq.

Müstəqil auditorların hazırkı hesabatının hazırlanması ilə nəticələnmiş audit tapşırığı üzrə partnyor:

Andrey Kuznetsov
"KPMG Audit Azərbaycan" MMC
Bakı, Azərbaycan Respublikası
18 noyabr 2019-cu il

# "BANK OF BAKU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ SAİR MƏCMU GƏLİR HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2017-ci ildə tamamlanan il | 31 dekabr 2016-cı ildə tamamlanan il |
|---|---|---|---|
| **Faiz gəliri** | | | |
| Amortizasiya edilmiş dəyərdə uçota alınmış maliyyə aktivləri üzrə faiz gəliri: | | | |
| Müştərilərə verilmiş kreditlər | | 45,564 | 75,287 |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | | 1,809 | 533 |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 1,788 | - |
| Maliyyə icarəsi üzrə debitor borcları | | 70 | 46 |
| Ədalətli dəyərində uçota alınan maliyyə aktivləri üzrə faiz gəliri: | | | |
| Satılabilən investisiya qiymətli kağızları | | 1,322 | 338 |
| | | **50,553** | **76,204** |
| **Faiz xərcləri** | | | |
| Amortizasiya edilmiş dəyərdə uçota alınan maliyyə öhdəlikləri üzrə faiz xərcləri ibarətdir: | | | |
| Müştərilərə ödənilməli vəsaitlər | | (20,549) | (26,674) |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | | (6,080) | (9,575) |
| Buraxılmış borc qiymətli kağızlar | | - | (477) |
| Subordinasiya borcları | | (1,103) | (906) |
| | | **(27,732)** | **(37,632)** |
| FAİZ QAZANDIRAN AKTİVLƏRİN DƏYƏRSİZLƏŞMƏ ZƏRƏRİ ÜZRƏ EHTİYATDAN ÖNCƏ XALİS FAİZ GƏLİRİ | | **22,821** | **38,572** |
| Dəyərsizləşmə zərəri üzrə ehtiyat | 5 | 11,739 | (72,394) |
| XALİS FAİZ GƏLİRİ/(ZƏRƏRİ) | | **34,560** | **(33,822)** |
| Haqq və komissiya gəlirləri | 6 | 4,626 | 3,436 |
| Haqq və komissiya xərcləri | 7 | (3,593) | (3,571) |
| Xarici valyuta üzrə xalis gəlir/(zərər): | | | |
| - alqı-satqı | | 2,374 | 3,759 |
| - mübadilə fərqləri | | (4,096) | 9,510 |
| Sair əməliyyatlar üzrə ehtiyat | | (842) | (2,288) |
| Sair gəlir | | 440 | 664 |
| XALİS QEYRİ-FAİZ (ZƏRƏRİ)/GƏLİRİ | | **(1,091)** | **11,510** |
| İşçi heyəti xərcləri | 8 | (14,410) | (17,835) |
| Amortizasiya | 8 | (3,090) | (3,594) |
| Sair əməliyyat xərcləri | 8 | (9,267) | (8,393) |
| QEYRİ-FAİZ XƏRCLƏRİ | | **(26,767)** | **(29,822)** |
| MƏNFƏƏT VERGİSİNDƏN ƏVVƏL MƏNFƏƏT/(ZƏRƏR) | | **6,702** | **(52,134)** |
| Mənfəət vergisi üzrə qazanc | 9 | - | - |
| İL ÜZRƏ XALİS GƏLİR/(ZƏRƏR) VƏ SAİR MƏCMU GƏLİR | | **6,702** | **(52,134)** |

18 noyabr 2019-cu il tarixində İdarə Heyəti tərəfindən imzaladılar:

Sədr
Eldar Həmidov

Maliyyə Direktoru
Əli İbrahimov

11-72-ci səhifələrdə təqdim olunmuş qeydlər hazırkı maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# "BANK OF BAKU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2017-Cİ İL TARİXİNƏ
## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 46,494 | 74,657 |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitləri | 11 | 68,060 | 140,199 |
| Müştərilərə verilmiş kreditlər | 12 | 219,803 | 239,153 |
| Satılabilən investisiya qiymətli kağızları | 13 | 39,892 | 23,558 |
| Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərində ölçülən maliyyə alətləri | | - | 1,771 |
| Əmlak və avadanlıq | 14 | 13,470 | 16,338 |
| Qeyri-maddi aktivlər | 15 | 1,121 | 1,299 |
| Azərbaycan Respublikasının Vergilər Nazirliyinə ödənilmiş avanslar | | 6,568 | 9,081 |
| Sair aktivlər | 16 | 4,302 | 5,607 |
| CƏMİ AKTİVLƏR | | **399,710** | **511,663** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 17 | 103,749 | 174,692 |
| Müştərilərə ödənilməli vəsaitlər | 18 | 244,660 | 292,075 |
| Sair öhdəliklər | 19 | 14,461 | 13,750 |
| Subordinasiya borcları | 20 | 24,267 | 25,275 |
| Cəmi öhdəliklər | | **387,137** | **505,792** |
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | 21 | 52,870 | 52,870 |
| Əmlakın yenidənqiymətləndirmə ehtiyatı | | 6,758 | 7,118 |
| Yığılmış zərər | | (47,055) | (54,117) |
| Cəmi kapital | | 12,573 | 5,871 |
| CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL | | **399,710** | **511,663** |

18 noyabr 2019-cu il tarixində İdarə Heyəti tərəfindən imzaladılar:

Sədr
Eldar Həmidov

Maliyyə Direktoru
Əli İbrahimov

11-72-ci səhifələrdə təqdim olunmuş qeydlər hazırki maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## "BANK OF BAKU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | Nizamnamə kapitalı | Əmlakın yenidənqiymətləndirmə ehtiyatı | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2016-cı il** | | 52,870 | 7,515 | (2,380) | 58,005 |
| **Cəmi məcmu gəlir** | | | | | |
| İl üzrə zərər | | - | - | (52,134) | (52,134) |
| **Sair məcmu gəlir** | | | | | |
| *Mənfəət və ya zərərə təkrar təsnif edilməyəcək bəndlər:* | | | | | |
| Yenidənqiymətləndirmə ehtiyatının amortizasiyası | | - | (397) | 397 | - |
| **31 dekabr 2016-cı il** | | **52,870** | **7,118** | **(54,117)** | **5,871** |
| **Cəmi məcmu gəlir** | | | | | |
| İl üzrə mənfəət | | - | - | 6,702 | 6,702 |
| **Sair məcmu gəlir** | | | | | |
| *Mənfəət və ya zərərə təkrar təsnif edilməyəcək bəndlər:* | | | | | |
| Yenidənqiymətləndirmə ehtiyatının amortizasiyası | | - | (360) | 360 | - |
| **31 dekabr 2017-ci il** | | **52,870** | **6,758** | **(47,055)** | **12,573** |

18 noyabr 2019-cu il tarixində İdarə Heyəti tərəfindən imzaladılar:

Sədr
Eldar Həmidov

Maliyyə Direktoru
Əli İbrahimov

11-72-ci səhifələrdə təqdim olunmuş qeydlər hazırki maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# "BANK OF BAKU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

## 31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2017-ci ildə tamamlanan il | 31 dekabr 2016-cı ildə tamamlanan il |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Alınmış faiz | 59,707 | 71,973 |
| Ödənilmiş faiz | (35,394) | (54,721) |
| Alınmış haqq və komissiya | 4,626 | 3,436 |
| Ödənilmiş haqq və komissiya | (3,593) | (3,571) |
| Valyuta əməliyyatları üzrə xalis qazanc | 2,374 | 3,759 |
| Sair alınmış gəlir | 120 | 202 |
| Ödənilmiş işçi heyəti xərcləri | (14,276) | (16,296) |
| Ödənilmiş sair əməliyyat xərcləri | (9,133) | (8,473) |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətlərindən daxil olan pul vəsaitləri | 4,431 | (3,691) |
| *Əməliyyat aktivlərində xalis (artım)/azalma* | | |
| Sair kredit təşkilatları istisna olmaqla banklardan alınacaq vəsaitlər | 69,687 | (36,101) |
| Müştərilərə verilmiş kreditlər | 15,213 | 173,566 |
| Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərində ölçülən maliyyə alətləri | 1,703 | (1,510) |
| Sair aktivlər | (38) | (4,826) |
| *Əməliyyat öhdəliklərində xalis artım/(azalma)* | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | (34,038) | (492) |
| Müştərilərə ödənilməli vəsaitlər | (34,023) | (166,590) |
| Sair öhdəliklər | 3,216 | 1,930 |
| Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətlərindən daxil olan/(istifadə olunan) xalis pul vəsaitləri | **26,151** | **(37,714)** |
| Ödənilmiş mənfəət vergisi | - | - |
| Əməliyyat fəaliyyətlərindən daxil olan/(istifadə olunan) xalis pul vəsaitləri | **26,151** | **(37,714)** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Satılabilən investisiya qiymətli kağızlarının satınalması | (43,465) | (24,950) |
| Satılabilən investisiya qiymətli kağızlarının satışı və ödənilməsi üzrə daxilolmalar | 26,224 | 7,268 |
| Əmlak və avadanlıq satınalması | - | (179) |
| Əmlak və avadanlıq satışı üzrə daxilolmalar | 231 | 651 |
| Qeyri-maddi aktivlərin əldə edilməsi | (24) | (40) |
| İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri | **(17,034)** | **(17,250)** |

## "BANK OF BAKU" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### 31 DEKABR 2017-Cİ İL TARİXİNDƏ TAMAMLANAN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT (DAVAMI)

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2017-ci ildə tamamlanan il | 31 dekabr 2016-cı ildə tamamlanan il |
|---|---|---|---|
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Sair maliyyə təşkilatlarından alınmış kreditlər üzrə daxilolmalar | 17 | 7,946 | - |
| Sair maliyyə təşkilatlarından alınmış kreditlərin qaytarılması | 17 | (43,173) | - |
| Buraxılmış borc qiymətli kağızları üzrə ödəniş | | - | (9,956) |
| Alınmış subordinasiya borcları | | - | 22,793 |
| Ödənilmiş subordinasiya borcları | | - | (1,680) |
| Maliyyələşdirmə fəaliyyətlərindən (istifadə olunan)/daxil olan xalis pul vəsaitləri | | (35,227) | 11,157 |
| Xarici valyutada saxlanılan pul vəsaitləri və onların ekvivalentlərinin qalığına məzənnə fərqlərinin təsiri | | (2,053) | 10,075 |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma | | (28,163) | (33,732) |
| İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri | 10 | 74,657 | 108,389 |
| İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri | 10 | **46,494** | **74,657** |

18 noyabr 2019-cu il tarixində İdarə Heyəti tərəfindən imzaladılar:

Sədr
Eldar Həmidov

Maliyyə Direktoru
Əli İbrahimov

11-72-ci səhifələrdə təqdim olunan qeydlər hazırki maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## 1. TƏŞKİLAT

"Bank of Baku" ASC 18 fevral, 2005-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı ("ARMB") tərəfindən verilmiş 247 saylı bank lisenziyası əsasında fəaliyyət göstərir.

Bank əhalidən depozitlər qəbul edir və kreditlər verir, Azərbaycanda və xaricdən ödənişlər köçürür, valyuta mübadilə edir və kommersiya və fiziki şəxslərə digər bank xidmətləri göstərir. Əsas ofisi Bakı şəhərində yerləşir. 31 dekabr 2017-ci il tarixinə Bakıda və Azərbaycan Respublikasının digər şəhərlərində 17 filialı (2016: 17) və iki xidmət məntəqəsi (2016: 22 filial və 2 xidmət məntəqəsi) mövcuddur. Bankın qeydiyyatda olan hüquqi ünvanı Atatürk küçəsi, 42, AZ 1069, Bakı, Azərbaycan Respublikasıdır.

3 fevral 2016-cı ildə Azərbaycan Respublikasının Prezidentinin Fərmanına əsasən Maliyyə Bazarlarına Nəzarət Palatası ("MBNP") publik hüquqi şəxs yaradıldı. Azərbacan Respublikası ərazisində maliyyə bazarlarına nəzarət səlahiyyəti Azərbaycan Respublikasının Mərkəzi Bankından ("ARMB") alınaraq MBNP-a verildi. Bankın fəaliyyəti MBNP və ARMB tərəfindən tənzimlənir.

Bank əmanətlərin sığortalanması sisteminin üzvüdür. Sistem əmanətlərin sığortalanması haqqında Qanun və digər normativlər əsasında fəaliyyət göstərir və Əmanətlərin Sığortalanması Fondu tərəfindən idarə edilir. 1 iyul 2019-cu il tarixinədək sığorta Bankın fəaliyyət dayandıqda və ya MBNP tərəfindən lisenziyası ləğv edildikdə yerli valyuta (AZN) ilə ifadə olunmuş əmanətlər üçün faiz dərəcəsi maksimum 15%, ABŞ dolları ilə ifadə olunmuş əmanətlər üçün faiz dərəcəsi maksimum 3% olan əmanətlərə görə fərdi əmanətçilər qarşısında Bankın öhdəliklərini sığorta edir. 1 iyul 2019-cu il tarixindən etibarən bu dərəcələr müvafiq olaraq 15%-dən 10%-ə və 3%-dən 2.5%-ə dəyişmişdir.

27 yanvar 2017-ci ildə Səhmdarların Ümumi Yığıncağında Bankın tam sahib olduğu törəmə müəssisəsi olan "BOB Broker" Məhdud Məsuliyyətli Cəmiyyətinin ləğv edilməsi qərarı verildi. Bu tarixdən etibarən Bank tək müəssisə kimi fəaliyyət göstərir.

31 dekabr 2017 və 2016-cı il tarixlərinə Bankın buraxılmış səhmləri aşağıdakı səhmdarlara məxsus olmuşdur:

| | 31 dekabr 2017-ci il, % | 31 dekabr 2016-cı il, % |
|---|---|---|
| **Səhmdar** | | |
| NAB Holding | 35.00 | 35.00 |
| Hikmət İsmayılov | 31.11 | 31.11 |
| "Azpetrol Neft Şirkəti" MMC | 28.89 | 28.89 |
| Elçin İsayev | 5.00 | 5.00 |
| **Cəmi** | **100.00** | **100.00** |

"NAB Holding"in son nəzarətçi tərəfi Nader Mohaghegh Oromi və Bahram Mohaghegh Oromidir. "Azpetrol Neft Şirkəti" MMC-nin birbaşa səhmdarı İbrahim Məmmədovdur. 31 dekabr 2017-ci il tarixinə Bankın son nəzarət edən tərəfi yoxdur (31 dekabr 2016: yoxdur).

Hazırki maliyyə hesabatlarının buraxılması 18 noyabr 2019-cu il tarixində İdarə Heyəti tərəfindən təsdiq edilmişdir.

## 2. MALİYYƏ HESABATLARININ TƏRTİB EDİLMƏSİNİN ƏSASLARI

Hazırki maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") əsasən tərtib edilmişdir.

Hazırki maliyyə hesabatları Bankın fasiləsiz fəaliyyət göstərməsi və proqnoz edilə bilən gələcəkdə fəaliyyətinə davam edəcəyi ehtimalı ilə tərtib edilmişdir.

Hazırki maliyyə hesabatları, aşağıda göstərilən mühasibat uçotu qaydalarında izah edildiyi kimi, binalar və hər hesabat dövrünün sonunda yenidən qiymətləndirilmiş məbləğlərdə və ya ədalətli dəyərlərdə ölçülən müəyyən maliyyə alətləri istisna olmaqla, ilkin dəyər əsasında tərtib edilmişdir.

İlkin dəyər, bir qayda olaraq, aktivlərə görə ödənilən məbləğin ədalətli dəyərinə əsaslanır.

Bank maliyyə vəziyyəti haqqında hesabatını əsasən likvidlik ardıcıllığı ilə təqdim edir. Hesabat tarixindən sonra 12 ay ərzində (cari) və 12 aydan daha çox müddət ərzində (uzunmüddətli) hesablaşma və ödəmələr üzrə təhlil 26-cı qeyddə təqdim olunmuşdur.

**Əməliyyat valyutası**

Bankın maliyyə hesabatlarında göstərilən bəndlər Bankın fəaliyyət göstərdiyi iqtisadi mühitin əsas valyutası ilə ("əməliyyat valyutası") ölçülür. Bankın əməliyyat valyutası Azərbaycan manatıdır ("AZN"). Bankın maliyyə hesabatlarının təqdimat valyutası manatdır. Əksi göstərilmədikdə, bütün məbləğlər ən yaxın min manatadək yuvarlaqlaşdırılır.

**Fəaliyyətin fasiləsizliyi**

Rəhbərlik hazırki maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən hazırlamışdır. Öz mühakimələrində rəhbərlik cari niyyətlərini, əməliyyatların gəlirliliyini və maliyyə resurslarına çıxışı nəzərə almışdır.

31 dekabr 2017-ci il tarixində tammalanan il ərzində Bankın məcmu zərəri 47,055 min manat və həmin tarixdə kapitalı 12,573 min manat təşkil etmişdir. Mənfi maliyyə nəticələrinin əsas səbəbləri həm istehlakçı, həm də biznes kreditləri üçün kredit üzrə dəyərsizləşmə ehtiyatının artırılması, 2015 və 2016-cı illər ərzində kredit əməliyyatlarının müvəqqəti dayandırılması nəticəsində kredit portfelinin kiçilməsi səbəbindən faiz gəlirlərinin azalması olmuşdur. Pərakəndə portfelinin kiçilməsi iqtisadi böhran nəticəsində kredit şərtlərinin ağırlaşması və ödəmə qabiliyyətinin zəifləməsi ilə izah edilir.

2017-ci ilin may ayı ərzində MBNP Bankda yoxlama aparmış və qiymətləndirmə nəticəsində 30 aprel 2017-ci il tarixinə Bankın aktivlərinin yerli qanunvericiliyə uyğun olaraq, əlavə 54,900 min AZN məbləğində ehtiyatla təmin edilməli olduğu qənaətinə gəlmişdir. Əlavə ehtiyat ayrıldıqdan və digər düzəlişlər edildikdən sonra, Bankın yerli qanunvericiliyə görə tənzimlənən məcmu kapitalı (41,000) min manata düşmüş, yəni tələb olunan məcmu kapital minimumundan 91,000 min manat az olmuşdur. Nəticədə, MBNP Bank məcmu kapitalını tələb olunan minimuma çatdırana qədər fiziki şəxslərdən yeni əmanət cəlb edilməsini məhdudlaşdırdı.

2017-ci ilin sentyabr ayının 27-dək Bankın məcmu kapital defisiti aradan qalxmadığından MBNP Bank üzərinə əlavə məhdudiyyətlər qoyaraq müştərilərdən alınmış mövcud depozitlərin Əmanətlərin Sığortalanması Fondu tərəfindən sığortalanmış depozitlər kateqoriyasına restrukturizasiya edilməsi daxil olmaqla sığortalanmış depozitlərin qəbul edilməsi ilə bağlı əməliyyatları dayandırmağı tələb etmişdir.

26-cı qeyddə açıqlandığı kimi, 31 dekabr 2017-ci il tarixinə Bankın bir ilə kimi 46,918 min manat məbləğində cəmi likvidlik kəsiri olmuşdur.

Bankın kapital qiymətləndirmələri 25-ci qeyddə açıqlanmışdır.

## 2. MALİYYƏ HESABATLARININ TƏRTİB EDİLMƏSİNİN ƏSASLARI (davamı)

Rəhbərlik qiymətləndirmə zamanı aşağıdakı hadisələri və şərtləri nəzərə almışdır:

- 2019-cu il fevralın 28-də Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər" haqqında Fərman imzalamışdır. Fərmana əsasən, 21 fevral 2015 və 21 dekabr 2015-ci il tarixlərində milli valyutanın devalvasiyası nəticəsində bütün banklarda ümumi məbləği 10,000 ABŞ dollarına qədər olan xarici valyuta ilə verilmiş kredit qalıqlarında artım dövlət tərəfindən ödənilir. Fərmana əsasən, "Bank of Baku"ya bilavasitə Maliyyə Nazirliyindən 103.7 milyon manat məbləğində vəsait ayrılmalı idi. Bu məbləğin 53 milyon manatı alınmış və 46 min müştərinin tamamilə dəyərdən düşmüş pərakəndə kreditləri üzrə Bankın zərərlərini qarşılamağa yönəldilmiş, 49.8 milyon manatı dövlət kompensasiyası kimi müştərilərə ödənilmişdir.
- Nağd vəsaitə əlavə olaraq, Bank dəyərsizləşmiş kreditlərin restrukturizasiyası üçün ARMB-dan beşillik müddətə 0.1% illik faiz dərəcəsi və birillik güzəşt müddəti ilə 117 milyon manat kredit almaqla bağlı müqavilə imzalamışdır. Kredit Bankın dəyərdən düşmüş kredit portfelinin restrukturlaşdırılmasına kömək məqsədi daşıyır.
- 31 dekabr 2017-ci il tarixindən sonra Bankın fiziki şəxslərdən və korporativ müştərilərdən cəlb etdiyi yeni müddətli əmanətlərin və ilkin müddəti 2019-cu ilin yanvar ayından avqust ayınadək olan müddəti uzadılmış əmanətlərin ümumi məbləği 93.4 milyon manat təşkil edir.
- Sadalanan tədbirlər nəticəsində, 31 avqust 2019-cu il tarixinə, Bankın yerli qanunvericiliyə görə tənzimlənən məcmu kapitalı 56.8 milyon manat, məcmu kapital adekvatlığı əmsalı 25.09% təşkil etməklə MBNP-nin tələblərinə uyğun olmuşdur.
- 40,952 min AZN məbləğində cari hesablar qalığı 26-cı qeyddə gözlənilən ödəniş müddəti cədvəlində tələbli əmanət kateqoriyasına aid edilsə də, bu məbləğlərin heç də hamısı bir il müddətinə götürülməyəcək. Belə ki, son 2 il ərzində və həmçinin hesabat dövrü bitdikdən sonra da, cəmi cari hesab qalıqları 40 milyon manatdan aşağı düşməmişdir.
- 2019-cu ilin iyun ayında MBNP Bankın fiziki şəxslərdən müddətli əmanətlər qəbul etmək məhdudiyyətini ləğv etdi.

Növbəti on iki ay üçün Bank maliyyələşdirmə mənbələri ilə bağlı yuxarıda qeyd olunanları nəzərə alaraq, rəhbərlik maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən tərtib etməyi münasib görmüşdür.

## 3. ƏSAS UÇOT QAYDALARI

**Əvəzləşdirmə**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri yalnız uçotda tanınmış məbləğləri əvəzləşdirilmək hüququ olduqda və xalis məbləğ əsasında hesablaşmaların aparılması, yaxud eyni vaxtda aktivin realizasiya edilməsi və öhdəliyin yerinə yetirilməsi nəzərdə tutulduqda qarşılıqlı əvəzləşdirilir və xalis məbləğ maliyyə vəziyyəti haqqında hesabatda açıqlanır. Hər hansı mühasibat standartı və ya şərhində tələb olunmadıqda və Bankın mühasibat uçotu qaydalarında xüsusi olaraq açıqlanmadıqda, gəlir və xərc mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda əvəzləşdirilmir.

**Gəlirin tanınması**

Faiz gəliri və xərclərinin tanınması

Maliyyə aktivi üzrə faiz gəliri Bankın iqtisadi mənfəət əldə etməsi ehtimalı olduqda və gəlir məbləğinin etibarlı qiymətləndirilməsi mümkün olduqda tanınır. Faiz gəliri və xərci effektiv faiz metodundan istifadə etməklə, hesablama metodu ilə uçot əsasında tanınır. Effektiv faiz metodu maliyyə aktivi və ya maliyyə öhdəliyinin, yaxud maliyyə aktivləri və ya öhdəlikləri qrupunun amortizasiya edilmiş dəyərinin hesablanması və faiz gəliri, yaxud faiz xərcinin müvafiq dövr üzrə bölüşdürülməsi üsuludur.

Effektiv faiz dərəcəsi borc alətinin nəzərdə tutulan müddəti və ya (tətbiq olunarsa) daha qısa müddət ərzində hesablanmış gələcək nağd pul daxilolmalarını (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən yerində ödənilmiş, yaxud alınmış bütün haqlar, əməliyyat xərcləri və digər mükafat, yaxud endirimlər) ilkin tanınma anında xalis balans məbləğinədək dəqiqliklə diskontlaşdıran dərəcədir.
Maliyyə aktivi və ya oxşar maliyyə aktivləri qrupu dəyərsizləşmə zərəri nəticəsində silinərsə (qismən silinərsə), faiz gəliri bundan sonra dəyərsizləşmə zərərinin ölçülməsi məqsədilə gələcək pul vəsaitlərinin diskontlaşdırılması üçün tətbiq edilən faiz dərəcəsindən istifadə edilməklə uçota alınır.

Ədalətli dəyərində ölçülən aktivlər üzrə qazanılmış faiz faiz gəlirinə təsnif edilir.

Haqq və komissiya gəlirlərinin tanınması

Kreditlərin verilməsinə görə komissiyalar birbaşa əlaqədar xərclər ilə birlikdə təxirə salınır və kredit üzrə effektiv faiz dərəcəsinə düzəliş kimi uçotda tanınır. Kredit öhdəliyinin xüsusi kredit razılaşmasının bağlanması ilə nəticələnəcəyi ehtimal edilən hallarda, kredit öhdəliyi üzrə komissiyalar birbaşa əlaqədar xərclərlə birlikdə təxirə salınır və nəticədə verilən kreditin effektiv faiz dərəcəsinə düzəliş kimi uçotda tanınır. Kredit öhdəliyinin xüsusi kredit razılaşmasının bağlanması ilə nəticələnəcəyi ehtimal edilmədiyi hallarda, kredit öhdəliyi üzrə komissiyalar kredit öhdəliyi müddətinin qalan dövrü üzrə mənfəət və ya zərər uçotunda tanınır. Kredit öhdəliyinin müddəti kredit verilmədən başa çatarsa, belə öhdəliyə görə komissiya müddət başa çatdığı anda mənfəət və ya zərərdə tanınır. Kredit xidməti haqları xidmətlərin yerinə yetirildikdə gəlir kimi uçotda tanınır. Bütün digər komissiyalar və digər gəlir və xərc maddələri müvafiq xidmətlər göstərildikdə tanınır.

**Maliyyə alətləri**

Bank maliyyə alətləri üzrə müqavilə öhdəliyinə tərəf olduğu halda, maliyyə aktivləri və öhdəlikləri maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Maliyyə aktivləri və öhdəliklərinin adi alqı-satqısı prosesləri hesablaşma tarixi üzrə uçot üsulundan istifadə etməklə tanınır. Adi alqı və ya satqı, bazarda hər hansı qayda və ya razılaşma ilə müəyyən edilmiş vaxt çərçivəsində aktivlərin təqdim edilməsini tələb edən maliyyə aktivi alqı-satqısıdır.

Maliyyə aktivləri və maliyyə öhdəlikləri ilkin anda ədalətli dəyərlə ölçülür. Maliyyə aktivləri və maliyyə öhdəliklərinin alınması və buraxılmasına birbaşa aidiyyəti olan əməliyyat xərcləri uçotda ilkin tanınma anında maliyyə aktivləri, yaxud maliyyə öhdəliklərinin müvafiq olaraq ədalətli dəyərinə əlavə edilir və ya bu dəyərdən çıxılır. Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərində ölçülən maliyyə aktivləri və ya öhdəliklərinin alınmasına birbaşa aidiyyəti olan əməliyyat xərcləri birbaşa mənfəət və ya zərərdə tanınır.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

**Maliyyə aktivləri**

31 dekabr 2017-ci il tarixinə Bankın maliyyə aktivləri aşağıdakı kateqoriyalara təsnif edilir: "satılabilən" maliyyə aktivləri, "kreditlər və debitor borcları" və "mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərində ölçülən maliyyə alətləri". Təsnifat maliyyə aktivlərinin mahiyyəti və təyinatından asılıdır və ilkin tanınma zamanı müəyyən edilir.

***Satılabilən maliyyə aktivləri***

Satılabilən maliyyə aktivləri ya satılabilən kimi müəyyən edilmiş, ya da kreditlər və debitor borcları, ödəmə tarixinə kimi saxlanılan investisiyalar və mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərində ölçülən maliyyə aktivləri kimi təsnif edilməmiş qeyri-törəmə aktivlərdir.

Banka məxsus olan və feal bazarda alınıb-satılan ARMB istiqrazları satılabilən kimi təsnif edilir və ədalətli dəyərində göstərilir. Mənfəət və ya zərərdə tanınan müvəqqəti olmayan dəyərsizləşmə zərərləri, effektiv faiz metodu ilə hesablanmış faiz, dividend gəliri və valyuta mübadiləsindən gəlirlər və zərərlər istisna olmaqla, ədalətli dəyər fərqindən irəli gələn qazanc və zərərlər sair məcmu gəlirdə tanınır və investisiyanın yenidənqiymətləndirmə ehtiyatında yığılır. İnvestisiya silindikdə və ya dəyərsizləşdikdə investisiyanın yenidənqiymətləndirmə ehtiyatında yığılmış gəlir və ya zərər mənfəət və ya zərərə köçürülür.

Feal bazarda qiyməti bəyan edilməmiş və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən satılabilən kapital investisiyaları hər hesabat dövrünün sonunda müəyyən edilmiş hər hansı dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərində ölçülür.

***Kreditlər və debitor borcları***

Sabit və ya müəyyən oluna bilən ödənişləri olan və feal bazarda qiyməti bəyan edilməmiş ticarət debitor borcları, kreditlər və digər debitor borcları (həmçinin ARMB-dakı qalıqlar, banklardan və digər kredit təşkilatlarından alınacaq vəsaitlər, müştərilərə verilmiş kreditlər və digər maliyyə aktivləri) kreditlər və debitor borcları kimi təsnif edilir. Kreditlər və debitor borcları effektiv faiz dərəcəsi metodundan istifadə etməklə dəyərsizləşmə çıxıldıqdan sonra amortizasiya olunmuş dəyərdə ölçülür. Faiz gəliri, faizin tanınması cüzi əhəmiyyət kəsb edən qısamüddətli debitor borcları istisna edilməklə, effektiv faiz dərəcəsini tətbiq etməklə uçotda tanınır.

***Mənfəət və ya zərərdə ədalətli dəyərində qeyd olunan maliyyə alətləri***

Ədalətli dəyəri mənfəət və ya zərər vasitəsilə uçota alınan maliyyə alətlərinə aşağıdakı meyarlara cavab verən maliyyə aktivləri və ya öhdəlikləri daxildir:

- əsasən, yaxın müddətə satılmaq və ya geri alınmaq məqsədi ilə alınmış maliyyə alətləri;
- birgə idarə olunan, müəyyən edilmiş maliyyə alətləri portfelinə daxil olan və yaxın dövrdə qısamüddətli gəlir gətirdiklərinin sübutu mövcud olduğu halda;
- törəmə maliyyə alətləri (maliyyə zəmanəti müqaviləsi və ya effektiv hedcinq alətləri olan törəmə alətlər istisna olmaqla) və ya;
- uçota ilk dəfə alındığı zaman, ədalətli dəyəri mənfəət və ya zərərdə təyin olunan maliyyə aktivləri.

Bank maliyyə aktivlərini və öhdəliklərini mənfəət və ya zərər vasitəsilə uçota alınan ədalətli dəyərə aşağıdakı hallarda aid edə bilər:

- aktiv və ya öhdəliklərin idarə edilməsi, qiymətləndirilməsi və daxili uçotu ədalətli dəyərlə aparıldıqda;
- aktivlərin və ya öhdəliklərin mənfəətə və ya zərərə aid edilməsi əks halda yarana bilən uçot uyğunsuzluğunu aradan qaldırdıqda, yaxud əhəmiyyətli dərəcədə azaltdıqda, və ya;
- aktivin və ya öhdəliyin tərkibində əks halda müqavilə əsasında tələb olunacaq pul vəsaitlərinin hərəkətini əhəmiyyətli dərəcədə dəyişdirən törəmə alət olduqda.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

Xalis debitor borcu mövqeyindəki (müsbət ədalətli dəyər) bütün ticari törəmə alətlər, habelə alınmış opsionlar aktivlərdə əks olunur. Xalis kredit borcu mövqeyindəki (mənfi ədalətli dəyər) bütün ticari törəmə alətlər, habelə silinmiş opsionlar öhdəliklərdə əks olunur.

Rəhbərlik maliyyə alətlərinin həmin kateqoriyada müvafiq təsnifatını onlar uçota alındığı zaman müəyyən edir. Törəmə maliyyə alətlərinin və uçota alındığı zaman ədalətli dəyərdə mənfəət və ya zərərə aid edilmiş maliyyə alətlərinin "ədalətli dəyərdə mənfəət və ya zərər kateqoriyası" təsnifatı dəyişdirilə bilməz. Kredit və debitor borcu meyarlarına cavab verən maliyyə aktivlərinin "ədalətli dəyər əsasında mənfəət və ya zərər", yaxud "satılabilən" təsnifatı o zaman dəyişdirilə bilər ki, Bankın onları gələcəkdə və ya ödəniş tarixinədək özündə saxlamaq niyyəti və imkanı olsun. Digər maliyyə alətlərinin "ədalətli dəyərdə mənfəət və ya zərərə" təsnifatı yalnız çox nadir hallarda dəyişdirilə bilər. Bu cür hallar qeyri-adi xarakteri olan və yaxın gələcəkdə təkrarlanması ehtimal olunmayan tək bir hadisə nəticəsində yarana bilər.

Mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərində ölçülən maliyyə alətlərinin ədalətli dəyərində dəyişiklikdən yaranan gəlir və ya zərər mənfəət və ya zərərdə tanınır.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi***

Maliyyə aktivləri dəyərsizləşmə göstəricilərinin müəyyən edilməsi məqsədilə hər hesabat dövrünün sonunda qiymətləndirilir. Maliyyə aktivinin ilkin tanınmasından sonra baş vermiş bir və ya bir neçə hadisə nəticəsində investisiyaların gələcək pul hərəkətinin təsirə məruz qaldığına dair obyektiv sübut olduqda, maliyyə aktivləri dəyərsizləşmiş hesab edilir.

Satılabilən kimi təsnif edilmiş qiyməti elan edilməmiş kapital investisiyaları üçün qiymətli kağızın ədalətli dəyərinin maya dəyərindən əhəmiyyətli və ya uzunmüddətli aşağı düşməsi dəyərsizləşməyə obyektiv sübut sayılır.

Bütün digər maliyyə aktivlərin dəyərsizləşməsinə dair obyektiv sübuta aşağıdakılar aid ola bilər:

- Emitentin və ya tərəf müqabilinin əhəmiyyətli maliyyə çətinliyi ilə üzləşməsi; və ya
- Faiz və ya əsas məbləğin vaxtında ödənilməməsi və ya ödəmə öhdəliyinin yerinə yetirilməməsi halları kimi müqavilə şərtlərinin pozulması; və ya
- Borcalanın müflis olacağı və ya maliyyə strukturunun yenidən təşkil ediləcəyinin güman edilməsi; və ya
- Maliyyə çətinliklərinə görə müvafiq maliyyə aktivinin təqdim edildiyi fəal bazarın yox olması.

Kreditlər və debitor borcları kimi konkret kateqoriyalara aid olan və fərdi şəkildə dəyərsizləşmədiyi müəyyən edilən maliyyə aktivlərin dəyərsizləşməsi əlavə olaraq toplu şəkildə yoxlanılır. Kreditlər və debitor borcları portfelinin dəyərsizləşməsinə dair obyektiv sübuta Bankın ödənişlərin yığılmasına dair keçmiş təcrübəsi, portfeldə ödənişin gecikdirilməsi hallarının artması, eləcə də debitor borclarının defoltu ilə birbaşa əlaqəsi olan milli və ya yerli iqtisadi şəraitdə müşahidə edilə bilən dəyişikliklər aiddir.

Amortizasiya edilmiş dəyərində qeyd edilən maliyyə aktivlərinin dəyərsizləşmə zərərinin məbləği aktivin balans dəyəri ilə proqnozlaşdırılan pul vəsaitlərinin maliyyə aktivinin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılmış cari dəyəri arasındakı fərqə bərabərdir.

İlkin dəyərində qeyd edilən maliyyə aktivlərinin dəyərsizləşmə zərəri məbləği aktivin balans dəyəri ilə proqnozlaşdırılan pul vəsaitlərinin oxşar maliyyə aktivi üzrə cari bazar gəlirlilik norması ilə diskontlaşdırılmış cari dəyəri arasındakı fərqə bərabərdir

Maliyyə aktivinin balans dəyəri, belə dəyərin ehtiyatlar hesabına azalmasını nəzərdə tutan kreditlər və debitor borcları halı istisna olmaqla, bütün maliyyə aktivləri üçün birbaşa olaraq ehtimal olunan dəyərsizləşmə zərəri məbləğində azaldılır. Kreditlərin və ya debitor borclarının yığılması mümkün olmadıqda, belə məbləğlər ehtiyatlar hesabına silinir. Əvvəllər silinmiş məbləğlərin daha sonra qaytarılması ehtiyat hesabına kreditləşdirilir. Ehtiyat hesabının balans dəyərindəki dəyişikliklər mənfəət və ya zərərdə tanınır.

3. ƏSAS UÇOT QAYDALARI (davamı)

Satılabilən maliyyə aktivlərinin dəyərsizləşməsi zamanı digər məcmu gəlir üzrə tanınmış məcmu gəlir və ya zərərlər dövr üzrə mənfəət və ya zərər şəklində yenidən təsnif edilir.

Sonrakı dövrdə dəyərsizləşmə zərəri azaldıqda və azalma obyektiv olaraq dəyərsizləşmə tanındıqdan sonrakı dövrə aid olduqda, amortizasiya edilmiş dəyərində ölçülən maliyyə aktivlərinin tanınmış dəyərsizləşmə zərəri mənfəət və ya zərər hesabına geri qaytarılır. O şərtlə ki, dəyərsizləşmənin əvəzləşdirildiyi tarixdə investisiyanın balans dəyəri dəyərsizləşmənin tanınmadığı təqdirdə ola biləcək amortizasiya dəyərindən artıq olmasın.

Satılabilən kapital qiymətli kağızlarının mənfəət və ya zərərdə tanınmış dəyərsizləşmə zərərləri mənfəət və ya zərər hesabına geri qaytarılmır. Dəyərsizləşmə zərərindən sonra ədalətli dəyərdə hər hansı artım sair məcmu gəlirdə tanınır və "investisiyanın yenidənqiymətləndirmə ehtiyatı" bəndində yığılır.

Satılabilən borc qiymətli kağızlarının dəyərsizləşmə zərərləri, investisiyanın ədalətli dəyərindəki artım obyektiv olaraq dəyərsizləşmə zərəri tanındıqdan sonra baş vermiş hadisə ilə bağlı olduqda, sonradan mənfəət və ya zərər hesabına geri qaytarılır.

***Şərtləri təkrar razılaşdırılmış kreditlər***

Mümkün bütün hallarda Bank girovu müsadirə etmək əvəzinə kreditin restrukturizasiyasına çalışır. Bu ödəniş müddətinin uzadılması və ya yeni kredit şərtlərinin razılaşdırılması ola bilər. Yeni ödəniş müddəti razılaşdırıldıqdan sonra dəyərsizləşmə şərtlər dəyişdirilməzdən əvvəlki effektiv faiz dərəcəsi ilə ölçülür və kredit artıq vaxtı keçmiş hesab edilmir. Rəhbərlik bütün meyarlar üzrə tələblərin yerinə yetirildiyini və gələcək ödənişlərin ediləcəyini təmin etmək üçün şərtləri yenidən razılaşdırılmış kreditləri davamlı olaraq nəzərdən keçirir. Kreditlərin dəyərsizləşməsi ilkin effektiv faiz dərəcəsinə əsasən hesablanmaqla mütəmadi olaraq fərdi və toplu qaydada qiymətləndirilir.

***Kreditlərin və avansların silinməsi***

Kreditlər və avanslar yığılması mümkün olmadıqda dəyərsizləşmə zərəri üzrə ehtiyatlar hesabına silinir. Rəhbərlik Banka ödənilməli olan borcların yığılması üçün bütün mümkün vasitələrdən istifadə etdikdən və Bank saxladığı bütün girov vəsaitlərini satdıqdan sonra kreditlər və avanslar hesabdan silinir. Əvvəllər hesabdan silinmiş məbləğlərin sonradan bərpa edilməsi ödənişlərin qaytarılması dövründə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda maliyyə aktivlərinin dəyərsizləşməsi məbləğinə qarşı əvəzləşdirilir. Müəyyən olunmuş qanunvericiliyə əsasən kreditlər yalnız Müşahidə Şurasının razılığı və müəyyən hallarda, məhkəmənin müvafiq qərarı əsasında silinə bilər.

***Maliyyə aktivlərinin tanınmasının dayandırılması***

Bank yalnız aktiv üzrə pul daxilolmaları ilə bağlı müqavilə hüquqlarının vaxtı bitdikdə, yaxud maliyyə aktivini və aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və mükafatları əsas etibarilə digər tərəfə ötürdükdə maliyyə aktivinin tanınmasını dayandırır. Bank aktiv üzrə mülkiyyət hüquqları ilə bağlı bütün risk və mükafatları əsas etibarilə digər tərəfə ötürməsə və ya özündə saxlamasa və köçürülmüş aktiv üzərində nəzarətini davam etdirsə o, aktiv üzrə saxlanılmış payını və ödəməli olduğu əlaqəli öhdəliyi uçotda tanıyır. Bank ötürülmüş aktiv üzrə mülkiyyət hüququ ilə bağlı risk və mükafatları əsas etibarilə özündə saxlayarsa, belə aktivi uçotda tanımağa davam edir və aldığı məbləğlər ilə əlaqədar girovu təmin edilmiş borc vəsaitlərini də uçotda tanıyır.

Maliyyə aktivinin tanınması tamamilə dayandırıldığı halda, maliyyə aktivinin balans dəyəri ilə alınmış və alınacaq vəsaitlər və digər məcmu gəlirlərdə tanınmış və kapitalda toplanan yığılmış gəlir və ya zərərlər arasındakı fərq mənfəət və ya zərərdə tanınır.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

Maliyyə aktivinin tanınmasının tamamilə dayandırılması halından başqa digər hallarda (məs., Bank ötürülmüş aktivlərin bir hissəsini yenidən almaq seçimini saxlayırsa), Bank maliyyə aktivinin əvvəl müəyyən edilmiş balans dəyərini iştirakın davam etdiyi müddətdə tanınmağa davam etdiyi hissə ilə aktivlərin ötürülməsi tarixində həmin hissələrin nisbi ədalətli dəyərləri əsasında artıq tanınmayan hissə arasında bölüşdürür. Artıq tanınmayan hissəyə aid edilmiş balans dəyəri ilə artıq tanınmayan hissə üzrə alınmış ödəniş məbləği və ona aid edilmiş, digər məcmu gəlir haqqında hesabatda tanınmış hər hansı yığılmış gəlir və ya zərər arasında fərq mənfəət və ya zərər uçotunda tanınır. Digər məcmu gəlir haqqında hesabatda tanınmış yığılmış gəlir və ya zərər tanınması davam edən hissə ilə hissələrin nisbi ədalətli dəyəri əsasında tanınması artıq dayandırılmış hissə arasında bölüşdürülür.

**Maliyyə öhdəlikləri və buraxılmış kapital alətləri**

<u>Borc və ya kapital qismində təsnifat</u>

Borc və kapital alətləri müqavilə şərtlərinin mahiyyətinə, maliyyə öhdəliyinin və kapital alətinin tərifinə uyğun olaraq ya maliyyə öhdəliyi, ya da kapital kimi təsnif edilir.

<u>Kapital aləti</u>

Kapital aləti bütün öhdəliklər çıxıldıqdan sonra müəssisənin aktivləri üzrə qalan pay hüququnu təsdiqləyən hər hansı müqavilədir. Bank tərəfindən buraxılmış kapital alətləri birbaşa emissiya xərcləri çıxılmaqla əldə edilmiş gəlirlər kimi tanınır.

<u>Maliyyə öhdəlikləri</u>

Maliyyə öhdəlikləri, o cümlədən banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər, müştərilərə ödənilməli vəsaitlər, sair öhdəliklər və subordinasiya borcları ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərdə ölçülür.

Maliyyə öhdəlikləri sonradan effektiv faiz metodu ilə amortizasiya edilmiş dəyərində ölçülür və faiz xərcləri faktiki gəlir əsasında tanınır.

Effektiv faiz metodu maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinin hesablanması və faiz xərclərinin müvafiq dövr üzrə bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi təxmin edilən gələcək nağd pul ödəmələrini (o cümlədən effektiv faiz dərəcəsinin ayrılmaz hissəsini təşkil edən yerində ödənilmiş, yaxud alınmış bütün haqlar, əməliyyat xərcləri və digər mükafat, yaxud güzəştlər) maliyyə öhdəliyinin güman edilən müddəti, yaxud (müvafiq hallarda) daha qısa müddət ərzində ilkin tanınma zamanı xalis balans dəyərinə qədər dəqiqliklə diskontlaşdıran dərəcədir.

***Maliyyə zəmanəti müqavilələri***

Maliyyə zəmanəti müqaviləsi borc aləti üzrə şərtlərə əsasən ödənişin edilməli olduğu tarixdə müəyyən borclunun belə ödənişləri həyata keçirə bilməməsi səbəbindən qiymətli kağızın sahibinə dəymiş zərərin əvəzinin ödənilməsini emitentdən tələb edən müqavilə formasıdır.

Bankın buraxdığı maliyyə zəmanəti müqavilələri ilkin olaraq ədalətli dəyərlərində, sonradan mənfəət və ya zərərdə ədalətli dəyərində təyin edilməyibsə, aşağıdakılardan hansı yüksək olarsa, onun dəyərində ölçülür:

- MUBS 37 "Yaradılmış ehtiyat fondları, şərti öhdəliklər və şərti aktivlər" standartına uyğun olaraq müqavilə üzrə öhdəlik dəyərində; və
- Gəlir tanıma qaydalarına uyğun olaraq, müvafiq hallarda toplam tanınmış amortizasiya çıxılmaqla ilkin tanınmış dəyərdə.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

***Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması***

Bank maliyyə öhdəliklərini yalnız öz ödəniş öhdəliyini yerinə yetirdikdə, belə öhdəliyi ləğv etdikdə və ya öhdəliyin müddəti başa çatdıqda tanımağı dayandırır. Mövcud maliyyə öhdəliyi tamam başqa şərtlərlə eyni kreditorun təqdim etdiyi digər öhdəliklərlə əvəz edilərsə, yaxud mövcud öhdəliyin şərtləri əsaslı şəkildə dəyişdirilərsə, belə mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanıması ilə nəticələnir. Tanınması dayandırılmış maliyyə öhdəliyinin balans dəyəri ilə öhdəliklər üzrə ödənilmiş və ödəniləcək məbləğlər arasındakı fərq mənfəət və zərər uçotunda tanınır.

**İcarələr**

İcarələr o zaman maliyyə icarələri kimi təsnifləşdirilir ki, belə icarə şərtlərinə görə mülkiyyət hüququ üzrə bütün risk və mükafatlar əsas etibarilə icarəyə götürənə ötürülür. Bütün digər icarələr əməliyyat icarələri kimi təsnif edilir.

***Bank icarəçi kimi***

Əməliyyat icarəsi ilə bağlı ödənişlər, icarə obyekti olan aktiv üzrə iqtisadi mənfəətin tanınması üçün belə mənfəətin daxil olduğu müddəti daha uyğun əks etdirən digər bir metodun istifadə edildiyi hallar istisna olmaqla, icarə müddəti ərzində düzxətli metod əsasında xərc kimi tanınır. Əməliyyat icarələrindən irəli gələn şərti icarə haqları yarandığı dövr üzrə xərc kimi tanınır.

Əməliyyat icarəsinə daxil olmaq üçün icarə stimulları əldə edildiyi halda belə stimullar öhdəlik kimi tanınır. Stimullar üzrə ümumi mənfəət, icarə obyekti olan aktiv üzrə iqtisadi mənfəətin tanınması üçün belə mənfəətin daxil olduğu müddəti daha uyğun əks etdirən digər bir metodun istifadə edildiyi hallar istisna olmaqla, düzxətli metod əsasında azaldılan icarə xərcləri kimi tanınır.

***Bank icarəyəverən kimi***

Maliyyə icarəsi çərçivəsində icarəçilərin ödəməli olduqları məbləğlər Bank icarəyə xalis investisiyası dəyərində debitor borcu kimi tanınır. Maliyyə icarəsi üzrə gəlir Bankın icarələrlə bağlı xalis investisiyası üzrə sabit dövri gəlir normasını əks etdirməsi üçün mühasibat dövrləri üzrə paylanılır.

Əməliyyat icarələrindən icarə gəlirləri müvafiq icarə müddəti boyu düzxətli metodla tanınır. Əməliyyat icarəsi üzrə razılaşmalar və icarənin təşkili üçün çəkilən ilkin xərclər icarəyə verilmiş aktivin balans dəyərinə əlavə edilir və icarə müddəti boyu düzxətli metodla tanınır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri kassadakı nağd vəsaitlərdən, məcburi ehtiyatlar istisna olmaqla ARMB-dən alınacaq vəsaitlər, o cümlədən banklardan və kredit təşkilatlarından alınacaq ilkin ödəniş müddəti 90 gündən az olan və ya 90 gün olan və müqavilə öhdəliklərindən azad məbləğlərdən ibarətdir.

**ARMB-də minimal ehtiyat depozitləri**

ARMB-də saxlanılan minimum ehtiyat depozitləri ARMB-də depozit kimi yerləşdirilmiş, Bankın gündəlik əməliyyatlarının maliyyələşdirilməsi üçün istifadə edilməyən məcburi ehtiyatların məbləğini əks etdirir və pul vəsaitlərinin hərəkəti haqqında hesabat məqsədləri üçün pul vəsaitləri və onların ekvivalentlərinin bir hissəsi hesab edilmir.

**Balansa alınmış girovlar**

Müəyyən hallarda, ödənilməyən kreditlər ilə bağlı olaraq, mülkiyyət hüququ itirildikdə girovlar balansa alınır. Balansa alınmış girovlar satış xərcləri çıxılmaqla, balans dəyərinin və ədalətli dəyərin ən aşağı olanı ilə ölçülür.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

**Əmlak və avadanlıq**

Torpaq və binalar maliyyə vəziyyəti haqqında hesabatda yenidən qiymətləndirilən dəyərlə göstərilir ki, bu da sonrakı dövrlərin yığılmış köhnəlmə və yığılmış ehtimal olunan zərəri çıxılmaqla yenidən qiymətləndirmə tarixində onların ədalətli dəyərini əks etdirir. Yenidən qiymətləndirmələr, balans dəyərinin hər hesabat dövrünün sonunda ədalətli dəyəri tətbiq etməklə müəyyən edilə biləcək balans dəyərindən əhəmiyyətli dərəcədə fərqlənməməsi üçün kifayət qədər müntəzəm qaydada həyata keçirilir. Torpaq sahəsi ilkin dəyərlə qeyd olunur.

Binaların yenidən qiymətləndirilməsindən yaranan hər hansı artım sair məcmu gəlir haqqında hesabatda tanınır və kapitalda toplanır. Belə artımın bundan əvvəl eyni aktivin mənfəət və ya zərər uçotunda tanınmış yeni qiymətində azalmanı geri qaytardığı hal istisna edilir. Belə halda artımın əvvəllər qeyd edilmiş azalma həcmində olan hissəsi mənfəət və ya zərər də tanınır. Binaların yenidən qiymətləndirməsi zamanı balans dəyərindəki azalma əmlakın yenidən qiymətləndirmə ehtiyatında həmin aktivin əvvəlki yenidənqiymətləndirməsi ilə bağlı saxlanılan qalıqdan artıq olduğu həcmdə mənfəət və ya zərərdə tanınır.

Başa çatdırılmamış tikililər hər hansı dəyərsizləşmə çıxılmaqla ilkin dəyərlə uçota alınır. Belə başa çatmamış tikililər, onların tikintisi başa çatdıqda və təyinatı üzrə istismara hazır olduqda, müvafiq əmlak və avdanlıq kateqoriyaları üzrə təsnif edilir. Bu aktivlərin amortizasiyası, digər əmlak aktivləri halında olduğu kimi, təyinatı üzrə istismara hazır olduğu andan etibarən hesablanmağa başlayır.

Yenidən qiymətləndirilmiş binaların amortizasiyası mənfəət və ya zərərdə tanınır. Yenidən qiymətləndirilmiş əmlak satıldıqda, yaxud istismardan çıxarıldıqda, əmlakın yenidənqiymətləndirməsi ehtiyatında qalan artıq məbləğ birbaşa bölüşdürülməmiş mənfəətə köçürülür.

Mülkiyyətdə olan torpaq sahəsinə amortizasiya hesablanmır.

Mebel və avadanlıq yığılmış amortizasiya və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərində qeyd edilir.

Amortizasiya düzxətli metoddan istifadə etməklə aktivlərin (mülkiyyətdə olan torpaq sahələri və tikintisi başa çatmamış əmlaklar istisna olmaqla) ilkin dəyərini və ya qiymətini, qalıq dəyəri çıxılaraq, faydalı istismar müddətləri üzrə silməklə uçotda tanınır. Təxmin edilən faydalı istismar müddəti, qalıq dəyəri və amortizasiya metodu perspektiv əsaslarla uçotu aparılan hesablaşmalar üzrə dəyişikliklərin aşağıdakı illik dərəcələrlə təsiri nəzərə alınmaqla hər hesabat dövrünün sonunda təhlil edilir:

| | |
|---|---|
| Binalar | 5% |
| Mebel və avadanlıq | 20% |
| Kompüterlər və rabitə avadanlıqları | 25% |
| Nəqliyyat vasitələri | 20% |
| Digər | 20% |

Əmlak və avadanlıq bəndlərinin tanınması onlar hesabdan silindikcə və ya aktivin davamlı istifadəsindən gələcəkdə iqtisadi mənfəət gözlənmədikdə dayandırılır. Əmlak və avadanlıq vasitələrinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərərlər belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesabında tanınır.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

### Qeyri-maddi aktivlər

Ayrı-ayrılıqda alınmış qeyri-maddi aktivlər

Məhdud istismar müddəti olan ayrı-ayrılıqda alınmış qeyri-maddi aktivlər yığılmış amortizasiya və ya yığılmış dəyərsizləşmə zərəri çıxılmaqla ilkin dəyər ilə uçotda qeyd edilir. Amortizasiya aktivin təxmin edilən faydalı istismar müddəti ərzində düzxətli metodla uçotda tanınır. Təxmin edilən faydalı istismar müddəti və amortizasiya metodu perspektiv əsaslarla uçota alınan təxminlərdəki hər hansı dəyişikliklərin təsiri nəzərə alınmaqla hər hesabat dövrünün sonunda təhlil edilir. Qeyri-maddi aktivlərə 10 il faydalı istismar müddəti ərzində amortizasiya hesablanır.

Qeyri-maddi aktivlərin tanınmasının dayandırılması

Qeyri-maddi aktivlərin tanınması satılaraq hesabdan silindikdə, yaxud onların gələcək istismarı və ya satışından iqtisadi mənfəət gözlənilmədikdə dayandırılır. Qeyri-maddi aktivlərin tanınmasının dayandırılmasından yaranan gəlir və ya zərər, belə aktivlərin balans dəyəri ilə satışından əldə olunan xalis gəlir məbləği arasındakı fərq kimi ölçülür və aktivin tanınması dayandırıldığı zaman mənfəət və ya zərər hesabında tanınır.

Maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməsi

Bank maddi və qeyri maddi aktivlərin dəyərsizləşmə zərərinə məruz qalıb-qalmadığını müəyyən etmək üçün hər hesabat dövrünün sonunda belə aktivlərin balans dəyərini təhlil edir. Dəyərsizləşmənin baş verdiyinə dəlalət edən hər hansı hallar mövcud olarsa, dəyərsizləşmə zərərinin (əgər varsa) həcmini müəyyən etmək üçün aktivin bərpa dəyəri hesablanır. Aktivin bərpa dəyərini fərdi qaydada müəyyən etmək mümkün olmadıqda, Bank həmin aktivin aid olduğu gəlir gətirən aktivlər qrupunun bərpa dəyərini müəyyən edir. Aktivin yerləşdirilməsinə münasib və ardıcıl əsaslar müəyyən edildiyi hallarda, korporativ aktivlər də fərdi gəlir gətirən aktivlər qrupuna yerləşdirilə bilər, yaxud əks halda, münasib və ardıcıl yerləşdirmə əsasları müəyyən edilmiş ən kiçik gəlir gətirən aktivlər qrupunda yer alır.

Bərpa dəyərini satış xərcləri çıxılmaqla ədalətli dəyərdən və istifadə dəyərindən böyüyü təşkil edir. İstismar dəyərini qiymətləndirərkən təxmin edilən gələcək pul vəsaitlərinin hərəkəti pulun vaxt dəyərinin və gələcək pul vəsaitlərinin hərəkəti ilə bağlı təxminlərə düzəlişlərin edilmədiyi aktiv üçün səciyyəvi olan risklərin hazırkı bazar qiymətləndirməsini özündə əks etdirən vergiyəqədərki diskont dərəcəsindən istifadə etməklə cari dəyərinə qədər diskontlaşdırılır.

Aktivin (və ya gəlir gətirən aktivlər qrupunun) bərpa dəyərinin onun balans dəyərindən az olduğu hesablanarsa, belə aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) balans dəyəri bərpa dəyərinə kimi azaldılır. Müvafiq aktiv uçotda yenidən qiymətləndirilmiş dəyərlə əks olunmazsa (bu zaman dəyərsizləşmə zərəri yenidən qiymətləndirmə zamanı azalma hesab edilir), belə zərər dərhal mənfəət və zərər hesabatında tanınır.

Dəyərsizləşmə zərəri sonradan geri qaytarıldıqda, aktivin (yaxud gəlir gətirən aktivlər qrupunun) balans dəyəri hesablanmasına düzəliş edilmiş bərpa dəyərinə qədər artırılır. Bu zaman artırılmış balans dəyəri aktiv (yaxud gəlir gətirən aktivlər qrupu) üzrə əvvəlki illərdə dəyərsizləşmə zərəri tanınmasaydı onun balans dəyərinin ola biləcəyi qiymətindən artıq olmamalıdır. Müvafiq aktivin yenidənqiymətləndirmə dəyərində qeydə alındığı və bu zaman dəyərsizləşmə zərərinin yenidən qiymətləndirmə nəticəsində artım hesab edildiyi hal istisna olmaqla, dəyərsizləşmə zərəri dərhal mənfəət və ya zərərdə tanınır.

### Vergiqoyma

Mənfəət vergisi xərcləri cari ödənilməli və təxirə salınmış vergidən ibarətdir.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

*Cari vergi*

Ödənilməli olan cari vergi il üzrə vergiyə cəlb olunan mənfəət əsasında tutulur. Vergiyə cəlb olunan mənfəət digər illərdə vergiyə cəlb olunan, yaxud gəlirdən çıxılan və heç vaxt vergiyə cəlb olunmayan, yaxud gəlirdən çıxılmayan gəlir və ya xərc müddəaları ilə əlaqədar mənfəət və ya zərər haqqında hesabatda əksini tapmış mənfəətdən fərqlənir. Bankın cari vergi ilə bağlı öhdəliyi hesabat dövrünün sonuna qanuni qüvvəyə minmiş və ya əsasən qüvvəyə minmiş vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Azərbaycan Respublikasının Vergilər Nazirliyinə 2015-ci ildə vaxtından əvvəl ödəmələr edilmişdir və bu qalıq hər növ vergi üçün yığılan və ödənilən vəsaitlərin tanınmasından sonra toplam yekun qalığı əks etdirir.

***Təxirə salınmış vergi***

Təxirə salınmış vergi maliyyə hesabatları məqsədləri üçün aktiv və öhdəliklərin balans dəyərləri ilə vergi hesablanması məqsədilə istifadə olunan məbləğlər arasındakı müvəqqəti fərqlərə münasibətdə tanınır. Təxirə salınmış vergi mühasibat uçotu və ya vergi tutulan mənfəət və ya zərərə təsir göstərməyən əməliyyatda aktiv və öhdəliklərin ilkin tanınmasından irəli gələn müvəqqəti fərqlər üçün tanınmır.

Təxirə salınmış vergi aktivi yalnız o zaman uçota alınır ki, istifadə edilməmiş vergi itkilərinin, istifadə edilməmiş vergi güzəştlərinin, müvəqqəti fərqlərin əvəzini ödəyə biləcək vergilərə cəlb edilən gələcək gəlirlərin mövcud olacağı ehtimal olunsun. Gələcəkdə vergi tutula bilən mənfəət müvafiq vergi tutulan müvəqqəti fərqlərin bərpası əsasında müəyyən edilir. Vergi tutulan müvəqqəti fərqlərin məbləği təxirə salınmış vergi aktivini tam tanımaq üçün kifayət deyilsə, gələcəkdə vergi tutula bilən mənfəət Bankda ayrı-ayrı törəmə müəssisələr üzrə biznes planlar əsasında nəzərə alınır. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir və əlaqəli vergi gəlirləri yaranmadığı təqdirdə müəyyən miqdarda azaldılır; gələcəkdə vergi tutulan mənfəətlər artıqda, bu azaldılmalar geri qaytarılır.

Tanınmamış təxirə salınmış vergi aktivləri hər hesabat tarixində təkrar qiymətləndirilir və o zaman uçota alınır ki, onların əvəzini ödəyə biləcək vergilərə cəlb edilən gələcək gəlirlərin mövcud olacağı ehtimal olunsun. Təxirə salınmış vergi hesabat tarixinə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş qanunlara uyğun olaraq, müvəqqəti fərqlərə onlar ləğv ediləcəyi zaman tətbiq ediləcək gözlənilən vergi dərəcələri əsasında müəyyən olunur.

Təxirə salınmış verginin ölçülməsi hesabat dövrünün sonunda aktiv və öhdəliklərin balans dəyərini bərpa etmək və ya müəyyənləşdirmək üçün Bankın gözlədiyi qaydada vergi nəticələrini əks etdirir.

Cari və təxirə salınmış vergi öhdəliklərini müəyyən etmək üçün Bank qeyri-müəyyən vergi mövqeyinin təsirini, əlavə vergiləri, penyaları və ödənilməmiş faizləri nəzərə alır. Bank bir sıra amillərin qiymətləndirilməsinə, o cümlədən vergi qanunvericiliyin təfsirinə və əvvəlki təcrübəsinə əsaslanaraq inanır ki, vergi öhdəlikləri üçün hesablaşmalar bütün açıq vergi illərinə görə adekvatdır. Bu qiymətləndirmə ehtimal və fərziyyələrə əsaslanaraq həyata keçirilir və uyğun olaraq gələcək hadisələr haqqında ehtimalları əhatə edə bilər. Bankın mövcud vergi öhdəliklərinin adekvatlığı ilə bağlı öz mülahizəsini dəyişdirməsinə səbəb olan yeni məlumatlar yarana bilər; vergi öhdəliklərinə bu cür dəyişikliklər həmin qərarın verildiyi dövrdə vergi xərci məbləğinə təsir edə bilər.

***İl üzrə cari və təxirə salınmış vergi***

Cari və təxirə salınmış vergi sair məcmu gəlir haqqında hesabatda, yaxud bilavasitə kapitalda göstərilən müddəalarla bağlı olduğu və nəticə etibarilə, müvafiq olaraq sair məcmu gəlir və ya bilavasitə kapital bəndi kimi tanındığı hallar istisna edilməklə, mənfəət və ya zərərdə tanınır.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

*Əməliyyat vergiləri*

Azərbaycan Respublikasında Bankın fəaliyyətinə bir sıra digər vergilər də tətbiq edilir. Belə vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi sair məcmu gəlir haqqında hesabata daxil edilir.

**Ehtiyatlar**

Ehtiyatlar, Bank keçmiş hadisələrin nəticəsi olaraq hazırda öhdəliyə (hüquqi, yaxud konstruktiv) malik olduqda tanınır. Bu zaman Bankdan öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı və öhdəlik məbləğinin etibarlı şəkildə hesablana biləcəyi ehtimal edilir.

Ehtiyatlar kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün hesablanmasıdır. Ehtiyat cari öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitləri hərəkətinə istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

Ehtiyatların təmin edilməsi üçün tələb olunan iqtisadi mənfəətin bir hissəsinin və ya bütövünün üçüncü tərəf vasitəsilə bərpa ediləcəyi gözlənilərsə, bu vəsaitin qaytarılması və alınacaq belə vəsaitlərin düzgün qiymətləndirilməsi barədə qəti əminlik olduqda alınacaq məbləğ uçotda aktiv kimi tanınır.

**Şərti aktiv və öhdəliklər**

Şərti öhdəliklər hesablaşma zamanı hər hansı məxaric ehtimalı olmadıqda maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin açıqlanır. Şərti aktiv maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, lakin iqtisadi mənfəətin əldə olunacağı yüksək ehtimal edildikdə açıqlanır.

**Xarici valyutalar**

Bankın maliyyə hesabatları hazırlanarkən müəssisənin əməliyyat valyutasından başqa digər valyuta (xarici valyutalar) ilə aparılan əməliyyatlar belə əməliyyatların aparıldığı tarixdə üstünlük təşkil edən mübadilə məzənnələri ilə qeydə alınır. Hər hesabat dövrünün sonunda xarici valyuta ilə ifadə olunmuş pul vəsaitləri həmin tarixdə üstünlük təşkil edən məzənnə ilə təkrar qiymətləndirilir. Xarici valyutada ədalətli dəyər ilə uçota alınmış qeyri-monetar vəsaitlərin valyuta mövqeyi ədalətli dəyərin müəyyənləşdirildiyi tarixdə üstünlük təşkil edən məzənnə ilə təkrar qiymətləndirilir. İlkin dəyərlə xarici valyutada ölçülmüş qeyri-monetar vəsaitlərin valyuta mövqeyi təkrar qiymətləndirilmir. Monetar maddələr üzrə məzənnə fərqləri mənfəət və ya zərərdə tanınır.

İlin sonunda maliyyə hesabatlarının hazırlanması zamanı Bankın tətbiq etdiyi valyuta mübadiləsi məzənnələri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| AZN/1 ABŞ dolları | 1.7001 | 1.7707 |
| AZN/1 Avro | 2.0307 | 1.8644 |

**Girov**

Bank uyğun görülən hallarda müştərilərin öhdəlikləri müqabilində girov alır. Girov adətən müştəri əmlakı üzərinə hüquq formasında olur və Banka həm mövcud, həm də gələcək müştəri öhdəliklərinə görə bu aktivlərə qarşı iddia irəli sürmək hüququ verir.

**Kapital ehtiyatları**

Bankın maliyyə vəziyyəti haqqında hesabatında kapitalda qeyd edilmiş ehtiyatlara binaların və satılabilən qiymətli kağızların ədalətli dəyərindəki dəyişiklikləri təşkil edən yenidənqiymətləndirmə ehtiyatları daxildir.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

**Dayandırılmış əməliyyat**

27 yanvar 2017-ci il tarixində Bank tam sahib olduğu müəssisənin fəaliyyətini dayandırmışdır. Rəhbərlik Bankın əsas fəaliyyət sahələrinə - kommersiya və pərakəndə müştərilərə bankçılıq xidmətlərinin göstərilməsinə daha çox diqqət ayırmaq barədə verilmiş strateji qərarın davamı olaraq 2017-ci ilin əvvəlində törəmə müəssisənin ləğv edilməsi planını həyata keçirdi.

Törəmə müəssisə bunadək dayandırılmış əməliyyat kimi təsnif edilməmişdi. Göstəricilər böyük əhəmiyyət kəsb etmədiyi üçün dayandırılmış əməliyyatı davam edən əməliyyatlardan ayrıca göstərmək məqsədilə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında məlumata müqayisə üçün düzəlişlər edilməmişdir.

**Mühüm mühasibat uçotu mühakimələri və təxminlərdəki qeyri-müəyyənliklərin başlıca mənbələri**

Mühasibat uçotu qaydalarını tətbiq edərkən Bank rəhbərliyindən digər mənbələrdən açıq əldə edilməsi mümkün olmayan aktiv və öhdəliklərin balans dəyərinə dair mühakimələr, hesablamalar və təxminlər irəli sürməsi tələb olunur. Hesablamalar və əlaqədar təxminlər keçmiş təcrübəyə və digər müvafiq amillərə əsaslanır. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

Təxminlər və əsas götürülən ehtimallar davamlı olaraq təhlil edilir. Mühasibat təxminlərinə olan düzəlişlər, belə düzəliş yalnız baş verdiyi dövrə təsir göstərdikdə həmin dövrdə, cari və gələcək dövrlərə təsir göstərdikdə isə düzəlişin baş verdiyi və gələcək dövrdə tanınır.

***Təxminlərdəki qeyri-müəyyənliyin başlıca mənbələri***

Aşağıda gələcək dövrlərə aid əsas fərziyyələr və hesabat dövrünün sonuna təxminlərlə bağlı qeyri-müəyyənliyin başlıca mənbələri göstərilir ki, bu da növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb ola bilər.

***Kreditlərin və debitor borclarının dəyərsizləşməsi***

Bank dəyərsizləşməni müəyyən etmək məqsədilə kreditləri və debitor borclarını mütəmadi olaraq nəzərdən keçirir. Bankın kreditlər və debitor borcları portfelində baş vermiş dəyərsizləşmə zərərinin tanınması üçün kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatlar yaradılır. Bank kreditlər və debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyatlara dair mühasibat təxminlərini qeyri-müəyyənliyin mənbəyi hesab edir, çünki (i) onlar gələcək cərimə faiz dərəcələri barədə fərziyyələrin, eləcə də dəyərsizləşmiş kreditlər və debitor borcları ilə bağlı potensial itkilərin qiymətləndirilməsinin yaxın keçmişdəki fəaliyyət nəticələrinə əsaslanması səbəbindən vaxtaşırı olaraq dəyişikliklərə məruz qalır və (ii) Bankın hesabladığı zərər ilə faktiki zərər arasında hər hansı əhəmiyyətli fərq ondan gələcək dövrlərdə maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərə biləcək ehtiyatları qeyd etməyi tələb edə bilər.

Borcalanlar maliyyə çətinlikləri ilə üzləşdikdə və belə borcalanlara dair tarixi məlumat mənbələri az olduqda, Bank hər hansı dəyərsizləşmə zərərinin məbləğini hesablamaq üçün rəhbərliyin mühakimələrinə əsaslanır. Eyni ilə, Bank keçmiş fəaliyyət nəticələri, keçmiş müştəri davranışı, qrup daxilində borcalanın ödəmə qabiliyyətindəki mənfi dəyişiklikləri göstərən müşahidə oluna bilən məlumatlar, eləcə də qrup daxilində aktiv üzrə öhdəliyin yerinə yetirilməsi halları ilə əlaqəli olan ölkə və yerli iqtisadi şəraitlərə əsaslanmaqla gələcək pul vəsaitlərinin hərəkətindəki dəyişiklikləri hesablayır. Rəhbərlik kredit riski ilə səciyyələnən aktivlər üçün əvvəllər baş vermiş zərər üzrə keçmiş təcrübəyə və kreditlər qrupunda olduğu kimi dəyərsizləşməyə dəlalət edən obyektiv sübutlara əsaslanan ehtimallardan istifadə edir. Bank tarixi məlumatlarda əksini tapmamış cari vəziyyətin qeyd edilməsi məqsədilə kreditlər qrupu üzrə müşahidə oluna bilən məlumatlara düzəliş etmək üçün rəhbərliyin mühakimələrinə əsaslanır.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

Maliyyə hesabatlarına maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyat müddasının daxil edilməsi mövcud iqtisadi və siyasi şəraitə əsasən müəyyən olunmuşdur. Bank Azərbaycan Respublikasında belə şərtlərlə bağlı hansı dəyişikliklərin baş verəcəyini və belə dəyişikliklərin gələcək dövrlərdə maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə ehtiyatlara necə təsir göstərəcəyini təxmin etmək iqtidarında deyil.

31 dekabr 2017 və 2016-cı il tarixlərinə müştərilərə verilmiş kreditlərin ümumi məbləği müvafiq olaraq 362,154 min manat and 387,752 min manat, dəyərsizləşmə zərəri üzrə ehtiyat müvafiq olaraq 142,351 min manat və 148,599 min manat təşkil etmişdir.

Bank dəyərsizləşmə əlamətləri olan əhəmiyyətli kreditlərin dəyərsizləşməsini hər krediti fərdi təhlil etməklə və gələcək pul vəsaitlərini proqnoz etməklə yoxlayır. Gələcək pul vəsaitlərinin bu cür proqnozu əlaqəli girovun təxmin edilən dəyəri və girovun satışından gəlirin 12 aydan 36 ayadək gecikməsi kimi amillərdən asılıdır. Daha sonra Bank kredit dəyərsizləşməsi üçün tələb olunan məbləği müəyyən etmək üçün kreditin ilkin effektiv faiz dərəcəsinə bərabər diskont dərəcəsindən istifadə etməklə həmin pul vəsaitlərinin xalis cari dəyərini hesablayır.

Fərdi əhəmiyyəti olmayan və dəyərsizləşmə əlamətlərinə malik qalan kredit portfelində və fərdi dəyərsizləşmə əlaməti olmayan kreditlərdə Bank hər kredit növü üzrə keçmiş zərər təcrübəsinə əsaslanaraq kollektiv dəyərsizləşməni hesablayır. Bu kollektiv dəyərsizləşmə Bankın hesabat tarixinədək çəkilmiş, lakin aşkarlanmamış, portfel üçün səciyyəvi dəyərsizləşmə zərərlərinə dair proqnozlarını əks etdirir. Kollektiv dəyərsizləşmənin hesablanmasında istifadə olunan başlıca qeyri-müəyyənlik və mülahizələrə daxildir:

- Zərər dərəcələri sabitdir və son 24 ay ərzində zərərin miqrasiyasına dair tarixi məlumata əsasən proqnoz edilə bilər.
- Daşınmaz əmlakın ilkin qiymətində 30% azalma.

***Dövlət təşkilatlarından alınmış kreditlər***

Rəhbərlik Sahibkarlığa Kömək Milli Fondu və "Azərbaycan İpoteka Fondu" ASC ilə müqavilələrin məzmununu, xüsusilə bu proqram üzrə Bankın dövlət təşkilatları ilə vasitəçi və ya borcalanla əsas tərəf kimi fəaliyyət göstərib-göstərməməsini qiymətləndirmişdir. Bu proqram üzrə verilmiş kreditlərlə bağlı riskləri və imtiyazları qiymətləndirməklə rəhbərlik belə qərara gəlmişdir ki, Bank əsas tərəf kimi fəaliyyət göstərir və bu maliyyə hesabatlarındakı uçot da həmin mühakiməyə əsaslanır.

Bankın dövlət orqanlarının qərarlarına əsasən bu proqram çərçivəsində verdiyi kreditlərə oxşar alətlər bazarda mövcud deyil və mahiyyət etibarilə bənzərsiz olduğuna, dövlət icarə proqramının və borcalanlar kateqoriyasının xüsusiyyətlərinə görə bazarda ayrıca bir seqment formalaşdırır. Nəticə etibarilə, rəhbərlik bu tip kreditlərin bazar dərəcəsini müqavilə üzrə faiz dərəcəsinə bərabər hesab edir və nominal dəyərlərinə bərabər ədalətli dəyərdə tanıyır. Eynilə, Bankın dövlət orqanlarından bu proqramlar çərçivəsində aldığı vəsaitlərlə bağlı, rəhbərlik belə vəsaitlər üçün bazar dərəcəsini müqavilə üzrə faiz dərəcəsinə bərabər götürür və onları nominal dəyərlərinə bərabər ədalətli dəyərdə tanıyır.

***Maliyyə alətlərinin dəyərləndirilməsi***

24-cü qeyddə təsvir edildiyi kimi, Bank müəyyən növ maliyyə alətlərinin ədalətli dəyərini hesablamaq üçün müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmayan ilkin məlumatlardan ibarət qiymətləndirmə üsullarından istifadə edir. 24-cü qeyddə maliyyə alətlərinin ədalətli dəyərinin müəyyənləşdirilməsində tətbiq edilən əsas fərziyyələrə dair müfəssəl məlumat, eləcə də belə fərziyyələr üzrə həssaslıq təhlilinin təfərrüatları göstərilir. Bank rəhbərliyi hesab edir ki, seçilmiş qiymətləndirmə üsulları və tətbiq olunan fərziyyələr maliyyə alətlərinin ədalətli dəyərinin müəyyən edilməsi üçün məqsədəuyğundur.

## 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

Mümkün olduqda, Bank alətin ədalətli dəyərini həmin alət üçün fəal bazarda elan edilmiş qiymətlə ölçür. Aktivlə və ya öhdəliklə əməliyyatlar qiyməti haqqında davamlı olaraq məlumatla təmin etmək üçün yetərli tezlikdə və həcmdə aparıldıqda bazar fəal sayılır.

Fəal bazarda elan edilmiş qiymət olmadıqda, Bank müşahidə edilə bilən müvafiq məlumatdan istifadəni maksimum artıran və müşahidə edilə bilinməyən məlumatdan istifadəni minimuma endirən qiymətləndirmə üsullarını tətbiq edir. Seçilmiş qiymətləndirmə üsulu bu şəraitdə bazar iştirakçılarının nəzərə ala biləcəyi bütün amilləri özündə ehtiva edir.

İlkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyərinin ən yaxşı sübutu adətən əməliyyat qiyməti, yəni alınmış və ya ödənilmiş ədalətli məbləğdir. Bank ilkin tanınma zamanı qəbul edilmiş ədalətli dəyərin əməliyyat qiymətindən fərqləndiyini və ədalətli dəyərin nə fəal bazarda oxşar aktiv və ya öhdəlik üçün elan edilmiş qiymətə, nə də müşahidə edilə bilən bazarlardan alınmış məlumatı istifadə edən qiymətləndirmə üsuluna əsaslanmadığını müəyyən etdikdə, maliyyə aləti ilkin olaraq ilkin tanınma zamanı ədalətli dəyərlə əməliyyat qiyməti arasındakı fərq nəzərə alınmaqla ədalətli dəyərində ölçülür. Sonradan, qiymətləndirmə bütövlükdə müşahidə edilə bilən bazar məlumatı ilə dəstəkləndiyi müddətdə və əməliyyat bitirilmədən öncə, həmin fərq alətin istifadə müddəti boyu müvafiq əsasla mənfəət və ya zərərdə tanınır.

***Yenidənqiymətləndirmə dəyərində qeydə alınmış əmlak və avadanlıqlar***

Müəyyən əmlaklar (binalar) yenidən qiymətləndirilmiş məbləğdə ölçülür. Ən son tamhəcmli qiymətləndirmə 31 dekabr 2015-ci ildə həyata keçirilmişdir. O zamandan etibarən əmlak qiymətlərində əhəmiyyətli dəyişiklik baş verməmişdir. Yenidən qiymətləndirilmiş əmlakların balans dəyəri 31 dekabr 2017 və 2016-cı il tarixlərinə müvafiq olaraq 11,909 min manat və 12,561 min manat təşkil etmişdir.

## 4. MALİYYƏ HESABATLARININ YENİ VƏ TƏKMİLLƏŞDİRİLMİŞ BEYNƏLXALQ STANDARTLARININ TƏTBİQİ (MHBS)

Aşağıdakı yeni standartlar, onlara düzəlişlər və şərhlər 31 dekabr 2017-ci il tarixinə qüvvəyə minməmişdir və hazırki maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilməmişdir. Bu yeniliklərdən aşağıdakıların maliyyə vəziyyəti və nəticələrinə təsiri ola bilər. Bank bu yenilikləri qüvvəyə mindikləri zaman tətbiq etməyi düşünür.

### (a) MHBS 9 Maliyyə alətləri

2014-cü ilin iyul ayında BMHSŞ MHBS 9 *Maliyyə Alətləri* standartının yekun versiyasını dərc etdi. MHBS 9 1 yanvar 2018-ci il tarixində və ya həmin tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir və standartın erkən qəbuluna icazə verilir. Bu standart MUBS 39 *"Maliyyə Alətləri: Tanıma və Qiymətləndirmə"*'ni əvəz edir.

2017-ci ilin oktyabrında BMHSŞ *Mənfi Kompensasiya ilə vaxtından əvvəl ödəniş şərtini (MHBS 9-a düzəlişlər)* dərc etdi. Düzəlişlər 1 yanvar 2019-cu il tarixində və ya həmin tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir və onların erkən qəbuluna icazə verilir.

Bank 2014-cü ilin iyul ayında dərc edilmiş MHBS 9 *Maliyyə Alətləri* standartını ilk olaraq 1 yanvar 2018-ci il tarixində tətbiq edəcək.

### *i. Təsnifat – Maliyyə aktivləri*

MHBS 9 maliyyə aktivləri üçün həmin aktivlərin idarə olunduğu biznes modelini və onların pul axını xüsusiyyətlərini əks etdirən yeni təsnifat və ölçmə yanaşmasından ibarətdir.

MHBS 9 maliyyə aktivləri üçün üç əsas təsnifat kateqoriyasını əhatə edir: amortizasiya olunmuş dəyərində, sair məcmu gəlirdə ədalətli dəyərində və mənfəət və ya zərərdə ədalətli dəyərində ölçülən aktivlər. Standart MUBS 39-a əsasən ödəniş tarixinədək saxlanılan, kreditlər və debitor borcları və satılabilən kateqoriyalarını istisna edir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və mənfəət və ya zərərdə ədalətli dəyərində təyin edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

**3.ƏSAS UÇOT QAYDALARI (davamı)**

- müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və mənfəət və ya zərərdə ədalətli dəyərində təyin edilmədikdə edilmədikdə, sair məcmu gəlirdə ədalətli dəyərində ölçülür:
- müqavilə üzrə pul axınlarının toplanması və maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Bank ədalətli dəyərdəki sonrakı dəyişiklikləri sair məcmu gəlirdə təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Yuxarıda qeyd edildiyi kimi, amortizasiya olunmuş dəyərində və ya sair məcmu gəlirdə ədalətli dəyərində ölçülmüş kimi təsnif edilməyən maliyyə aktivləri mənfəət və ya zərərdə ədalətli dəyərində ölçülür. Bununla yanaşı, ilkin tanıma zamanı Bank amortizasiya olunmuş dəyərində və ya sair məcmu gəlirdə ədalətli dəyərində ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini mənfəət və ya zərərdə ədalətli dəyərdindəki kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

Maliyyə aktivi ilkin tanınma zamanı bu kateqoriyalardan birində təsnif edilir.

**Biznes modelinin qiymətləndirilməsi**

Bank maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirəcək, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, o cümlədən rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəriciləri necə qiymətləndirilir və Bankın rəhbərliyinə necə çatdırılır;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- Bank rəhbərlərinə ödəniş necə edilir, yəni ödəniş idarə olunan aktivlərin ədalətli dəyərinə əsaslanır, yoxsa müqavilə üzrə toplanılan pul vəsaitlərinə; və
- əvvəlki dövrlərdə baş vermiş satışların tezliyi, həcmi və zamanlaması, belə satışların səbəbi və gələcək satış fəaliyyətinə dair gözləntilər. Bununla belə, satış fəaliyyəti haqqında məlumat təcrid olunmuş şəkildə deyil, Bankın maliyyə aktivlərinin idarə edilməsinə dair qarşısına qoyduğu məqsədlərə necə nail olması və pul vəsaitlərini necə idarə etməsinin ümumi qiymətləndirilməsinin bir hissəsi kimi nəzərə alınır.

Ticarət üçün saxlanılan, ədalətli dəyər əsasında idarə olunan və qiymətləndirilən maliyyə aktivləri mənfəət və ya zərərdə ədalətli dəyərində ölçüləcək, çünki onlar nə müqavilə üzrə pul axınlarını toplamaq, nə də müqavilə üzrə pul axınlarını toplamaqla bərabər, maliyyə aktivlərini satmaq üçün saxlanılır.

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi**

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

**3.ƏSAS UÇOT QAYDALARI (davamı)**

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Bank alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərti qarşılamaması ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edəcək. Qiymətləndirmə zamanı Bank aşağıdakıları nəzərə alacaq:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;

- vaxtından əvvəl ödəniş və müddətin uzadılması şərtləri;

- Bankın müəyyən aktivlərdən pul axınlarına iddiasını məhdudlaşdıran şərtlər, məsələn, reqressiz aktivlər; və

- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər, məsələn, faiz dərəcələrinin mütəmadi yenilənməsi.

Bankın bütün pərakəndə kreditləri və müəyyən sabit dərəcəli kreditləri vaxtından əvvəl ödəniş xüsusiyyətlərinə malikdir.

Vaxtından əvvəl ödəniş məbləği əsas etibarilə ödənilməmiş əsas məbləğ və əsas məbləğ üzrə faizi əks etdirdikdə (bura müqaviləyə erkən xitam verilməsinə görə əsaslandırılmış məbləğdə ödəniş daxil ola bilər) əsas məbləğ və faiz ödənişi meyarına uyğun gəlir.

Bununla yanaşı, maliyyə aktivi müqavilə üzrə öz minimal məbləğinə diskontla əldə olunduqda və ya yaradıldıqda, vaxtından əvvəl ödəniş məbləği müqavilə üzrə nominal məbləği üstəgəl hesablanmış (lakin ödənilməmiş) faizi (bura müqaviləyə erkən xitam verilməsinə görə əsaslandırılmış məbləğdə ödəniş daxil ola bilər) əhatə etdikdə və vaxtından əvvəl ödəniş şərtinin ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyətsiz olduqda, vaxtından əvvəl ödəniş şərti bu meyara uyğun hesab edilir.

**Təsirin qiymətləndirilməsi**

Standart 1 yanvar 2018-ci il tarixinə saxlanılan maliyyə aktivlərinin təsnifatı və ölçülməsinə aşağıdakı kimi təsir edəcək.

- MUBS 39-a əsasən kreditlər və debitor borcları kimi təsnif edilən və amortizasiya edilmiş dəyərində ölçülən banklara və müştərilərə verilmiş kreditlər və avanslar MHBS 9-a əsasən də amortizasiya edilmiş dəyərində ölçüləcək.
- MUBS 39-a əsasən satılabilən kimi təsnif edilən borc investisiya qiymətli kağızları MHBS 9-a əsasən xüsusi hallardan asılı olaraq amortizasiya edilmiş dəyərində və ya mənfəət və ya zərərdə ədalətli dəyərində ölçülə bilər.
- MUBS 39-a əsasən satılabilən kimi təsnif edilən pay investisiya qiymətli kağızlarının əksəriyyəti MHBS 9-a əsasən mənfəət və ya zərərdə ədalətli dəyərində ölçüləcək.

*ii.* ***Dəyərsizləşmə – Maliyyə aktivləri, kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri***

MHBS 9 MUBS 39-da qeyd edilən "çəkilmiş zərər" modelini gələcəyə yönəlik "gözlənilən kredit zərəri" modeli ilə əvəz edir. Bu model iqtisadi amillərdə baş verən dəyişikliklərin ehtimalın ölçülməsi əsası ilə müəyyən ediləcək gözlənilən kredit zərərlərinə necə təsir etməsi ilə bağlı əhəmiyyətli mühakimə tələb edir.

Yeni dəyərsizləşmə modeli mənfəət və ya zərərdə ədalətli dəyərində ölçülməyən aşağıdakı maliyyə alətlərinə tətbiq edilir:

- borc alətləri olan maliyyə aktivləri;

- icarə üzrə debitor borcları; və

- kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri (daha əvvəl dəyərsizləşmə MUBS 37 *Ehtiyatlar, şərti öhdəliklər və şərti aktivlər* əsasında ölçülürdü).

MHBS 9-a əsasən, kapital qoyuluşları üzrə dəyərsizləşmə zərəri tanınmır.

**3.ƏSAS UÇOT QAYDALARI (davamı)**

MHBS 9 zərər üzrə ehtiyatın ya 12 aylıq gözlənilən kredit zərərlərinə, ya da bütün dövr üçün gözlənilən kredit zərərlərinə bərabər məbləğdə tanınmasını tələb edir. Bütün dövr üçün gözlənilən kredit zərərləri maliyyə alətinin gözlənilən müddəti ərzində bütün mümkün defolt hadisələrindən yaranan gözlənilən kredit zərərləridir. 12 aylıq gözlənilən kredit zərərləri isə gözlənilən kredit zərərlərinin hesabat tarixindən sonra 12 ay ərzində mümkün defolt hadisələrindən yaranan hissəsidir.

Bank zərər üzrə ehtiyatı gözlənilən kredit zərərlərinə bərabər məbləğdə tanıyacaq. Aşağıdakı istisna hallarında isə 12-aylıq gözlənilən kredit zərərlərinə bərabər məbləğ tanınır:

- hesabat tarixində aşağı kredit riskinə malik olması müəyyən edilmiş borc investisiya qiymətli kağızları. Borc qiymətli kağızının kredit riski reytinqi dünyada qəbul edilmiş "investisiya keyfiyyəti" tərifinə uyğun gəldikdə, Bank həmin qiymətli kağızın aşağı kredit riskinə malik olduğunu hesab edir; və
- ilkin tanınmadan sonra kredit riski əhəmiyyətli dərəcədə artmamış digər maliyyə alətləri (icarə üzrə debitor borclarından başqa).

İcarə üzrə debitor borcları üçün zərər ehtiyatları hər zaman bütün dövr üçün gözlənilən kredit zərərlərinə bərabər məbləğdə ölçüləcək.

MHBS 9-un dəyərsizləşmə tələbləri mürəkkəbdir və rəhbərliyin xüsusən aşağıdakı sahələrdə mühakimələrini, mülahizələrini və ehtimallarını tələb edir:

- alətin kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artıb-artmamasının qiymətləndirilməsi.
- proqnoz məlumatlarının gözlənilən kredit zərərlərinin ölçülməsində tətbiqi.

**Gözlənilən kredit zərərlərinin ölçülməsi**

Gözlənilən kredit zərərləri kredit zərərlərinin ehtimal əsasında ölçülmüş qiymətləndirilməsidir və aşağıdakı kimi ölçüləcək:

- *hesabat tarixində kredit üzrə dəyərsizləşməmiş* maliyyə aktivləri: bütün gözlənilən əldə edilməmiş pul vəsaitlərinin cari dəyəri, yeni müqavilə əsasında müəssisəyə ödənilməli pul axınları ilə Bankın əldə etməyi gözlədiyi pul axınları arasındakı fərq;

- *hesabat tarixində kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri*: ümumi balans dəyəri ilə hesablanmış gələcək pul axınları arasındakı fərq;

- *istifadə edilməmiş kredit öhdəlikləri*: öhdəlik istifadə edildikdə Banka ödənilməli pul axınları ilə Bankın əldə etməyi gözlədiyi pul axınları arasındakı fərqin cari dəyəri; və

- *maliyyə zəmanəti müqavilələri*: sahibə dəyən zərərin əvəzi kimi gözlənilən ödənişlər, çıxılsın Bankın bərpa etməyi gözlədiyi məbləğin cari dəyəri.

MHBS 9 əsasında kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri MUBS 39 əsasında dəyərsizləşmiş maliyyə aktivlərinə oxşar üsulla müəyyən edilir (bax 3(g) saylı qeyd).

**Defoltun izahı**

MHBS 9-a əsasən, Bank aşağıdakı hallarda maliyyə aktivinin defoltda olmasını hesab edəcək:

- Bankın təminatı (əgər varsa) reallaşdırmaq kimi tədbirlər görmədiyi halda, borcalanın Banka olan kredit öhdəliklərini tam ödəməsi ehtimal edilmir; və ya

- borcalan Banka olan hər hansı əhəmiyyətli kredit öhdəliyini 90 gündən artıq gecikdirir. Müştəri tövsiyə olunan limiti pozduqda və ya ona cari ödənilməmiş məbləğdən daha aşağı limit tövsiyə edildikdə, overdraftlar vaxtı keçmiş hesab edilir.

Borcalanın defoltda olmasının qiymətləndirilməsində Bank aşağıdakı göstəriciləri nəzərə alacaq:

- keyfiyyət: məs., maliyyə göstəricisinə əməl etmək tələbinin pozulması;

- kəmiyyət: məs., gecikmə statusu və eyni emitentin Banka olan digər öhdəliyinin ödənilməməsi; və

- Bankda işlənib hazırlanmış və kənar mənbələrdən əldə edilmiş məlumatlar əsasında.

**3.ƏSAS UÇOT QAYDALARI (davamı)**

Maliyyə alətinin defoltda olub-olmamasının qiymətləndirilməsi üçün ilkin məlumatlar və onların əhəmiyyəti vəziyyətdə baş verən dəyişiklikləri əks etdirmək üçün müəyyən vaxt ərzində dəyişə bilər.

**Kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmadığının müəyyən edilməsi**

MHBS 9-a əsasən, maliyyə aləti üzrə kredit riskinin (yəni defolt riskinin) ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artıb-artmadığını müəyyən edərkən Bank əlavə xərc və ya səy sərf etmədən, müvafiq və mövcud olan əsaslı və sübut edilə bilən məlumatları, o cümlədən kəmiyyət və keyfiyyət məlumatlarını və Bankın tarixi təcrübəsi, kreditin ekspert qiymətləndirməsi və proqnoz məlumatları əsasında aparılmış təhlili nəzərə alacaq.

Bank ilk olaraq aşağıdakıları müqayisə etməklə kredit riskində mühüm artımın baş verib-vermədiyini müəyyən edəcək:

- hesabat tarixində qalan bütün dövr üçün defolt ehtimalı; və

- kredit riskinə məruz qalmanın ilkin tanınması zamanı müəyyən edilmiş və hazırkı vaxt üçün hesablanmış qalan bütün dövr üçün defolt ehtimalı.

Maliyyə alətinin ilkin tanınmasından sonra kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmamasının qiymətləndirilməsi alətin ilkin tanınma tarixinin müəyyən edilməsini tələb edir. Müəyyən bərpa olunan kredit mexanizmləri üçün (məs. kredit kartları və overdraftlar) müqavilənin imzalanma tarixi çox keçmiş ola bilər. Aşağıdakı göstərildiyi kimi, maliyyə alətinin müqavilə şərtlərinin dəyişdirilməsi bu qiymətləndirməyə də təsir edə bilər.

Bank xüsusi maliyyə aləti üzrə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artıb-artmamasını müəyyən etmək üçün kəmiyyət və keyfiyyət məlumatlarını əhatə edən metodologiya hazırlayacaq. Bu metodologiya Bankın daxili kredit risklərinin idarə edilməsi prosesinə uyğunlaşdırılacaq. Kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmamasının müəyyən edilməsi üçün meyarlar portfeldən-portfelə dəyişəcək və gecikmə əsasında "məhdudlaşdırıcı"nı əhatə edəcək.

Müəyyən hallarda Bank kredit barədə öz ekspert mühakiməsindən və mümkün olduqda, müvafiq tarixi təcrübəsindən istifadə etməklə, xüsusi kəmiyyət faktorlarının göstəricilərinə əsaslanmaqla, kredit riskinə məruz qalmada mühüm artımın baş verdiyini müəyyən edə bilər və həmin göstəricilər vaxtlı-vaxtında kəmiyyət təhlili ilə tam nəzərə alınmaya bilər. Məhdudlaşdırıcı qismində və MHBS 9 tələblərinə əsasən, Bank kredit riskində mühüm artımın aktiv üzrə 30 gündən çox gecikmədən gec olmayaraq baş verməsini nəzərə alır. Bank gecikmə günlərini tam ödənişin əldə olunmadığı ilk gündən başlayaraq hesablayacaq.

**Gözlənilən kredit zərərlərinin ölçülməsi zamanı ilkin məlumatlar**

Gözlənilən kredit zərərinin ölçülməsi üzrə əsas ilkin məlumatlar aşağıdakı dəyişənlərin müddət strukturundan ibarətdir:

- defolt ehtimalı;

- defolt zamanı zərər (LGD); və

- defolta məruz qalan məbləğ (EAD).

Bu parametrlər daxildə işlənib hazırlanmış statistik modellərdən və normativ kapitalın hesablanmasında istifadə edilən digər tarixi məlumatlardan əldə olunacaq. Aşağıda göstərildiyi kimi, proqnoz məlumatlarını əks etdirmək üçün bu parametrlərə düzəlişlər ediləcək.

Defolt ehtimalı hesablamaları müəyyən tarixdə statistik reytinq modelləri əsasında hesablanmış və kontragentlərin və risklərin müxtəlif kateqoriyalarına uyğunlaşdırılan reytinq alətləri vasitəsilə qiymətləndirilmiş hesablamalardır. Bu statistik modellər kəmiyyət və keyfiyyət faktorlarından ibarət olan daxildən toplanmış məlumatlara əsaslanacaq. Mümkün olduğu hallarda, böyük korporativ kontragentlər üçün defolt ehtimalını müəyyən etmək məqsədilə bazar məlumatlarından da istifadə edilə bilər. Kontragent və ya risk reytinq sinifləri arasında miqrasiya etdikdə, bu, əlaqəli defolt ehtimalının dəyişməsinə səbəb olacaq. Defolt ehtimalları risklərin müqavilə üzrə ödəniş müddətlərini və vaxtından əvvəl ödəniş dərəcələrini nəzərə almaqla hesablanacaq.

**3.ƏSAS UÇOT QAYDALARI (davamı)**

LGD defolt zamanı ehtimal edilən zərərin miqdarıdır. Bank LGD parametrlərini defoltlu kontragentlərə qarşı iddialar üzrə vəsaitlərin qaytarılma əmsalı tarixçəsi əsasında hesablayacaq. LGD modelləri iddianın strukturu, təminatı, üstünlük səviyyəsini, kontragentin sənaye sahəsini və maliyyə aktivinin tərkib hissəsi olan təminatın bərpa xərclərini nəzərə alacaq. Fiziki şəxslərin əmlakı ilə təmin edilmiş kreditlər üçün kreditin girova nisbəti (LTV) LGD-nin müəyyən edilməsində əsas parametrdir. LGD hesablamaları müxtəlif iqtisadi ssenarilər üçün, eləcə də əmlak qiymətlərindəki mümkün dəyişiklikləri əks etdirmək məqsədilə daşınmaz əmlakla kredit əməliyyatları üçün kalibrasiya ediləcək. Onlar diskontlaşdırma faktoru kimi effektiv faiz dərəcəsindən istifadə edilməklə, diskontlaşdırılmış pul axını əsası ilə hesablanacaq.

EAD defolt zamanı riskli mövqenin gözlənilən məbləğini təqdim edir. Bank EAD-ni cari risk məbləği, müqavilə əsasında ona mümkün dəyişikliklər, o cümlədən amortizasiya və vaxtından əvvəl ödənişlər əsasında hesablayacaq. Maliyyə aktivinin EAD-si defolt zamanı məcmu balans dəyərinə bərabər olacaq. Kredit vermə öhdəlikləri və maliyyə zəmanətləri üçün EAD əldə edilmiş məbləği, eləcə də müqavilə əsasında əldə edilə və ya ödənilə bilən potensial gələcək məbləğləri nəzərə alacaq və bu məbləğlər tarixi müşahidələr və proqnozlar əsasında hesablanacaq. Bəzi maliyyə aktivləri üçün Bank ssenari və statistik üsullardan istifadə etməklə müxtəlif zamanlarda mümkün risk nəticələri diapazonunu modelləşdirməklə EAD-ni müəyyən edəcək.

Yuxarıda qeyd edildiyi kimi və kredit riski əhəmiyyətli dərəcədə artmamış maliyyə aktivləri üçün maksimum 12 aylıq defolt ehtimalından istifadə etməklə, Bank kredit riskinə məruz qaldığı maksimal müqavilə müddəti ərzində (o cümlədən borcalanın müddəti uzatmaqla bağlı variantları) defolt riskini nəzərə almaqla gözlənilən kredit zərərlərini ölçəcək (hətta risklərin idarə edilməsi məqsədləri üçün Bank daha uzun müddəti nəzərdə tutduqda belə). Maksimal müqavilə müddəti Bankın avansın ödənişini tələb etmək və ya kredit öhdəliyinə və ya zəmanətinə xitam vermək hüququnun olduğu tarixədək uzanır.

Fiziki şəxslər üçün overdraftlar və kredit kartları, hüquqi şəxslər üçün isə kredit və öhdəliyin tələb olunmayan komponentini əhatə edən müəyyən bərpa olunan mexanizmlər üçün, Bank gözlənilən kredit zərərlərini maksimal müqavilə müddətindən daha uzun dövr ərzində ölçəcək, o halda ki, Bankın ödənişi tələb etmək və öhdəliyin tələb olunmayan komponentini ləğv etməklə bağlı müqavilədə nəzərdə tutulan qabiliyyəti Bankın kredit zərərlərinə məruz qalmasını müqavilə üzrə bildirişin təqdim olunması müddəti ilə məhdudlaşdırmır. Bu mexanizmlər sabit müddət və ya ödəniş strukturuna malik deyil və kollektiv əsasla idarə edilir. Bank dərhal onları ləğv edə bilər, lakin bu hüquq gündəlik idarəçilikdə deyil, yalnız Bankın mexanizm səviyyəsində kredit riskinə artımdan xəbərdar olduğu halda tətbiq edilir. Bu daha uzun müddət Bankın kredit riskinin idarəedilməsi üzrə görməyi planlaşdırdığı və gözlənilən kredit zərərlərini azaltmağa xidmət edəcək tədbirləri nəzərə almaqla hesablanacaq. Bura limitlərin azaldılması və mexanizmin ləğvi daxildir.

Parametrin modelləşdirilməsi kollektiv əsasla aparıldıqda, maliyyə alətləri aşağıdakılan əhatə edən ümumi risk xüsusiyyətləri əsasında qruplaşdırılacaq:

- alətin növü;

- kredit riski səviyyələri;

- təminatın növü;

- fiziki şəxslərin ipotekaları üzrə LTV əmsalı;

- ilkin tanınma tarixi;

- ödəniş tarixinədək qalan müddət; və

- sənaye.

Xüsusi qrup daxilində riskli mövqelərin eynicinsli qalmasını təmin etmək üçün qruplaşdırmalar müntəzəm olaraq nəzərdən keçiriləcək.

Bankın məhdud tarixi məlumatlara malik olduğu portfellər üçün, daxili mövcud məlumatlara əlavə olaraq kənar müqayisəli məlumatlardan istifadə ediləcək.

## 3.ƏSAS UÇOT QAYDALARI (davamı)

**Proqnoz məlumatı**

MHBS 9-a əsasən, Bank proqnoz məlumatlarını həm ilkin tanınmadan sonra alətin kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmamasının qiymətləndirilməsinə, həm də gözlənilən kredit zərərlərinin ölçülməsinə tətbiq edəcək. Bu qiymətləndirmə həmçinin kənar məlumatlara əsaslanır. Kənar məlumatlar Bankın fəaliyyət göstərdiyi ölkələrin dövlət orqanları və valyuta tənzimləmə orqanları, məsələn Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən dərc edilmiş iqtisadi məlumatları və proqnozları, eləcə də seçilmiş ayrı-ayrı və elmi proqnozları əhatə edə bilər.

Bank, həmçinin, bu reprezentativ ssenarilərin müəyyənləşdirilməsinə öz yanaşmasını yeniləmək məqsədilə müntəzəm olaraq daha kəskin təsirli stress-testinq icra edəcək.

Bank hər maliyyə alətləri portfeli üçün kredit riski və kredit zərərlərinin əsas hərəkətverici amillərini müəyyən etmiş və sənədləşdirmişdir və tarixi məlumatın təhlilindən istifadə edərək makroiqtisadi parametrlə kredit riski və kredit zərərləri arasındakı münasibəti hesablamışdır. Bu hərəkətverici amil ÜDM proqnozlarıdır. Əsas göstərici və müxtəlif maliyyə alətləri portfellərində defolt və zərər dərəcələri arasındakı təxmin edilən münasibət son üç il ərzindəki məlumatın təhlilinə əsasən müəyyən edilmişdir.

**Təsirin qiymətləndirilməsi**

MHBS 9-un tətbiqi nəticəsində Bankın maliyyə hesabatlarına ən mühüm təsirin yeni dəyərsizləşmə tələblərindən irəli gələcəyi gözlənilir. MHBS 9 dəyərsizləşmə modeli çərçivəsində maliyyə alətləri üçün dəyərsizləşmə zərərləri artacaq və daha dəyişkən olacaq.

Bankın hesablamalarına görə, MHBS 9-un 1 yanvar 2018-ci il tarixində qəbul edilməsi nəticəsində zərər üzrə ehtiyat (vergidən əvvəl) təxminən 878 min manat artacaq. Yeni dəyərsizləşmə tələbləri daha çox overdraft və kredit kartları kimi nisbətən uzunmüddətli təminatsız məhsulların zərər üzrə ehtiyata təsir göstərəcək.

*iii.* ***Təsnifat – Maliyyə öhdəlikləri***

MHBS 9 maliyyə öhdəliklərinin təsnifatı üçün MUBS 39-da qeyd edilən tələbləri ümumən saxlayır.

Buna baxmayaraq, MUBS 39-a əsasən mənfəət və ya zərərdə ədalətli dəyərində təyin edilən maliyyə öhdəliklərinin bütün ədalətli dəyər dəyişmələri mənfəət və ya zərərdə tanınır, MHBS 9-a əsasən isə bu dəyişmələr aşağıdakı kimi təqdim olunacaq:

- öhdəliyin kredit riskindəki dəyişikliklərə aid olan ədalətli dəyər dəyişməsinin məbləği sair məcmu gəlirdə təqdim ediləcək; və
- ədalətli dəyərdə qalan dəyişiklik məbləği mənfəət və ya zərərdə təqdim ediləcək.

*iv.* ***Tanınmanın dayandırılması və müqavilədə dəyişikliklər***

MHBS 9 maliyyə aktivləri və öhdəliklərinin tanınmasının dayandırılması ilə bağlı MUBS 39 tələblərini, onlara əhəmiyyətli düzəlişlər etmədən, tətbiq edir.

Bununla belə, mənfəət və ya zərərdə ədalətli dəyərində ölçülməyən maliyyə alətinin dəyişdirilməsi tanınmanın dayandırılması ilə nəticələnmədikdə, bu standart uçotla bağlı xüsusi təlimatı əhatə edir. MUBS 39-a əsasən, Bank müqavilə üzrə dəyişdirilmiş pul axınlarını ilkin effektiv faiz dərəcəsində diskontlaşdırmaqla maliyyə aktivinin məcmu balans dəyərini (və ya maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərini) təkrar hesablayacaq və yaranan hər hansı düzəlişi mənfəət və ya zərərdə dəyişdirmə gəliri və ya zərəri kimi tanıyacaq. MUBS 39-a əsasən, Bank maliyyə öhdəliklərinin və problemsiz maliyyə aktivlərinin tanınmasının dayandırılmasına səbəb olmayan dəyişmələri ilə bağlı olaraq, mənfəət və ya zərərdə hər hansı gəlir və ya zərər tanımır.

Bank bu yeni tələblərin tətbiqinin təsirinin böyük olmayacağını gözləyir.

*v.* ***Açıqlamalar***

MHBS 9 geniş yeni açıqlamalar, xüsusən hedc uçotu, kredit riski və gözlənilən kredit zərəri üzrə açıqlamalar tələb edir.

3. ƏSAS UÇOT QAYDALARI (davamı)

*vi.* ***Kapital planlamasına təsir***

Hazırda Bank MHBS 9-un qəbulunun Bankın normativ kapitalına təsir etməyəcəyini qiymətləndirir (25 saylı qeyd), lakin bu aspektin tənzimlənməsi ilə bağlı yaxın gələcəkdə müəyyən dəyişikliklər baş verə bilər.

*vii.* ***Keçid***

MHBS-nın qəbulu nəticəsində uçot siyasətlərində baş verən dəyişikliklər, aşağıdakılar istisna olmaqla, retrospektiv qaydada tətbiq ediləcək.

- Bank təsnifat və ölçmə (o cümlədən dəyərsizləşmə) dəyişiklikləri ilə bağlı əvvəlki dövrlərin müqayisəli məlumatını təkrar təqdim etməməyə imkan verən icazədən yararlanacaq. MHBS 9-un qəbulu nəticəsində maliyyə aktivləri və öhdəliklərinin balans dəyərlərindəki fərqlər 1 yanvar 2018-ci il tarixinə bölüşdürülməmiş mənfəətdə və ehtiyatlarda tanınacaq.
- İlkin tətbiq tarixində mövcud olan fakt və şəraitlər əsasında aşağıdakı qiymətləndirmələr aparılmalıdır.
  - Maliyyə aktivinin saxlandığı biznes modelinin müəyyən edilməsi.
- Bir yanvar 2018-ci il tarixində borc investisiya qiymətli kağızı aşağı kredit riskinə malik olarsa, Bank həmin aktiv üzrə kredit riskinin ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmadığını müəyyən edəcək.

**(b) MHBS 16 İcarələr**

MHBS 16 icarələrlə bağlı mövcud təlimatı, o cümlədən MUBS 17 *İcarələr*, BMHŞK 4 *Müqaviləyə icarənin daxil olub-olmadığının müəyyən edilməsi*, ŞDK-15 *Əməliyyat icarələri-Stimullar* və ŞDK-27 *İcarənin Hüquqi Forması ilə olan Əməliyyatların Mahiyyətinin Qiymətləndirilməsini* əvəz edir.

Standart 1 yanvar 2019-cu il tarixində və ya həmin tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minəcək. MHBS 16-nın ilkin tətbiqi tarixində və ya həmin tarixdən əvvəl MHBS 15 standartını qəbul etmiş müəssisələrin bu standartı erkən qəbul etmələrinə icazə verilir.

MHBS 16 icarəçilər üçün vahid, balans üzrə icarə uçotu modelini təqdim edir. İcarəçi aktivdən istifadə hüququnu təqdim edən aktivi və icarə ödənişləri etmək öhdəliyini təqdim edən icarə öhdəliyini tanıyır. Qısamüddətli icarələr və aşağı dəyərli maddələrin icarələri üçün əlavə istisnalar mövcuddur. İcarəyəverənin uçotu cari standarta oxşar olaraq qalır, yeni icarəyəverənlər icarələri maliyyə və ya əməliyyat icarələri kimi təsnif etməyə davam edirlər.

İlkin tətbiq dövründə MHBS 16-nın maliyyə hesabatlarına faktiki təsiri gələcək iqtisadi şəraitlərdən, o cümlədən 1 yanvar 2019-cu il tarixinə Bankın kredit faizindən, Bankın icarə şərtlərini yeniləyib-yeniləməyəcəyi barədə son qiymətləndirməsindən və Bankın praktik sadələşmələrdən və tanınmadan azadolmalardan istifadə etməsindən asılı olacaq.

Bununla yanaşı, MHBS 16 düz xətt əsasında tanınan əməliyyat icarəsi xərcini aktivlərdən istifadə hüququ üçün amortizasiya haqqı və icarə öhdəlikləri üzrə faiz xərci ilə əvəz etdiyi üçün, həmin icarələrlə bağlı xərclərin xarakteri dəyişəcək.

*i.* ***Müqaviləyə icarə elementinin daxil olub-olmadığının müəyyən edilməsi***

MHBS 16-ya keçid zamanı Bank aşağıdakıları seçə bilər:

- icarənin MHBS 16 əsasında müəyyən edilmiş izahını bütün müqavilələrə tətbiq etmək; və ya
- praktiki sadələşmə tətbiq etmək və müqavilənin icarə olduğunu və ya icarədən ibarət olub-olmadığını qiymətləndirməmək.

### 3. ƏSAS UÇOT QAYDALARI (davamı)

Bank praktik sadələşməni tətbiq etməyi planlaşdırır. Bu o deməkdir ki, Bank MHBS 16 standartını 1 yanvar 2019-cu il tarixindən əvvəl imzalanmış və MUBS 17 və BMHŞK 4 əsasında icarələr kimi müəyyən edilmiş bütün müqavilələrə tətbiq edəcək.

*ii.* **Keçid**

Bank icarəçi kimi aşağıdakı yanaşmalardan istifadə etməklə standartı tətbiq edə bilər:

- retrospektiv yanaşma; və ya
- optimal praktik metodlarla düzəliş edilmiş retrospektiv yanaşma.

İcarəçi bütün icarələrinə seçimi ardıcıl qaydada tətbiq edir.

Bank MHBS 16 standartını ilk olaraq 1 yanvar 2019-cu il tarixində retrospektiv yanaşma vasitəsilə tətbiq etməyi planlaşdırır. Bu səbəbdən, MHBS 16 standartının qəbulunun məcmu təsiri 1 yanvar 2019-cu il tarixində bölüşdürülməmiş mənfəətin açılış balansına düzəliş kimi tanınacaq və müqayisəli məlumatlar təkrar təqdim edilməyəcək.

Əvvəllər MUBS 17 əsasında əməliyyat icarələri kimi təsnif edilmiş icarələrə dəyişdirilmiş retrospektiv yanaşmanın tətbiqi zamanı, icarəçi hər bir icarə üçün keçid üzrə praktik sadələşməni tətbiq edib-etməməyi seçə bilər. Bank bu praktik sadələşmələrin mümkün təsirini qiymətləndirir.

Yeni standartın mənfəəti azaldacağı ehtimal edilir, lakin təsirin miqdarı hələ müəyyən edilməmişdir.

**(c) MHBS 15 Müştərilərlə müqavilələr üzrə gəlirlər**

MHBS 15 *Müştərilərlə müqavilələr üzrə gəlirlər* gəlirlərin tanınıb tanınmaması, nə qədər və nə vaxt tanınmasının müəyyənləşdirilməsi üçün kompleks əsası təqdim edir. Bu standart gəlirlərin tanınması üzrə mövcud təlimatı, o cümlədən MUBS 18 *Gəlirlər*, MUBS 11 *Tikinti müqavilələri* və BMHŞK 13 *Müştərinin loyallığı proqramlarını* əvəz edir. Yeni standartın əsas prinsipi ondan ibarətdir ki, hüquqi şəxs vəd edilmiş malların və ya xidmətlərin müştərilərə çatdırılmasının əks etdirmək üçün gəlirləri o məbləğdə tanıyır ki, hüquqi şəxs sözügedən malların və ya xidmətlərin əvəzində həmin məbləği əldə edəcəyini gözləyir. Yeni standart gəlirlərlə bağlı genişləndirilmiş açıqlamalarla nəticələnir, əvvəllər hərtərəfli şəkildə nəzərdən keçirilməyən əməliyyatlar üzrə təlimat təqdim edir və çoxelementli razılaşmalar üçün təlimatı təkmilləşdirir. MHBS 15 1 yanvar 2018-ci il tarixində və ya həmin tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minəcək və standartın erkən qəbuluna icazə verilir.

## 5. KREDİT DƏYƏRSİZLƏŞMƏSİ ZƏRƏRLƏRİ ÜZRƏ EHTİYAT

Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyata hərəkətlər aşağıdakı şəkildə olmuşdur:

| | Müştərilərə verilmiş kreditlər | Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitləri | Dəyərsizləşmə zərərləri üzrə cəmi ehtiyat |
|---|---|---|---|
| **31 dekabr 2015-ci il** | **145,435** | **689** | **146,124** |
| Tanınmış əlavə ehtiyatlar | 73,093 | (699) | 72,394 |
| Silinmiş aktivlər | (75,344) | - | (75,344) |
| Silinmiş aktivlərin qaytarılması | 5,415 | 10 | 5,425 |
| **31 dekabr 2016-cı il** | **148,599** | - | **148,599** |
| Tanınmış əlavə aktivlər/aktivlərin (bərpası) | (11,739) | - | (11,739) |
| Silinmiş aktivlər | (1,919) | - | (1,919) |
| Silinmiş aktivlərin qaytarılması | 7,410 | - | 7,410 |
| **31 dekabr 2017-ci il** | **142,351** | - | **142,351** |

## 6. HAQQ VƏ KOMİSSİYA GƏLİRLƏRİ

Haqq və komissiya gəlirləri ibarətdir:

| | 31 dekabr 2017-ci ildə tamamlanan il | 31 dekabr 2016-cı ildə tamamlanan il |
|---|---|---|
| **Haqq və komissiya gəlirləri:** | | |
| Plastik kart əməliyyatları | 2,055 | 1,761 |
| Nağd pul əməliyyatları | 1,132 | 731 |
| Hesablaşmalar | 761 | 470 |
| Zəmanət məktubları | 232 | 121 |
| Valyuta mübadiləsi əməliyyatları | 144 | 214 |
| Sair əməliyyatlar | 302 | 139 |
| **Cəmi haqq və komissiya gəlirləri** | **4,626** | **3,436** |

## 7. HAQQ VƏ KOMISSIYA XƏRCLƏRİ

Haqq və komissiya gəlirləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017-ci ildə tamamlanan il | 31 dekabr 2016-cı ildə tamamlanan il |
|---|---|---|
| **Haqq və komissiya xərcləri:** | | |
| Plastik kart əməliyyatları | (2,491) | (2,031) |
| Hesablaşmalar | (882) | (1,061) |
| Akkreditivlər | (138) | (224) |
| Nağd pul əməliyyatları | (82) | (255) |
| **Cəmi haqq və komissiya xərcləri** | **(3,593)** | **(3,571)** |

## 8. ƏMƏLİYYAT XƏRCLƏRİ

Əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017-ci ildə tamamlanan il | 31 dekabr 2016-cı ildə tamamlanan il |
|---|---|---|
| Əmək haqları və bonuslar | 12,410 | 15,727 |
| Sosial müdafiə xərcləri | 1,737 | 2,093 |
| Sair işçi xərcləri | 263 | 15 |
| **İşçi heyəti xərcləri** | **14,410** | **17,835** |
| Maddi aktivlərin amortizasiyası | 2,888 | 3,393 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 202 | 201 |
| **Amortizasiya xərcləri** | **3,090** | **3,594** |
| Hüquq və məsləhətləşmə | 2,717 | 1,493 |
| İcarə | 2,002 | 2,362 |
| Marketinq və reklam | 1,015 | 959 |
| Əmanətləri sığortalama haqqı | 931 | 945 |
| Mənfəət vergisindən başqa vergi | 440 | 559 |
| Mühafizə | 390 | 393 |
| Rabitə | 322 | 327 |
| Kommunal xidmətlər | 263 | 202 |
| Əmlak və avadanlığın təmiri və texniki xidmət | 246 | 227 |
| Ofis ləvazimatları | 188 | 206 |
| Sığorta | 78 | 84 |
| İşgüzar səfər və aidiyyəti xərclər | 66 | 101 |
| Çap | 36 | 57 |
| Nəqliyyat vasitələrinin istismar xərcləri | 33 | 44 |
| Üzvlük haqları | 19 | 21 |
| Sair xərclər | 521 | 413 |
| **Sair əməliyyat xərcləri** | **9,267** | **8,393** |

## 9. MƏNFƏƏT VERGİSİ

Bank ödəniləcək cari mənfəət vergisi, eləcə də aktiv və öhdəliklər üzrə vergi bazalarını özünün və törəmə müəssisəsinin fəaliyyət göstərdiyi Azərbaycan Respblikasının vergi qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki, bu da MHBS-dan fərqli ola bilər.

Bank bəzi xərcləri vergiyə cəlbə olunmadığından və bəzi gəlirləri vergidən azad olduğundan daimi vergi fərqləri ilə üzləşir.

Təxirə salınmış vergilər maliyyə hesabatları məqsədləri üçün uçota alınan aktiv və öhdəliklərin balans dəyəri ilə verginin hesablanması məqsədilə istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqlər üzrə xalis vergi təsirini əks etdirir. 31 dekabr 2017 və 2016-cı il tarixlərinə olan müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınması üzrə müxtəlif metodlar/müddətlər, eləcə də müəyyən aktivlər üzrə vergi-uçot əsaslı fərqlərdən yaranan müvəqqəti fərqlər ilə əlaqəlidir.

Aşağıdakı məbləğlərin üzləşdirilməsində tətbiq edilən vergi dərəcəsi Azərbaycan Respublikasında vergi qanunvericiliyinə əsasən (müəyyən edildiyi kimi) hüquqi şəxslər tərəfindən vergiyə cəlb olunan mənfəət üzrə ödəniləcək 20%-lik (2016: 20%) mənfəət vergisi dərəcəsidir.

## 9. MƏNFƏƏT VERGİSİ (davamı)

31 dekabr 2017 və 2016-cı il tarixlərinə müvəqqəti fərqlər:

**Mənfəət vergisi xərci (gəliri)**

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Cari il üzrə vergi xərci | - | - |
| Müvəqqəti fərqlərin yaranması və əvəzləşdirilməsi | - | - |
| **Cəmi mənfəət vergisi xərci (gəliri)** | - | - |

2017-ci ildə cari və təxirə salınmış vergi dərəcəsi 20%-dir (2016: 20%).

**31 dekabrda tamamalanan il üzrə qüvvədə olan vergi dərəcəsinin üzləşdirilməsi:**

| | 2017 AZN'000 | % | 2016 AZN'000 | % |
|---|---|---|---|---|
| Vergidən əvvəl (mənfəət)/zərər | 6,702 | | (52,134) | |
| Tətbiq olunan vergi dərəcəsində mənfəət vergisi | 1,340 | 20.00 | (10,427) | 20.00 |
| Mənfəətdən çıxılmayan xərclər (vergi qoyulmayan gəlir) | 181 | 2.70 | 6,108 | (11.72) |
| Tanınmamış təxirə salınmış vergi aktivlərində dəyişiklik | (1,521) | (22.69) | 4,319 | (8.28) |
| | - | - | - | - |

### a) Təxirə salınmış vergi aktivləri və öhdəlikləri

31 dekabr 2017 və 2016-cı il tarixlərində tamamlanan illər ərzində müvəqqəti fərqlərdə hərəkət aşağıda təqdim olunub.

| 2017<br>AZN'000 | 1 yanvar 2017-ci il tarixinə qalıq | Mənfəət və ya zərərdə tanınan | 31 dekabr 2017-ci il tarixinə qalıq |
|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 4,926 | (7,215) | (2,289) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | (2,060) | 416 | (1,644) |
| Satılabilən investisiya qiymətli kağızları | (92) | (64) | (156) |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | (146) | 89 | (57) |
| Sair öhdəliklər | 58 | 22 | 80 |
| Sair aktivlər | 532 | (21) | 511 |
| Növbəti dövrə keçirilmiş vergi zərəri | 7,557 | 5,252 | 12,809 |
| Hesablanmış təxirə salınmış vergi aktivi | 10,775 | (1,521) | 9,254 |
| Tanınmamış təxirə salınmış vergi aktivi | (10,775) | 1,521 | (9,254) |
| | - | - | - |

## 9. MƏNFƏƏT VERGİSİ (davamı)

| 2016<br>AZN'000 | 1 yanvar 2016-cı il tarixinə qalıq | Mənfəət və ya zərərdə tanınan | 31 dekabr 2016-cı il tarixinə qalıq |
|---|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 4,954 | (28) | 4,926 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | (2,544) | 484 | (2,060) |
| Satılabilən investisiya qiymətli kağızları | - | (92) | (92) |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | - | (146) | (146) |
| Sair öhdəliklər | (296) | 354 | 58 |
| Sair aktivlər | - | 532 | 532 |
| Növbəti dövrə keçirilmiş vergi zərəri | 4,342 | 3,215 | 7,557 |
| Hesablanmış təxirə salınmış vergi aktivi | 6,456 | 4,319 | 10,775 |
| Tanınmamış təxirə salınmış vergi aktivi | (6,456) | (4,319) | (10,775) |
| | - | - | - |

Cari vergi qanunvericiliyinə görə mənfəətdən tutula bilən müvəqqəti fərqlərinin vaxtı keçmir. 2015-ci il üçün vergi zərərlərindən 4,342 min manat məbləğində, 2016-cı il üçün vergi zərərlərindən 3,215 min manat məbləğində və 2017-ci il üçün vergi zərərlərindən 5,252 min manat məbləğində növbəti dövrə keçirilmiş vergi zərərlərinin vaxtı müvafiq olaraq 2020, 2021 və 2022-ci illərdə bitir.

## 10. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Pul vəsaitləri və onların ekvivalentləri ibarətdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| ARMB vəsaitləri | 17,010 | - |
| Kassadakı nağd vəsaitlər | 13,968 | 17,944 |
| ARMB-də olan cari hesablar | 6,066 | 16,071 |
| Sair kredit təşkilatlarında olan cari hesablar | 9,450 | 40,642 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **46,494** | **74,657** |

31 dekabr 2017-ci il tarixinə digər kredit təşkilatlarındakı cari hesablara bir İƏİT bankında yerləşdirilmiş 9,244 min manat (2016: 39,435 min manat) daxildir.

## 11. BANKLARDAN VƏ SAİR KREDİT TƏŞKİLATLARINDAN ALINACAQ VƏSAİTLƏR

Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| ARMB-dəki məcburi ehtiyat | 2,069 | 2,474 |
| Kredit təşkilatlarına verilmiş kreditlər | 11,238 | 25,037 |
| Bloklaşdırılmış hesablar | 54,753 | 112,688 |
| **Cəmi banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitləri** | **68,060** | **140,199** |

Azərbaycandakı kredit təşkilatlarından ARMB-də faiz hesablanmayan pul depoziti saxlanılması (məcburi ehtiyat) tələb olunur ki, bunun da məbləği kredit təşkilatı tərəfindən cəlb edilən maliyyə vəsaitinin səviyyəsindən asılıdır. Bankın belə depoziti geri götürmək imkanı müəyyən edilmiş qanunvericiliklə ciddi şəkildə məhdudlaşdırılır.

## 11. BANKLARDAN VƏ SAİR KREDİT TƏŞKİLATLARINDAN ALINACAQ VƏSAİTLƏR (davamı)

Kredit təşkilatlarına verilmiş kreditlər reytinqsiz bir yerli banka və bir yerli bank olmayan kredit təşkilatına verilmiş kreditlərdən ibarətdir.

Bloklaşdırılmış məbləğlərə Bankın müvafiq tərəflərdən aldığı kreditlər müqabilində bloklaşdırılmış Azərbaycan Respublikasının Mərkəzi Bankındakı 23,898 min manat (2016: 81,912 min manat), digər yerli bankdakı 2.5% dərəcəli 24,954 min manat (2016: 30,002 min manat) və digər banklarda həmin banklar tərəfindən Banka təqdim olunmuş zəmanət müqabilində girov kimi bloklaşdırılmış 5,902 min manat manat (2016: 774 min manat) məbləğində cari hesablar daxildir (bax: 17-ci qeyd).

## 12. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

Müştərilərə verilmiş kreditlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Müştərilərə verilmiş kreditlər | 362,154 | 387,752 |
| Çıxılsın: dəyərsizləşmə zərərləri üzrə ehtiyat | (142,351) | (148,599) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **219,803** | **239,153** |

31 dekabr 2017 və 2016-cı il tarixlərində tamamlanan illər üzrə dəyərsizləşmə zərərləri üzrə ehtiyatda hərəkətlər 5-ci qeyddə açıqlanmışdır.

Kreditlər aşağıdakı müştərilərə verilmişdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Fiziki şəxslər | 292,075 | 346,528 |
| Özəl şirkətlər | 70,079 | 41,224 |
| **Ümumi müştərilərə verilmiş kreditlər** | **362,154** | **387,752** |

Aşağıdakı cədvəldə sənaye sektoru üzrə təhlil edilən müştərilərə verilmiş kreditlərin balans dəyəri göstərilmişdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| **Sektor üzrə təhlil:** | | |
| Fiziki şəxslər | 292,075 | 346,528 |
| Ticarət və xidmətlər | 58,041 | 18,785 |
| Kənd təsərrüfatı və qida emalı | 11,510 | 20,799 |
| İstehsalat | 528 | 1,640 |
| | 362,154 | 387,752 |
| Çıxılsın: dəyərsizləşmə zərərləri üzrə ehtiyat | (142,351) | (148,599) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **219,803** | **239,153** |

## 12. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (davamı)

Müştərilərə verilmiş kreditlər aşağıdakı məhsullardan ibarətdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| İstehlak kreditləri | 157,660 | 209,399 |
| Biznes kreditləri | 90,608 | 51,677 |
| Mikrokreditlər | 58,298 | 53,721 |
| Kredit kartları | 46,614 | 55,378 |
| Avtomobil kreditləri | 8,974 | 17,577 |
| | 362,154 | 387,752 |
| Çıxılsın: dəyərsizləşmə zərərləri üzrə ehtiyat | (142,351) | (148,599) |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **219,803** | **239,153** |

31 dekabr 2017 və 2016-cı il tarixlərinə müştərilərə verilmiş şərtləri yenidən razılaşdırılmış kreditlərin ümumi məbləği müvafiq olaraq 43,437min manat və 53,787 min manat manat olmuşdur. Əks təqdirdə, bu kreditlər vaxtı keçmiş və ya dəyərsizləşmiş hesab olunardı.

31 dekabr 2017 və 2016-cı il tarixlərində tamamlanan illər üzrə müştərilərə verilmiş dəyərsizləşmiş kreditlər üzrə faiz gəliri müvafiq olaraq 13,111 min manat və 38,128 min manat təşkil etmişdir. 31 dekabr 2017 və 2016-cı il tarixlərinə bitən illər üzrə müştərilərə verilmiş dəyərsizləşməmiş kreditlər üzrə faiz gəliri müvafiq olaraq 32,453 min manat və 37,159 min manat təşkil etmişdir.

31 dekabr 2017 və 2016-cı il tarixlərinə 100% həcmində müştərilərə verilmiş kreditlər Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən özəl şirkətlərə verilmişdir.

Bankın fərdi qaydada dəyərsizləşdiyi müəyyən edilmiş kreditlərin müqabilində saxladığı girovun ədalətli dəyəri 31 dekabr 2017 və 2016-cı il tarixlərinə müvafiq olaraq 490 min manat və 5,612 min manat təşkil etmişdir. Qalan qalıq hər iki il üçün tam dəyərsizləşmişdir.

## 12. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2017-ci il tarixinə müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti haqqında məlumat təqdim olunmuşdur:

| | Ümumi kreditlər | Dəyərsizləşmə ehtiyatı | Xalis kreditlər | Ümumi kreditlər üçün dəyərsizləşmə ehtiyatı, % |
|---|---|---|---|---|
| **Biznes kreditləri** | | | | |
| Fərdi qaydada dəyərsizləşmə əlaməti olmayan kreditlər | 78,200 | 63 | 78,137 | 0.08% |
| Vaxtı keçmiş və ya dəyərsizləşmiş kreditlər: | | | | |
| - vaxtı 90 gündən az keçmiş | 1,114 | 89 | 1,025 | 8% |
| - vaxtı 90 gündən çox və 1 ildən az keçmiş | 3,065 | 1,858 | 1,207 | 61% |
| - vaxtı 1 ildən çox keçmiş | 8,229 | 7,540 | 689 | 92% |
| Cəmi vaxtı keçmiş və ya dəyərsizləşmiş kreditlər | 12,408 | 9,487 | 2,921 | 76% |
| **Cəmi biznes kreditləri** | **90,608** | **9,550** | **81,058** | **11%** |
| **Cəmi korporativ müştərilərə verilmiş kreditlər** | **90,608** | **9,550** | **81,058** | **11%** |
| **Pərakəndə müştərilərə verilmiş kreditlər** | | | | |
| **İstehlak kreditləri** | | | | |
| - vaxtı keçməmiş | 73,197 | 1,707 | 71,490 | 2% |
| - vaxtı 30 gündən az keçmiş | 3,076 | 625 | 2,451 | 20% |
| - vaxtı 30-89 gün keçmiş | 2,159 | 912 | 1,247 | 42% |
| - vaxtı 90-179 gün keçmiş | 3,409 | 1,854 | 1,555 | 54% |
| - vaxtı 180-360 gün keçmiş | 11,661 | 7,141 | 4,520 | 61% |
| - vaxtı 360 gündən çox keçmiş | 64,158 | 54,877 | 9,281 | 86% |
| **Cəmi istehlak kreditləri** | **157,660** | **67,116** | **90,544** | **43%** |
| **Avtomobil kreditləri** | | | | |
| - vaxtı keçməmiş | 2,041 | 231 | 1,810 | 11% |
| - vaxtı 30 gündən az keçmiş | 219 | 63 | 156 | 29% |
| - vaxtı 30-89 gün keçmiş | 197 | 111 | 86 | 56% |
| - vaxtı 90-179 gün keçmiş | 194 | 121 | 73 | 62% |
| - vaxtı 180-360 gün keçmiş | 419 | 322 | 97 | 77% |
| - vaxtı 360 gündən çox keçmiş | 5,904 | 5,858 | 46 | 99% |
| **Cəmi avtomobil kreditləri** | **8,974** | **6,706** | **2,268** | **75%** |
| **Kredit kartları** | | | | |
| - vaxtı keçməmiş | 22,863 | 8 | 22,855 | 0.04% |
| - vaxtı 30 gündən az keçmiş | 180 | 14 | 166 | 8% |
| - vaxtı 30-89 gün keçmiş | 143 | 39 | 104 | 27% |
| - vaxtı 90-179 gün keçmiş | 256 | 100 | 156 | 39% |
| - vaxtı 180-360 gün keçmiş | 1,427 | 677 | 750 | 47% |
| - vaxtı 360 gündən çox keçmiş | 21,745 | 20,010 | 1,735 | 92% |
| **Cəmi kredit kartları** | **46,614** | **20,848** | **25,766** | **45%** |
| **Mikrokreditlər** | | | | |
| - vaxtı keçməmiş | 12,390 | 372 | 12,018 | 3% |
| - vaxtı 30 gündən az keçmiş | 551 | 137 | 414 | 25% |
| - vaxtı 30-89 gün keçmiş | 754 | 284 | 470 | 38% |
| - vaxtı 90-179 gün keçmiş | 1,546 | 672 | 874 | 43% |
| - vaxtı 180-360 gün keçmiş | 4,599 | 2,394 | 2,205 | 52% |
| - vaxtı 360 gündən çox keçmiş | 38,458 | 34,272 | 4,186 | 89% |
| **Cəmi mikrokreditlər** | **58,298** | **38,131** | **20,167** | **65%** |

| | | | | |
|---|---|---|---|---|
| **Cəmi pərakəndə müştərilərə verilmiş kreditlər** | **271,546** | **132,801** | **138,745** | **49%** |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **362,154** | **142,351** | **219,803** | **39%** |

Aşağıdakı cədvəldə 31 dekabr 2016-cı il tarixinə müştərilərə verilmiş kreditlərin kredit keyfiyyəti haqqında məlumat təqdim olunmuşdur:

| | Ümumi kreditlər | Dəyərsizləşmə ehtiyatı | Xalis kreditlər | Ümumi kreditlər üçün dəyərsizləşmə ehtiyatı, % |
|---|---|---|---|---|
| **Biznes kreditləri** | | | | |
| Fərdi qaydada dəyərsizləşmə əlaməti olmayan kreditlər | 38,453 | 628 | 37,825 | 2% |
| Vaxtı keçmiş və ya dəyərsizləşmiş kreditlər: | | | | |
| - vaxtı 90 gündən az keçmiş | 5,450 | 1,854 | 3,596 | 34% |
| - vaxtı 90 gündən çox və 1 ildən az keçmiş | 1,765 | 1,064 | 701 | 60% |
| - vaxtı 1 ildən çox keçmiş | 6,009 | 3,636 | 2,373 | 61% |
| Total Vaxtı keçmiş və ya dəyərsizləşmiş kreditlər | 13,224 | 6,554 | 6,670 | 50% |
| **Cəmi biznes kreditləri** | **51,677** | **7,182** | **44,495** | **14%** |
| **Cəmi korporativ müştərilərə verilmiş kreditlər** | **51,677** | **7,182** | **44,495** | **14%** |
| **Pərakəndə müştərilərə verilmiş kreditlər** | | | | |
| **İstehlak kreditləri** | | | | |
| - vaxtı keçməmiş | 95,360 | 2,816 | 92,544 | 3% |
| - vaxtı 30 gündən az keçmiş | 6,668 | 2,135 | 4,533 | 32% |
| - vaxtı 30-89 gün keçmiş | 6,442 | 4,167 | 2,275 | 65% |
| - vaxtı 90-179 gün keçmiş | 9,865 | 7,481 | 2,384 | 76% |
| - vaxtı 180-360 gün keçmiş | 19,505 | 15,116 | 4,389 | 77% |
| - vaxtı 360 gündən çox keçmiş | 71,559 | 55,241 | 16,318 | 77% |
| **Cəmi istehlak kreditləri** | **209,399** | **86,956** | **122,443** | **42%** |
| **Avtomobil kreditləri** | | | | |
| - vaxtı keçməmiş | 7,647 | 391 | 7,256 | 5% |
| - vaxtı 30 gündən az keçmiş | 1,129 | 274 | 855 | 24% |
| - vaxtı 30-89 gün keçmiş | 850 | 370 | 480 | 44% |
| - vaxtı 90-179 gün keçmiş | 512 | 320 | 192 | 63% |
| - vaxtı 180-360 gün keçmiş | 1,996 | 1,508 | 488 | 76% |
| - vaxtı 360 gündən çox keçmiş | 5,443 | 3,566 | 1,877 | 66% |
| **Cəmi avtomobil kreditləri** | **17,577** | **6,429** | **11,148** | **37%** |
| **Kredit kartları** | | | | |
| - vaxtı keçməmiş | 32,237 | 425 | 31,812 | 1% |
| - vaxtı 30 gündən az keçmiş | 1,574 | 276 | 1,298 | 18% |
| - vaxtı 30-89 gün keçmiş | 1,287 | 653 | 634 | 51% |
| - vaxtı 90-179 gün keçmiş | 1,817 | 1,301 | 516 | 72% |
| - vaxtı 180-360 gün keçmiş | 4,106 | 3,058 | 1,048 | 74% |
| - vaxtı 360 gündən çox keçmiş | 14,357 | 10,598 | 3,759 | 74% |
| **Cəmi kredit kartları** | **55,378** | **16,311** | **39,067** | **29%** |
| **Mikrokreditlər** | | | | |
| - vaxtı keçməmiş | 13,283 | 634 | 12,649 | 5% |
| - vaxtı 30 gündən az keçmiş | 1,109 | 384 | 725 | 35% |
| - vaxtı 30-89 gün keçmiş | 1,986 | 1,357 | 629 | 68% |
| - vaxtı 90-179 gün keçmiş | 2,149 | 1,649 | 500 | 77% |
| - vaxtı 180-360 gün keçmiş | 5,749 | 4,545 | 1,204 | 79% |

| | | | | |
|---|---|---|---|---|
| - vaxtı 360 gündən çox keçmiş | 29,445 | 23,152 | 6,293 | 79% |
| **Cəmi mikrokreditlər** | **53,721** | **31,721** | **22,000** | **59%** |
| **Cəmi pərakəndə müştərilərə verilmiş kreditlər** | **336,075** | **141,417** | **194,658** | **42%** |
| **Cəmi müştərilərə verilmiş kreditlər** | **387,752** | **148,599** | **239,153** | **38%** |

### Girov və digər kredit təminatlarının təhlili

***(i) Korporativ müştərilərə verilmiş kreditlər***

Adətən korporativ müştərinin ümumi ödəmə qabiliyyəti ona verilmiş kredit keyfiyyətinin ən düzgün göstəricisidir. Buna baxmayaraq, girov əlavə təminatdır və Bank adətən korporativ müştərilərdən girov tələb edir.

Biznes kreditlər əməliyyat növündən asılı olaraq aşağıdakı növ girovlarla təmin edilir: daşınmaz əmlak, nağd vəsait və əmanət, avadanlıq, zəmanətlər və zaminlik.

Aşağıdakı cədvəldə 31 dekabr 2017 və 2016-cı il tarixlərinə, dəyərsizləşmə çıxılmaqla, korporativ müştərilərə verilmiş kreditlər üzrə növlərinə görə ayrılmış girovlar haqqında məlumat təqdim olunmuşdur:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Nağd vəsait və depozitlər | 39,528 | 4,823 |
| Daşınmaz əmlak | 29,120 | 26,341 |
| Avadanlıq | 14 | 173 |
| Zəmanətlər | 7,081 | 576 |
| Girovsuz və ya digər kredit təminatı | 5,315 | 12,582 |
| **Cəmi biznes kreditləri** | **81,058** | **44,495** |

Yuxarıdakı cədvəldə göstərilən məbləğ biznes kreditlərinin balans dəyərini əks etdirir və mütləq girovun ədalətli dəyərini göstərmir.

Vaxtı keçməmiş və dəyərsizləşməmiş kreditlərin geri ödənilməsi ehtimalı girovun dəyərindən çox borcalanın ödəmə qabiliyyətindən asılıdır və Bank mütləq hər hesabat tarixinə girovun dəyərini yeniləmir.

Müxtəlif növ girovla təmin edilmiş kreditlərin dəyərsizləşməsinin qiymətləndirilməsi üçün ən uyğun girov açıqlanır. Kiçik və orta sahibkarlıq səhmdarları kimi fiziki şəxslərdən alınmış avadanlıq, təminat və zaminlik qarantiyası dəyərsizləşmənin qiymətləndirilməsi zamanı nəzərə alınmır. Müvafiq olaraq, belə kreditlər və qismən təmin edilmiş məbləğlər girovsuz və ya digər kredit təminatlı kreditlər kimi təqdim edilir.

Rəhbərliyin hesablamalarına görə, 31 dekabr 2017-ci il tarixinə biznes kreditləri üçün girov olmasaydı, dəyərsizləşmə zərəri təxminən 912 min manat çox ola olardı (31 dekabr 2016: 4,131 min manat).

***(ii) Fiziki şəxslərə verilmiş kreditlər***

İstehlak kreditləri əməliyyat növündən asılı olaraq aşağıdakı növ girovlarla təmin edilir: daşınmaz əmlak, əmanət, avadanlıq, zəmanətlər və zaminlik.

## 12. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2017 və 2016-cı il tarixlərinə, dəyərsizləşmə çıxılmaqla, istehlak kreditləri üzrə növlərinə görə ayrılmış girovlar haqqında məlumat təqdim olunmuşdur:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Nağd pul və depozitlər | 3,239 | 3,433 |
| Daşınmaz əmlak | 9,609 | 8,652 |
| Avadanlıq | 90 | 122 |
| Zəmanətlər | 8,854 | 4,080 |
| Girovsuz və ya digər kredit təminatı | 68,752 | 106,156 |
| **Cəmi istehlak kreditləri** | **90,544** | **122,443** |

Yuxarıdakı cədvəldə göstərilən məbləğ istehlak kreditlərinin balans dəyərini əks etdirir və mütləq girovun ədalətli dəyərini göstərmir. Cədvəldə izafi girov təminatı göstərilmir.

Rəhbərliyin hesablamalarına görə, 31 dekabr 2017-ci il tarixinə istehlak kreditləri üçün girov olmasaydı, dəyərsizləşmə zərəri təxminən 101 min manat çox ola olardı (31 dekabr 2016: sıfır).

Avtomobil kreditləri əməliyyat növündən asılı olaraq aşağıdakı növ girovlarla təmin edilir: avadanlıq, zəmanətlər və zaminlik.

Aşağıdakı cədvəldə 31 dekabr 2017 və 2016-cı il tarixlərinə, dəyərsizləşmə çıxılmaqla, avtomobil kreditləri üzrə növlərinə görə ayrılmış girovlar haqqında məlumat təqdim olunmuşdur:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Avtomobil və avadanlıq | 1,968 | 10,774 |
| Zəmanətlər | 296 | 350 |
| Girovsuz və ya digər kredit təminatı | 4 | 24 |
| **Cəmi avtomobil kreditləri** | **2,268** | **11,148** |

Yuxarıdakı cədvəldə göstərilən məbləğ avtomobil kreditlərinin balans dəyərini əks etdirir və mütləq girovun ədalətli dəyərini göstərmir. Cədvəldə izafi girov təminatı göstərilmir.

Rəhbərliyin hesablamalarına görə, 31 dekabr 2017-ci il tarixinə avtomobil kreditləri üçün girov olmasaydı, dəyərsizləşmə zərəri təxminən 4 min manat çox olardı (31 dekabr 2016: 1,189 min manat).

Kredit kartları əməliyyat növündən asılı olaraq aşağıdakı növ girovlarla təmin edilir: daşınmaz əmlak, nağd pul və əmanətlər, zəmanətlər.

Aşağıdakı cədvəldə 31 dekabr 2017 və 2016-cı il tarixlərinə, dəyərsizləşmə çıxılmaqla, kredit kartları üzrə növlərinə görə ayrılmış girovlar haqqında məlumat təqdim olunmuşdur:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Nağd pul və depozitlər | 23,144 | 12,455 |
| Daşınmaz əmlak | - | 3 |
| Zəmanətlər | 239 | 141 |
| Girovsuz və ya digər kredit təminatı | 2,383 | 26,468 |
| **Cəmi kredit kartı kreditləri** | **25,766** | **39,067** |

Rəhbərliyin hesablamalarına görə, 31 dekabr 2017-ci il tarixinə kredit kartları üçün girov olmasaydı, dəyərsizləşmə zərəri təxminən 116 min manat çox olardı (31 dekabr 2016: sıfır).

Mikrokreditlər əməliyyat növündən asılı olaraq aşağıdakı növ girovlarla təmin edilir: daşınmaz əmlak, nağd pul və əmanət, avadanlıq, zəmanətlər.

## 12. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (davamı)

Aşağıdakı cədvəldə 31 dekabr 2017 və 2016-cı il tarixlərinə, dəyərsizləşmə çıxılmaqla, mikrokreditlər üzrə növlərinə görə ayrılmış girovlar haqqında məlumat təqdim olunmuşdur:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Nağd pul və depozitlər | 249 | 326 |
| Daşınmaz əmlak | 4,904 | 3,400 |
| Avadanlıq | 443 | 541 |
| Zəmanətlər | 13,799 | 1,252 |
| Girovsuz və ya digər kredit təminatı | 772 | 16,481 |
| **Cəmi mikrokreditlər** | **20,167** | **22,000** |

Rəhbərliyin hesablamalarına görə, 31 dekabr 2017-ci il tarixinə mikrokreditlər üçün girov olmasaydı, dəyərsizləşmə zərəri təxminən 86 min manat çox olardı (31 dekabr 2016: sıfır).

Aşağıdakı cədvəldə 31 dekabr 2017 və 31 dekabr 2016-cı il tarixlərinə müştərilərə verilmiş dəyərsizləşmiş kreditlər və mümkün zərərlərin təsirini aradan qaldırmaq üçün saxlanılan aidiyyəti girov haqda məlumat təqdim olunmuşdur:

| **Biznes kreditləri** | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Daşınmaz əmlak | 1,781 | 2,112 |
| Avadanlıq | 11 | 80 |
| Zəmanətlər | 103 | 576 |
| Girovsuz və ya digər kredit təminatı | 1 | 306 |
| **Cəmi dəyərsizləşmiş biznes kreditləri** | **1,896** | **3,074** |

| **İstehlak kreditləri** | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Nağd pul və əmanətlər | 2 | - |
| Daşınmaz əmlak | 4 | 24 |
| Avadanlıq | - | 3 |
| Zəmanətlər | 2,731 | 1,278 |
| Girovsuz və ya digər kredit təminatı | 12,619 | 21,786 |
| **Cəmi dəyərsizləşmiş istehlak kreditləri** | **15,356** | **23,091** |

| **Avtomobil kreditləri** | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Avtomobil və avadanlıq | 180 | 2,439 |
| Zəmanətlər | 28 | 115 |
| Girovsuz və ya digər kredit təminatı | 8 | 3 |
| **Cəmi dəyərsizləşmiş avtomobil kreditləri** | **216** | **2,557** |

| **Kredit kartları** | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Zəmanətlər | 31 | 21 |
| Girovsuz və ya digər kredit təminatı | 2,610 | 5,302 |
| **Cəmi dəyərsizləşmiş kredit kartları** | **2,641** | **5,323** |

## 12. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR (davamı)

| **Mikrokreditlər** | **31 dekabr 2017-ci il** | **31 dekabr 2016-cı il** |
|---|---|---|
| Nəğd pul və əmanətlər | 235 | 215 |
| Daşınmaz əmlak | 17 | 210 |
| Avadanlıq | 9 | 68 |
| Zəmanətlər | 6,927 | 865 |
| Girovsuz və ya digər kredit təminatı | 77 | 6,639 |
| **Cəmi dəyərsizləşmiş mikrokreditlər** | **7,265** | **7,997** |

### *(iii)* Balansa alınmış girov

31 dekabr 2017 və 2016-cı il tarixlərində tamamlanan illərdə Bank təminat üçün saxladığı girovları balansa almaqla qeyri-maliyyə aktivləri əldə etmişdir. 31 dekabr 2017 və 2016-cı il tarixlərinə müvafiq olaraq xalis dəyəri 678 min manat və 727 min manat olan belə aktivlər sair aktivlərə aid edilmişdir. Bankın qaydalarına əsasən, balansa alınmış əmlaklar müəyyən edilmiş qaydada satılmalıdır. Satışdan daxil olan məbləğ qalan kredit qalıqlarını azaltmaq və ya tam bərpa etmək üçün istifadə olunur. Ümumiyyətlə, Bank balansa alınmış əmlaklardan biznes məqsədləri üçün istifadə etmir.

## 13. SATILABİLƏN İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI

Satılabilən investisiya qiymətli kağızları aşağıdakılardan ibarətdir:

| | **31 dekabr 2017-ci il** | **31 dekabr 2016-cı il** |
|---|---|---|
| Borc qiymətli kağızları | 39,774 | 23,375 |
| Kapital investisiyaları | 128 | 224 |
| | **39,902** | **23,599** |
| Çıxılsın: dəyərsizləşmə zərərləri üzrə ehtiyat | (10) | (41) |
| **Cəmi satılabilən investisiya qiymətli kağızları** | **39,892** | **23,558** |

### Ədalətli dəyərini müəyyən etmək mümkün olmayan investisiyalar

Satılabilən investisiyalara qiyməti elan edilməmiş kapital qiymətli kağızları daxildir. Belə investisiyalar üçün bazar yoxdur və onların cari ədalətli dəyərini müəyyən edəcək yeni əməliyyatlar aparılmır. Əlavə olaraq, diskontlaşdırılmış pul vəsati üsulu bu sahədə pul vəsaitlərinin gələcək hərəkəti qeyri-müəyyən olduğu üçün geniş diapozonlu ədalətli dəyər nəticələri göstərir. Rəhbərlik belə qiymətli kağızların ədalətli dəyərinin il sonunda onların balans dəyərindən əhəmiyyətli dərəcədə fərqlənməyəcəyini düşünür.

| | **Nominal faiz dərəcəsi** | **31 dekabr 2017-ci il** | **Nominal faiz dərəcəsi** | **31 dekabr 2016-cı il** |
|---|---|---|---|---|
| **Borc qiymətli kağızları** | | | | |
| ARDNŞ-nin buraxdığı istiqrazlar | 5%-6.95% | 29,221 | 5.4% | 19,289 |
| Azərbaycan Respublikası Maliyyə Nazirliyinin buraxdığı notlar | 1.0% | 6,428 | - | - |
| TANAP-ın buraxdığı avrobondlar | 6.88% | 4,125 | 6.9% | 4,086 |
| **Cəmi borc qiymətli kağızları** | | **39,774** | | **23,375** |

## 13. SATILABİLƏN İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI (davamı)

| Kapital investisiyaları | Pay | 31 dekabr 2017-ci il | Pay | 31 dekabr 2016-cı il |
|---|---|---|---|---|
| "Azərbaycan Beynəlxalq Bankı" ASC | 0.2% | 88 | 0.2% | 124 |
| "MilliKart" MMC | 0.8% | 40 | 0.8% | 40 |
| "Bakı Fond Birjası" MMC | - | - | 5.0% | 60 |
| | | 128 | | 224 |
| Çıxılsın: dəyərsizləşmə zərərləri üzrə ehtiyat | | (10) | | (41) |
| **Cəmi satılabilən investisiya qiymətli kağızları** | | **118** | | **183** |

31 dekabr 2016-cı il tarixinə Bankın törəmə müəssisəsi "Bakı Fond Birjası"na 5% kapital investisiyası yatırmış və bu investisiya 27 yanvar 2017-ci il tarixində satılaraq silinmişdir.

## 14. ƏMLAK VƏ AVADANLIQ

Əmlak və avadanlıq aşağıdakılardan ibarətdir:

| | Torpaq və binalar | Mebel və avadanlıq | Kompüter və kommunikasiya avadanlığı | Nəqliyyat vasitələri | Sair | Cəmi |
|---|---|---|---|---|---|---|
| **İlkin dəyər/ yenidənqiymətləndirmə dəyəri** | | | | | | |
| 31 dekabr 2015-ci il | 13,726 | 5,460 | 9,182 | 976 | 301 | 29,645 |
| Əlavələr | - | 94 | 27 | 33 | 9 | 163 |
| Silinmələr | (513) | (183) | (206) | (184) | (3) | (1,089) |
| 31 dekabr 2016-cı il | 13,213 | 5,371 | 9,003 | 825 | 307 | 28,719 |
| Əlavələr | - | 42 | 30 | - | 5 | 77 |
| Silinmələr | - | (71) | (107) | (179) | - | (357) |
| **31 dekabr 2017-ci il** | **13,213** | **5,342** | **8,926** | **646** | **312** | **28,439** |
| **Yığılmış amortizasiya** | | | | | | |
| 31 dekabr 2015-ci il | - | (3,751) | (4,867) | (601) | (191) | (9,410) |
| Amortizasiya xərci | (671) | (753) | (1,788) | (127) | (56) | (3,395) |
| Silinmələr | 19 | 142 | 131 | 129 | 3 | 424 |
| 31 dekabr 2016-cı il | (652) | (4,362) | (6,524) | (599) | (244) | (12,381) |
| Amortizasiya xərci | (652) | (559) | (1,557) | (86) | (34) | (2,888) |
| Silinmələr | - | 70 | 82 | 148 | - | 300 |
| **31 dekabr 2017-ci il** | (1,304) | (4,851) | (7,999) | (537) | (278) | (14,969) |
| **Xalis qalıq dəyəri** | | | | | | |
| **31 dekabr 2017-ci il tarixinə** | 11,909 | 491 | 927 | 109 | 34 | 13,470 |
| **31 dekabr 2016-cı il tarixinə** | 12,561 | 1,009 | 2,479 | 226 | 63 | 16,338 |

## 14. ƏMLAK VƏ AVADANLIQ (davamı)

31 dekabr 2017 və 2016-cı il tarixlərinə əmlak və avadanlıqlara müvafiq olaraq 7,301 min manat və 4,720 min manat məbləğində tamamilə dəyərsizləşmiş aktivlər daxil olmuşdur.

31 dekabr 2015-ci il tarixinə Bankın sahib olduğu torpaq və binalar müstəqil qiymətləndirici tərəfindən yenidən qiymətləndirilmişdir. Onların ədalətli dəyərinin qiymətləndirilməsi zamanı bazar dəyəri metodu tətbiq edilmişdir: bu metodda eyni və ya müqayisə edilə bilən (oxşar) aktivlər, öhdəliklər və ya müəssisə kimi aktiv və öhdəliklər qrupu ilə bağlı bazar əməliyyatlarından yaranan qiymətlər və digər müvafiq məlumatlar istifadə olunur.

31 dekabr 2017-ci ildə rəhbərlik daşınmaz əmlak olan kommersiya ofisinin dəyərində 1 yanvar 2017-ci il tarixindən 31 dekabr 2017-ci il tarixinə dəyişikliyə səbəb olan əsas amilləri təhlil etdi. Bu təhlilin nəticəsində rəhbərlik belə qənaətə gəldi ki, daşınmaz əmlak qiymətlərində əhəmiyyətli dəyişiklik olmayıb. Təhlil müqayisəli satış metoduna əsasən aparılmışdır. Bu metod yenidən qiymətləndirilən obyektin satılmış və ya satış üçün təklif olunan digər obyektlərlə birbaşa müqayisəsinə əsaslanır. Bu halda binanın ədalətli dəyəri aidiyyəti olmayan tərəfin keyfiyyət və istifadə baxımından oxşar obyekt üçün ödəməyə hazır olduğu məbləğə əsasən müəyyən edilir. Binaların bazar dəyəri obyekt analogiyasından asılı olaraq -10%-dən 30%-dək düzəlişlərdən istifadə etməklə bazarda satışa çıxarılan müqayisəyəyararlı obyektlər üçün edilən qiymət təklifləri haqqında məlumata əsasən hesablanır. Bu təkliflərə qiymətləndirilən əmlakla oxşar əmlakın xüsusiyyətlərindəki fərqlərə uyğun düzəliş edilmişdir. Yuxarıda sadalanan amilləri nəzərə almaqla hesablanmış qiymət rəhbərliyin gündəlik əməliyyatları idarə etməklə bağlı gələcək perspektivlərinin təhlilini əks etdirir və həm kənar, həm də daxili verilənlər mənbəsinə əsaslanır.

Bu hesablamalarda dəyişikliklər torpaq və binaların dəyərinə təsir göstərə bilər. Məsələn, müqayisə üçün götürülən obyektlərin bazar dəyəri 3% çox/az olarsa, 31 dekabr 2017-ci il tarixinə torpaq və binaların dəyəri 360 min manat çox/az olar (2016:375 min manat)

Binalar ilkin dəyər modelinə əsasən qiymətləndirilsəydi, balans dəyərləri aşağıdakı kimi olardı:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| İlkin dəyər | 5,677 | 5,677 |
| Yığılmış amortizasiya | (1,373) | (1,089) |
| **Xalis balans dəyəri** | **4,304** | **4, 588** |

Binaların ədalətli dəyəri ədalətli dəyər iyerarxiyasının 3-cü səviyyəsinə təsnif edilir.

## 15. QEYRİ-MADDİ AKTİVLƏR

Qeyri-maddi aktivlər comprise:

| | Lisenziyalar | Proqram təminatı | Cəmi |
|---|---|---|---|
| **İlkin dəyərində** | | | |
| 31 dekabr 2015-ci il | 567 | 1,737 | 2,304 |
| Əlavələr | 17 | 28 | 45 |
| Silinmələr | (7) | - | (7) |
| 31 dekabr 2016-cı il | 577 | 1,765 | 2,342 |
| Əlavələr | - | 24 | 24 |
| 31 dekabr 2017-ci il | **577** | **1,789** | **2,366** |
| **Yığılmış amortizasiya** | | | |
| 31 dekabr 2015-ci il | (219) | (625) | (844) |
| İl üzrə xərc | (51) | (148) | (199) |
| 31 dekabr 2016-cı il | (270) | (773) | (1,043) |
| İl üzrə xərc | (5) | (197) | (202) |
| 31 dekabr 2017-ci il | (275) | (970) | (1,245) |
| **Xalis qalıq dəyəri** | | | |
| **31 dekabr 2017-ci il** | **302** | **819** | **1,121** |
| **31 dekabr 2016-cı il** | **307** | **992** | **1,299** |

## 16. SAİR AKTİVLƏR

Sair aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| **Sair maliyyə aktivləri:** | | |
| Pul köçürmələri üzrə hesablaşmalar | 6,108 | 5,536 |
| Ləğv edilmiş törəmə müəssisədən debitor borcları | 60 | - |
| | 6,168 | 5,536 |
| Çıxılsın: dəyərsizləşmə zərərləri üzrə ehtiyat | (3,574) | (2,721) |
| | 2,594 | 2,815 |
| **Sair qeyri-maliyyə aktivləri:** | | |
| Balansa alınmış girov | 1,033 | 1,061 |
| Digər vaxtından əvvəl ödənişlər | 297 | 470 |
| Digər vergilər üzrə vaxtından əvvəl ödənişlər | 168 | 1,011 |
| Sair | 565 | 584 |
| | 2,063 | 3,126 |
| Çıxılsın: dəyərsizləşmə zərərləri üzrə ehtiyat | (355) | (334) |
| | 1,708 | 2,792 |
| **Cəmi sair aktivlər** | **4,302** | **5,607** |

Sair maliyyə aktivlərinin dəyərsizləşmə zərəri üzrə ehtiyata 2016-cı ildə lisenziyası ləğv edilmiş yerli banka aid 2,552 min manat daxildir.

## 17. BANKLARA VƏ SAİR MALİYYƏ TƏŞKİLATLARINA ÖDƏNİLMƏLİ VƏSAİTLƏR

Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlərə daxildir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Maliyyə təşkilatlarından alınmış kreditlər | 52,905 | 92,900 |
| Müddətli əmanətlər | 49,323 | 79,038 |
| Tələbli əmanətlər | 1,521 | 2,754 |
| **Cəmi banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər** | **103,749** | **174,692** |

31 dekabr 2017-ci il tarixinə müddətli əmanətlər və maliyyə təşkilatlarından alınmış kreditlərə Azərbaycanın dörd maliyyə təşkilatına (2016: altı) ödənilməli 81,231 min manat (2016: 155,189 min manat) daxil olmuşdur.

31 dekabr 2017-ci il tarixinə, tələbli əmanətlərə Azərbaycanın üç maliyyə təşkilatına (2016: dörd) ödənilməli 1,261 min manat (2016: 2,483 min manat) daxil olmuşdur.

Aşağıdakı növ təşkilatlarda tələbli və müddətli deposit hesabları olmuşdur:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Sığorta şirkətləri | 16,789 | 48,472 |
| Kommersiya bankları | 25,190 | 30,079 |
| İnvestisiya şirkətləri | 8,548 | 3,158 |
| Sair maliyyə aktivləri | 317 | 83 |
| **Tələbli və müddətli depozitlər** | **50,844** | **81,792** |

31 dekabr 2017-ci il tarixinə maliyyə təşkilatlarına ödənilməli müddətli depozitlərə illik effektiv faiz dərəcəsi 1.50%-10.00% (AZN, ABŞ dolları) hesablanmaqla (2016: 10%-12.00% (AZN, ABŞ dolları)) ödəmə müddətləri 2018-2025-ci illər (2016: 2017-2025) olmuşdur.

Maliyyə təşkilatlarından alınmış kreditlərə aşağıdakı təşkilatlarda olan hesablar daxildir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Kommersiya bankları | - | 4,771 |
| Sahibkarlığa Kömək Milli Fondu | 23,043 | 19,588 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankı | 20,000 | 60,000 |
| "Azərbaycan İpoteka Fondu" ASC | 9,862 | 8,541 |
| **Maliyyə təşkilatlarından alınmış kreditlər** | **52,905** | **92,900** |

31 dekabr 2017-ci il tarixinə Bank Azərbaycan Respublikasının Mərkəzi Bankından illik faiz dərəcəsi 3.5% olan 20,000 min manat məbləğində borc vəsaiti götürmüşdür (31 dekabr 2016: müvafiq olaraq illik faiz dərəcəsi 7% və 3.5% olan 20,000 min manat və 40,000 min manat). 31 dekabr 2017-ci il tarixinə Bankın bu borcların qarşılığında ARMB-da 23,898 manatlıq əmanəti (31 dekabr 2016: 81,912 min manat ABŞ dolları ilə) bloklaşdırılmışdır (bax: 11-ci qeyd).

Bank yuxarıda açıqlanmış banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsait qalıqları ilə bağlı heç bir maliyyə göstəricisi tələblərinə əməl etməli deyil.

## 17. BANKLARA VƏ SAİR MALİYYƏ TƏŞKİLATLARINA ÖDƏNİLMƏLİ VƏSAİTLƏR (davamı)

Bu kreditlərin nominal faiz dərəcələri və ödəmə müddətləri aşağıdakı cədvəldə göstərilmişdir:

| | 31 dekabr 2017-ci il | | | 31 dekabr 2016-cı il | | |
|---|---|---|---|---|---|---|
| | İllik faiz dərəcəsi | Valyuta | Ödəmə müddəti | İllik faiz dərəcəsi | Valyuta | Ödəmə müddəti |
| Kommersiya bankları | - | - | - | 4.0%-7.0% | AZN | 2017 |
| Sahibkarlığa Kömək Milli Fondu | 1.00% | AZN | 2017-2026 | 1.0% | AZN | 2017-2026 |
| Azərbaycan Respublikasının Mərkəzi Bankı | 3.5% | AZN | 2018 | 3.5%-7.0% | AZN | 2017-2018 |
| "Azərbaycan İpoteka Fondu" ASC | 1.0% - 8.0% | AZN | 2020-2045 | 1.0% - 4.0% | AZN | 2020-2045 |

**Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu**

31 dekabr 2017-ci il tarixinə müddətli borc vəsaitlərinin 23,043 min manatı (2016: 19,588 min manat) sahibkarlığın inkişafı üçün dəstək mexanizmini təkmilləşdirmək məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin proqramı çərçivəsində Sahibkarlığa Kömək Milli Fondundan götürülmüş borc vəsaitlərini təşkil etmişdir. Sahibkarlığa Kömək Milli Fondundan götürülən bütün borc vəsaitlərinin müddəti beş ildən on ilədək və faiz dərəcəsi 1%-dir. Bank öz növbəsində bu vəsaitləri illik faiz dərəcəsi 6%-7%-dən çox olmamaq şərtilə müəyyən tələblərə cavab verən borcalanlara təqdim edir. Bu borc vəsaitlərinin müddəti 2018-ci ilin aprel və 2026-cı ilin noyabr aylarına kimidir.
Azərbaycan İpoteka Fondu və Sahibkarlığa Kömək Milli Fondundan alınmış müddətli borclar üçün diskont dərəcəsini hesablayarkən Bank bu bazarı digər kommersiya borclarından ayırır, belə ki, bu kreditlər Azərbaycanın bütün bank sektoruna eyni müddətlər, məqsədlər, şərtlər və kredit riskləri ilə verilmişdir.

**Azərbaycan İpoteka Fondu**

31 dekabr 2017-ci il tarixinə müddətli borc vəsaitlərinin 9,862 min AZN hissəsi (2016: 8,541 min AZN) fiziki şəxslərə uzunmüddətli ipoteka kreditlərinin verilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mərkəzi Bankının təşəbbüsü ilə həyata keçirilən proqram çərçivəsində Azərbaycan İpoteka Fondundan götürülmüş borc vəsaitlərini təşkil edir. Bu proqram çərçivəsində vəsaitlər Banka illik 1-8% faiz dərəcəsi ilə verilir və Bank öz növbəsində bu vəsaitləri illik 8% faiz dərəcəsindən çox olmamaq şərtilə müəyyən tələblərə cavab verən borcalanlara təqdim edir. Bu borc vəsaitlərinin müddəti iyun 2020 və may 2045-ci ilədəkdir.

**Maliyyələşdirmə fəaliyyətlərindən irəli gələn pul vəsaitlərinə münasibətdə öhdəliklərdə hərəkətin üzləşdirilməsi**

| | Sair borc vəsaitləri | Subordinasiya borcları | Cəmi |
|---|---|---|---|
| **1 yanvar 2017-ci l tarixinə qalıq** | **88,129** | **25,275** | **113,404** |
| **Maliyyələşdirmə üzrə pul vəsaitlərinin hərəkətində dəyişiklik** | | | |
| Sair borc vəsaitlərindən daxilolmalar | 7,946 | - | 7,946 |
| Sair borc vəsaitlərinin ödənilməsi | (43,173) | - | (43,173) |
| **Maliyyələşdirmə üzrə pul vəsaitlərinin hərəkətində cəmi dəyişiklik** | **(35,227)** | **-** | **(35,227)** |
| **Məzənnə fərqlərinin təsiri** | **-** | **(1,006)** | **(1,006)** |
| Faiz xərcləri | 243 | 1,103 | 1,351 |
| Ödənilmiş faiz | (240) | (1,105) | (1,350) |
| **31 dekabr 2017-ci il tarixində qalıq** | **52,905** | **24,267** | **77,172** |

## 18. MÜŞTƏRİLƏRƏ ÖDƏNİLMƏLİ VƏSAİTLƏR

Müştərilərə ödənilməli vəsaitlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Müddətli əmanətlər | 203,708 | 259,505 |
| Tələbli əmanətlər | 40,952 | 32,570 |
| **Müştərilərə ödənilməli cəmi vəsaitlər** | **244,660** | **292,075** |

31 dekabr 2017 və 2016-cı il tarixlərinə müştərilərə ödənilməli müvafiq olaraq 3,438 min manat və 253 min manat məbləğində vəsait buraxılmış zəmanətlərə qarşı təminat kimi, müvafiq olaraq 66,159 min manat və 22,674 min manat məbləğində vəsait kreditlərə qarşı təminat kimi və müvafiq olaraq 5,319 min manat və 3,230 min manat məbləğində vəsait istifadə olunmamış kredit vəsaitlərinə qarşı təminat kimi saxlanmışdır.

31 dekabr 2017-ci il tarixinə AZN, ABŞ dolları və avro ilə ifadə olunmuş müddətli əmanətlərin illik effektiv faiz dərəcəsi müvafiq olaraq 7.5% - 17%, 1% - 17% və 1% - 7.6% (2016: 5% - 17 %, 1% - 17% və 2.5% - 8%) və ödəmə müddəti 2018-2023 (2016: 2017-2023) olmuşdur.

31 dekabr 2017 və 2016-cı il tarixlərinə müştərilərə ödənilməli vəsaitlərin müvafiq olaraq 24,182 min 34,662 min manatı (cəmi müştərilərə ödənilməli vəsaitlərin 10% və 13%-i) on ən iri müştəriyə aid olmuşdur.

Müddətli əmanətlərə fiziki şəxslərin 166,469 min manat (2016: 256,388 min manat) məbləğində əmanətləri daxildir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən, Bank bu əmanətləri fiziki və hüquq şəxslərin tələbi ilə geri qaytarmalıdır. Müddətli əmanət tələb edilməklə vaxtından əvvəl geri qaytarıldıqda, belə əmanət üçün ödənilən faiz dərəcəsi, müqavilədə əksi göstərilmədiyi təqdirdə, tələbli əmanət üçün olan faiz dərəcəsində götürülür.

Müştəri hesablarının iqtisadi sektor üzrə təhlili aşağıdakı kimidir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| **Sektor üzrə təhlil:** | | |
| Fiziki şəxslər və işçilər | 189,243 | 275,059 |
| İstehsalat | 38,562 | 119 |
| Ticarət və xidmət | 15,183 | 6,898 |
| Kənd təsərrüfatı | 840 | 2,432 |
| Nəqliyyat və rabitə | 549 | 6,644 |
| tikinti | 275 | 166 |
| Energetika | 8 | 757 |
| **Müştərilərə ödənilməli cəmivəsaitlər** | **244,660** | **292,075** |

Müştərilərə ödənilməli vəsaitlər aşağıdakı müştəri növlərini özündə ehtiva edir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Fiziki şəxslər və işçilər | 189,243 | 275,059 |
| Özəl müəssisələr | 55,310 | 16,694 |
| Dövlət və büdcə təşkilatları | 107 | 322 |
| **Müştərilərə ödənilməli cəmi vəsaitlər** | **244,660** | **292,075** |

## 19. SAİR ÖHDƏLİKLƏR

Sair öhdəliklərə aşağıdakılar daxildir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| **Sair maliyyə öhdəlikləri:** | | |
| Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə ödənilməli vəsaitlər | 12,435 | 12,435 |
| Pul köçürmələri və plastik kart əməliyyatları üzrə hesablaşmalar | 1,092 | 796 |
| Müştərilərə ödənilməli vəsaitlər | 390 | 340 |
| Sair öhdəliklər | 463 | 89 |
| | 14,380 | 13,660 |
| **Sair qeyri-maliyyə öhdəlikləri:** | | |
| Sair ödənilməli vergi | 81 | 90 |
| | 81 | 90 |
| **Cəmi sair öhdəliklər** | **14,461** | **13,750** |

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə kreditor borcları 2014-cü ildə elan edilmiş, lakin Bankın keçmiş səhmdarlarından birinə ödənilməmiş dividendlərə aiddir. Bu dividendlərin hesabat dövründən sonra ödənilməsi haqqında daha ətraflı 27 saylı qeyddə danışılır.

## 20. SUBORDİNASİYA BORCLARI

Subordinasiya borcları aşağıdakılardan ibarətdir:

| | Verilmə tarixi | Ödəniş müddəti | Faiz dərəcəsi | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|---|---|---|
| Əlaqəli tərəflərin subordinasiya borcları ("AZPETROL NEFT ŞİRKƏTİ" MMC, 14,250 min ABŞ dolları, aylıq ödəmə) | Yanvar-mart, 2016 | Yanvar-mart, 2023 | 4.5% | 24,267 | 25,275 |
| **Cəmi subordinasiya borcları** | | | | **24,267** | **25,275** |

Bank müflis olduqda və ya ləğv edildikdə bu borcların ödənişi Bankın bütün digər kreditorlara olan öhdəliklərinə münasibətdə ikinci dərəcəli olacaq.

Bankın yuxarıda açıqlanmış subordinasiya borc qalıqlarına görə hər hansı maliyyə şərtlərinə əməl etmək öhdəliyi yoxdur.

## 21. NİZAMNAMƏ KAPİTALI

31 dekabr 2017 və 2016-cı il tarixlərinə Bankın səhmdarlarının buraxılmasına icazə verilmiş, buraxılmış və tam ödənilmiş kapitalı 52,870 min manat təşkil etməklə hər birinin nominal dəyəri 15.55 manat olan 3,400,000 adi səhmdən ibarət olmuşdur. Hər səhm səhmdara bir səs hüquq verir.

2017-ci ildə Bank 2016-cı il gəlirlərindən adi səhmlər üzrə dividend elan etməmişdir (2016: 2015-ci il gəlirlərindən dividend elan edilməmişdir).

## 22. ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ TƏƏHHÜDLƏR

Adi fəaliyyət zamanı Bank müştərilərin ehtiyaclarını qarşılamaq üçün balansdankənar riskləri olan maliyyə alətləri üzrə müqavilə tərəfi qismində çıxış edir. Dəyişən kredit riski dərəcəsinə malik bu alətlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir.

Bank balansda qeyd edilən əməliyyatlar halında olduğu kimi, balansdankənar öhdəlikləri yerinə yetirərkən eyni kredit nəzarəti və idarəetməsi siyasətlərini tətbiq edir.

31 dekabr 2017 və 2016-cı il tarixlərinə şərti öhdəliklər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| **Şərti öhdəliklər və kredit öhdəlikləri** | | |
| Kredit və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | 11,652 | 11,119 |
| Verilmiş zəmanətlər | 10,054 | 7,327 |
| Əməliyyatla bağlı digər şərti öhdəliklər | 1,587 | 1,609 |
| **Cəmi şərti öhdəliklər və kredit öhdəlikləri** | **23,293** | **20,055** |

***Əməliyyat icarəsi öhdəlikləri.*** Bank icarəçi olduqda, binaların ləğv olunmayan əməliyyat icarələri üzrə gələcək minimum icarə ödənişləri aşağıdakı kimi olur:

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il |
|---|---|---|
| Bir ildən az | 421 | 511 |
| **Cəmi əməliyyat icarəsi öhdəlikləri** | **421** | **511** |

| | | |
|---|---|---|
| **Şərti öhdəliklər və təəhhüdlər (təminat çıxılmazdan əvvəl)** | 23,714 | 20,566 |
| Çıxılsın: Verilmiş zəmanətlərə qarşı təminat kimi saxlanılan pul vəsaitləri (18-ci qeyd) | (3,438) | (253) |
| Çıxılsın: istifadə olunmamış kredit vəsaitlərinə qarşı təminat kimi saxlanılan pul vəsaitləri (18-ci qeyd) | (5,319) | (3,230) |
| **Şərti öhdəliklər və təəhhüdlər** | **14,957** | **17,083** |

***Məhkəmə prosesləri.*** Bank vaxtaşırı olaraq və adi fəaliyyəti müddətində müştərilər və müqavilə tərəflərinin irəli sürdüyü iddialarla üzləşir. Rəhbərlik hesablanmamış mühüm itkilər yaranmayacağı qənaətindədir və bu səbəbdən də hazırki maliyyə hesabatlarında ehtiyatlar nəzərdə tutulmamışdır.

***Vergiqoyma.*** Azərbaycanın vergiqoyma sistemi nisbətən yenidir və bir çox hallarda aydın olmayan, ziddiyyətli və müxtəlif vergi orqanları tərəfindən fərqli qaydada təfsir edilən qanunvericilikdə tez-tez dəyişikliklərlə, rəsmi göstərişlərlə və məhkəmə qərarları ilə səciyyələnir. Vergilər sərt cərimələr və faiz yükləmələri tətbiq edən orqanlar tərəfindən yoxlanılır və araşdırılır. Bir vergi ili ümumən üç növbəti təqvim ili müddətində vergi orqanları tərəfindən nəzarət üçün açıq qalır, lakin müəyyən hallarda bir vergi ili daha uzun müddətə açıq qala bilər.

Bu hallar Azərbaycan Respublikasında digər ölkələrlə müqayisədə daha ciddi vergi risklərinin yaranmasına səbəb ola bilər. Rəhbərlik qüvvədə olan qanunvericiliyinin, rəsmi göstərişlərin və məhkəmə qərarlarının təsnifləri əsasında vergi öhdəlikləri ilə əlaqədar adekvat tədbirləri gördüyünü hesab edir, lakin müvafiq səlahiyyətli orqanların şərhləri fərqli ola bilər və vergi orqanları öz şərhlərinin tətbiq edilməsinə nail olduqları halda, maliyyə hesabatlarına təsiri əhəmiyyətli ola bilər.

## 22. ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ TƏƏHHÜDLƏR (davamı)

***Fəaliyyət mühiti.*** Bankın fəaliyyəti əsasən Azərbaycan Respublikasının ərazisində yerləşir. Beləliklə, Bank inkişafda olan bazar iqtisadiyyatının xüsusiyyətləri ilə səciyyələnən Azərbaycanın iqtisadi və maliyyə bazarlarında fəaliyyətlə bağlı risklərə məruz qalır. Hüquqi, vergi və normativ baza və rejimlərin inkişafı davam edir, lakin onların müddəalarının həm fərqli şərh olunması, həm də tez-tez dəyişdirilməsi müşahidə olunur. Bütün bunların və sair hüquqi və vergi maneələri nəticəsində Azərbaycanda fəaliyyət göstərən müəssisələr müxtəlif çətinliklərlə üzləşirlər.

Əlavə olaraq, Azərbaycan manatının davamlı ucuzlaşması və dünya bazarında neftin qiymətinin düşməsi biznes mühitində qeyri-müəyyənlik səviyyəsini artırmışdır.

Maliyyə hesabatlarında Azərbaycandakı biznes mühitinin Bankın fəaliyyətinə və maliyyə vəziyyətinə təsiri rəhbərlik tərəfindən qiymətləndirilir. Gələcəkdə biznes mühiti rəhbərliyin cari qiymətləndirməsindən fərqlənə bilər.

## 23. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Qrup və digər əlaqəli tərəflər arasında əməliyyatların təfərrüatları aşağıda açıqlanmışdır:

| | | 31 dekabr 2017-ci il | | | 31 dekabr 2016-cı il | | |
|---|---|---|---|---|---|---|---|
| | **Qeydlər** | **Hesablanmış orta faiz dərəcəsi** | **Əlaqəli tərəflərin qalıqları** | **Maliyyə hesabatı müddəası üzrə cəmi kateqoriya** | **Hesablanmış orta faiz dərəcəsi** | **Əlaqəli tərəflərin qalıqları** | **Maliyyə hesabatı müddəası üzrə cəmi kateqoriya** |
| Müştərilərə verilmiş kreditlər | 12 | | | 362,154 | | | 367,752 |
| Azərbaycan manatında: | | | | | | | |
| - *Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | 1.68% | 41 | | 18% | 169 | |
| - *Bankın əsas idarəedici heyəti* | | 11.09% | 391 | | 12.43% | 3,072 | |
| Xarici valyutada: | | | | | | | |
| - *Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | | - | | | - | |
| - *Bankın əsas idarəedici heyəti* | | | - | | 15.13% | 282 | |
| Dəyərsizləşmə zərəri üzrə ehtiyat | 12 | | | (142,351) | | | (148,599) |
| Azərbaycan manatında: | | | | | | | |
| - *Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | | - | | | (2) | |
| - *Bankın əsas idarəedici heyəti* | | | - | | | (46) | |
| Xarici valyutada: | | | | | | | |
| - *Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | | - | | | - | |
| - *Bankın əsas idarəedici heyəti* | | | | | | (4) | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 17 | | | 103,749 | | | 174,692 |
| Azərbaycan manatında: | | | | | | | |
| - *Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | 0% | 49 | | | - | |

| | | 31 dekabr 2017-ci il | | | 31 dekabr 2016-cı il | | |
|---|---|---|---|---|---|---|---|
| | Qeydlər | Hesablanmış orta faiz dərəcəsi | Əlaqəli tərəflərin qalıqları | Maliyyə hesabatı müddəası üzrə cəmi kateqoriya | Hesablanmış orta faiz dərəcəsi | Əlaqəli tərəflərin qalıqları | Maliyyə hesabatı müddəası üzrə cəmi kateqoriya |
| Xarici valyutada: | | | | | | | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | 0% | 290 | | 7% | 10,743 | |
| Müştərilərə ödənilməli vəsaitlər | 18 | | | 244,660 | | | 292,075 |
| Azərbaycan manatında: | | | | | | | |
| *- Səhmdarlar* | | 0% | 13 | | | - | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | 0% | 2,059 | | | - | |
| *- Bankın əsas idarəedici heyəti* | | 0% | 110 | | 13.22% | 165 | |
| Xarici valyutada: | | | | | | | |
| *- səhmdarlar* | | 0% | 2,653 | | | 1,630 | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | 0% | 498 | | 3.5% | 724 | |
| *- Bankın əsas idarəedici heyəti* | | 2.13% | 13 | | 12.46% | 1,274 | |
| Subordinasiya borcları | 20 | | | 24,267 | | | 25,275 |
| Xarici valyutada: | | | | | | | |
| *- səhmdarlar* | | 4.50% | 24,267 | | 4.50% | 25,275 | |
| Kreditlər və istifadə olunmamış kredit xətləri üzrə öhdəliklər | 22 | | | 11,652 | | | 11,119 |
| Azərbaycan manatında: | | | | | | | |
| *- Bankın əsas idarəedici heyəti* | | 8.00% | 72 | | 8.78% | 679 | |
| *- səhmdarlar* | | | | | | | |
| Verilmiş zəmanətlər | 22 | | | 10,054 | | | 7,327 |
| Azərbaycan manatında: | | | | | | | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | 1.00% | 500 | | 3% | 3 | |

Direktorlara və əsas idarəedici heyətin digər üzvlərinən ödənişlər aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2017-ci il tarixində tamamlanan il | | 31 dekabr 2016-cı il tarixində tamamlanan il | |
|---|---|---|---|---|
| | Əlaqəli tərəflərlə əməliyyatlar | Maliyyə hesabatı müddəası üzrə cəmi kateqoriya | Əlaqəli tərəflərlə əməliyyatlar | Maliyyə hesabatı müddəası üzrə cəmi kateqoriya |
| İşçi heyəti xərcləri | | (14,410) | | (17,835) |
| *- əsas idarəedici heyətin əmək haqları və digər qısamüddətli müavinətləri* | (568) | | (3,435) | |

## 23. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR (davamı)

Əlaqəli tərəflərlə əməliyyatlar üzrə uçotda tanınmış aşağıdakı məbləğlər 31 dekabr 2017 və 2016-cı il tarixlərinə tamamlanan illər üzrə mənfəət və ya zərər haqqında hesabata daxil edilmişdir:

| | Qeydlər | 31 dekabr 2017-ci il tarixində tamamlanan il | | 31 dekabr 2016-cı il tarixində tamamlanan il | |
|---|---|---|---|---|---|
| | | Əlaqəli tərəflərlə əməliyyatlar | Maliyyə hesabatı müddəası üzrə cəmi kateqoriya | Əlaqəli tərəflərlə əməliyyatlar | Maliyyə hesabatı müddəası üzrə cəmi kateqoriya |
| Faiz gəliri | | | 45,564 | | 67,386 |
| *- səhmdarlar* | | - | | | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | 7 | | 91 | |
| *- Bankın əsas idarəedici heyəti* | | 43 | | 362 | |
| Faiz xərcləri | | | (20,549) | | (37,632) |
| *- səhmdarlar* | | (1,103) | | (1,361) | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | | | (829) | |
| *- Bankın əsas idarəedici heyəti* | | - | | (491) | |
| Dəyərsizləşmə zərəri üzrə ehtiyat | 5 | | 11,739 | | (72,394) |
| *- səhmdarlar* | | - | | - | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | ) | | (2) | |
| *- Bankın əsas idarəedici heyəti* | | - | | (50) | |
| Haqq və komissiya gəlirləri | 6 | | 4,626 | | 3,436 |
| *- səhmdarlar* | | 4 | | 10 | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | 180 | | 349 | |
| *- Bankın əsas idarəedici heyəti* | | 4 | | 12 | |
| Xarici valyuta alqı-satqısı üzrə xalis qazanc | | | 2,374 | | 3,759 |
| *- səhmdarlar* | | 116 | | 333 | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | 263 | | 758 | |
| Sair əməliyyat xərcləri | 8 | | (9,202) | | (8,393) |
| *- səhmdarlar* | | - | | (44) | |
| *- Bank səhmdarlarının əsas payçısı olduğu müəssisələr* | | (760) | | (739 | |
| *- Bankın əsas idarəedici heyəti* | | (12) | | (20) | |

## 24. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

Ədalətli dəyər təxminləri qiymətləndirmə tarixində bazar iştirakçıları arasında adi əməliyyat çərçivəsində aktivin satışından alınan və ya öhdəliyin ötürülməsi üçün ödənilən qiymət kimi müəyyən olunur. Bununla belə, qeyri-müəyyənlikləri və mühakimənin subyektivliyini nəzərə alaraq, ədalətli dəyər aktivin satışı və ya öhdəliyin ötürüldüyü anda dərhal əldə edilə biləcək məbləğ sayılmamalıdır.

**Maliyyə aktivləri və öhdəliklər**

Fəal bazarda alınıb-satılan maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərləri elan olunmuş bazar qiymətlərinə və ya diler qiymət təkliflərinə əsaslanır. Bütün digər maliyyə alətləri üçün Bank digər qiymətləndirmə üsullarından istifadə etməklə ədalətli dəyərləri müəyyən edir.

Qiymətləndirmə üsullarının məqsədi qiymətləndirmə tarixində bazar iştirakçıları arasında adi əməliyyatda aktivi satmaq üçün əldə olunacaq və ya öhdəliyi ötürmək üçün ödəniləcək qiyməti əks etdirən ədalətli dəyərin müəyyənləşdirilməsidir.

Qiymətləndirmə metodlarına xalis cari dəyər və diskontlaşdırılmış pul vəsaitlərinin hərəkət modelləri, bazarda müşahidə oluna bilən qiymətləri mövcud olan maliyyə alətləri ilə müqayisə daxildir. Qiymətləndirmə metodlarında istifadə edilən ehtimallara və göstəricilərə riskləri olmayan və bençmark faiz dərəcələri, kredit spredi və diskont dərəcələrin qiymətləndirilməsində istifadə edilən sair premiyalar, istiqraz və kapital qiymətləri, xarici valyuta məzənnələri, kapital və kapital indeksi qiymətləri, gözlənilən açıq mövqelər və nisbətlər daxildir. Qiymətləndirmə metodlarının məqsədi kommersiyada fəaliyyət göstərən bazar iştirakçıları tərəfindən müəyyən edilən hesabat tarixində maliyyə alətinin dəyərini əks etdirən ədalətli dəyər vəziyyətinə çatmaqdır.

Bank faiz dərəcəsi və valyuta svopları kimi müşahidə edilə bilən bazar məlumatlarından istifadə edən və rəhbərlikdən cüzi mühakimə və proqnoz tələb edən ümumi və daha sadə maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün geniş tətbiq olunan qiymətləndirmə modellərindən istifadə edir. Müşahidə edilə bilən qiymətlər və model haqqında məlumat adətən bazarda listinq subyekti olan borc və kapital qiymətli kağızları, mübadilə edilən törəmə alətlər və faiz dərəcəsi svopları kimi sadə törəmə alətlər üçün mövcud olur.

Nisbətən mürəkkəb alətlər üçün Bank öz qiymətləndirmə modellərini tətbiq edir. Belə modellər üçün əhəmiyyətli məlumatın qismən və ya bütövlükdə bazarda müşahidə edilməyə bilər. Onlar bazar qiymətlərinə və ya dərəcələrinə əsasən hazırlanır və ya mülahizələrə əsasən təxmin edilir. Müşahidə edilə bilinməyən əhəmiyyətli məlumata fəal bazarı olmayan müəyyən kreditlər və qiymətli kağızlar nümunə ola bilər.

Rəhbərlik maliyyə alətlərinin ədalətli dəyərini təxmin etmək üçün aşağıdakı mülahizələrə əsaslanır:

- Banklardan alınacaq vəsaitlərdən və müştərilərə verilmiş kreditlərdən daxil olacaq gələcək pul vəsaitləri müvafiq olaraq 4.93% - 11.8% və 6.84%-16.47% dərəcələrlə diskontlaşdırılır.
- Cari hesablar və müştəri əmanətlərindən daxil olacaq gələcək pul vəsaitləri 4.99% - 9.46% dərəcələrlə diskontlaşdırılır .
- 6.52%-9.48% diskont dərəcələri subordinasiya borcları üzrə gələcək pul vəsaitlərinin diskontlaşdırılması üçün istifadə edilir.
- 13-cü qeyddə açıqlandığı kimi, bazarda haqqında məlumat olmayan qiyməti elan olunmamış kapital qiymətli kağızları istisna olmaqla, satılabilən maliyyə aktivlərinin ədalətli dəyəri elan edilmiş baar qiymətləri ilə müəyyən edilir.
- Sair borc vəsaitləri üçün diskond dərəcəsini müəyyən edərkən, Bank şərtlərin, təyinatların, müddətlərin və riskə məruz qalan məbləğin fərqli olması səbəbindən bu bazarı digər ticari borclardan ayrı bazar kimi nəzərdən keçirir.

## 24. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ (davamı)

Bank ədalətli dəyərləri aşağıdakı ədalətli dəyər iyerarxiyasına əsasən ölçür. Bu iyerarxiya ölçmələr zamanı istifadə olunan əlavə məlumatların əhəmiyyətini əks etdirir:

- 1-ci səviyyə: Fəal bazarda eyni bir alət üçün fəal bazar qiymətləri (nizamlanmamış).
- 2-ci səviyyə: birbaşa (yəni qiymətlər kimi), ya da bilavasitə (yəni qiymətlərdən törəyən) müşahidə oluna bilən, 1-ci səviyyəyə daxil edilmiş kotirovka olunan qiymətdən başqa digər ilkin göstəricilər. Bu kateqoriyaya aşağıdakı amillərdən istifadə etməklə qiymətləndirilən alətlər daxildir: analoji alətlər üçün fəal bazarda tətbiq edilən bazar qiymətləri; analoji alətlər üzrə kifayət qədər fəal hesab olunmayan bazarlarda tətbiq edilən qiymətlər; və ya bütün əhəmiyyətli ilkin göstəricilərin birbaşa, yaxud dolayısı ilə bazar məlumatlarından müşahidə oluna bildiyi sair qiymətləndirmə üsulları.
- 3-cü səviyyə: ilkin göstəricilər müşahidə oluna bilmir. Bu kateqoriyaya aid edilən alətlərin qiymətləndirmə metoduna müşahidə edilə bilən məlumata əsaslanmayan ilkin göstəricilər daxildir və müşahidə edilə bilməyən ilkin göstəricilər həmin alətin qiymətləndirilməsində əhəmiyyətli təsirə malikdir. Bu kateqoriyaya oxşar alətlər üçün kotirovka olunan qiymətlər əsasında qiymətləndirilən alətlər daxildir və bu zaman alətlər arasında fərqi əks etdirmək üçün mühüm müşahidə olunmayan tənzimləmələr və ya mülahizələr tələb olunur..

**Bankın dövri olaraq ədalətli dəyərdə ölçülən maliyyə aktivlərinin ədalətli dəyəri**

Bankın müəyyən maliyyə aktivləri və öhdəlikləri hər hesabat dövrünün sonunda ədalətli dəyərlə ölçülür.

| | 31 dekabr 2017-ci il | Qiymətləndirmə metodu və əsas ilkin məlumatlar | Ədalətli dəyər iyerarxiyası | 31 dekabr 2016-cı il | Qiymətləndirmə metodu və əsas ilkin məlumatlar | Ədalətli dəyər iyerarxiyası |
|---|---|---|---|---|---|---|
| Satılabilən investisiya qiymətli kağızları (borc qiymətli kağızları) | 39,774 | Fəal sayılmayan bazarda müəyyən edilmiş qiymət təklifi | Level 2 | 23,375 | Fəal sayılmayan bazarda müəyyən edilmiş qiymət təklifi | Level 2 |
| **Cəmi satılabilən investisiya qiymətli kağızları** | **39,774** | | | **23,375** | | |

Dövri olaraq ədalətli dəyərində ölçülməyən maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyəri 31 dekabr 2017 və 31 dekabr 2016-cı il balans dəyərinə təxmini yaxın olmuşdur.

## 25. KAPİTALIN İDARƏ EDİLMƏSİ

Bank müəssisəyə xas olan risklərin təmin edilməsi üçün fəal idarə edilən kapital bazasına malikdir. Bankın kapitalının adekvatlığı digər üsullarla yanaşı, bankın idarə edilməsi üçün MBNP-nın müəyyən etdiyi əmsallardan istifadə etməklə nəzarətdə saxlanılır.

Bankın kapitalını idarə edərkən rəhbərliyin əsas məqsədləri aşağıdakılardır: (i) MBNP tərəfindən müəyyən edilmiş kapital tələblərinə əməl etmək, (ii) Bankın fasiləsiz fəaliyyət qabiliyyətini qoruyub saxlamaq və (iii) biznesini dəstəkləmək və səhmdar dəyərini artırmaq üçün güclü kredit səviyyəsini və münasib kapital əmsallarını qoruyub saxlamaq. Bankın MBNP tərəfindən müəyyən edilmiş kapital adekvatlığı əmsallarının tətbiqinə Bankın baş mühasibi və İdarə Heyətinin sədri tərəfindən yoxlanılaraq imzalanan hesablamaları əhatə edən aylıq hesabatlarla nəzarət edilir. Kapitalın idarə edilməsinin digər məqsədləri illik əsasda qiymətləndirilir.

31 dekabr tarixinə Bankın MBNP tərəfindən müəyyən edilmiş kapital adekvatlığı əmsalı aşağıdakı kimi olmuşdur:

| | 2017 AZN'000 (auditi aparılmamış) | 2016 AZN'000 (auditi aparılmamış) |
|---|---|---|
| Cəmi normativ kapital | 24,611 | 82,706 |
| Qanunla riski hesablanmış aktivlər | 299,670 | 348,600 |
| **Normativ kapital adekvatlığı əmsalı (%)** | **7.42%** | **22.90%** |

31 dekabr tarixinə MBNP-nın tələblərinə əsasən kapital adekvatlığı əmsalı aşağıdakı kimidir:

| | 31 dekabr 2017-ci il (auditi aparılmamış) | 31 dekabr 2016-cı il (auditi aparılmamış) |
|---|---|---|
| 1-ci dərəcəli kapital | 14,045 | 53,069 |
| 2-ci dərəcəli kapital | 10,778 | 29,842 |
| | 24,823 | 82,911 |
| Cəmi kapitaldan tutulmalar | (212) | (205) |
| **Cəmi kapital** | **24,611** | **82,706** |
| **Riski ölçülmüş aktivlər** | **299,670** | **348,600** |
| 1-ci dərəcəli kapital adekvatlığı əmsalı | 3.86% | 15.22% |
| Cəmi kapital adekvatlığı əmsalı | 7.42% | 22.90% |

### Cəmi normativ kapitalın MHBS-na uyğun kapitalla üzləşdirilməsi

Aşağıdakı auditi aparılmamış məlumat Bankın 31 dekabr 2017-ci il tarixində tamamlanan il üzrə maliyyə hesabatı istifadəçilərinə əlavə məlumat vermək məqsədi daşıyır və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) əsasən tələb olunmur.

Aşağıdakı cədvəldə 31 dekabr 2017-ci il tarixinə Bankın MHBS-na əsasən hazırladığı maliyyə hesabatlarında təqdim etdiyi xalis aktivlərin tərkibindəki dəyişikliklər və MBNP-nın qayda və normativlərinə əsasən müəyyən edilmiş cəmi normativ kapitalın icmalı təqdim olunub.

## 25. KAPİTALIN İDARƏ EDİLMƏSİ (davamı)

| | 31 dekabr 2017-ci il (auditi aparılmamış) | 31 dekabr 2016-cı il (auditi aparılmamış) |
|---|---|---|
| **Cəmi normativ kapital** | **24,611** | **82,706** |
| Normativ və MHBS kapitalı arasında fərqlər: | | |
| - bölüşdürülməmiş mənfəət | (63,208) | (26,458) |
| - cari il üzrə xalis zərər | 42,155 | (36,804) |
| - kredit zərəri üzrə ehtiyat | 53,239 | 45,745 |
| - Faiz gəliri | (5,148) | (24,310) |
| - Faiz xərcləri | (2,476) | 2,950 |
| - xalis komissiya gəliri | (482) | (446) |
| - valyuta mübadiləsindən gəliri(zərər) | 4,466 | 2,536 |
| - sair aktivlər üzrə ehtiyat | (806) | (2,808) |
| - sair gəlir | (2,544) | (49,579) |
| - mənfəət vergisi xərci | (4,107) | (9,585) |
| - inzibati xərclər | 78 | (1,307) |
| - digər | (65) | - |
| - tutulmalarda fərqlər | 12,674 | 8,754 |
| - qeyri-maddi aktivlər | 1,121 | 1,299 |
| - təxirə salınmış vergi aktivləri | 11,341 | 7,250 |
| - investisiyalar | 212 | 205 |
| - ümumi ehtiyatlar | (2,936) | (3,753) |
| - sair kapital | (7,841) | (26,089) |
| - yenidənqiymətləndirmə ehtiyatı | 6,758 | 7,118 |
| - yenidənqiymətləndirmə ehtiyatının amortizasiyası | 360 | 397 |
| **MHBS üzrə xalis kapital** | **12,573** | **5,871** |

## 26. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ QAYDALARI

Risklərin idarə edilməsi Bankın bankçılıq fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir və Bank əməliyyatlarının əsas elementini təşkil edir. Bankın əməliyyatlarına xas olan əsas risklər aşağıdakılara bağlıdır:

- Kredit riski
- Likvidlik riski
- Bazar riski

Bank effektiv və səmərəli riskin idarə edilməsi prosesinin tətbiqinin önəmli olması aktını qəbul edir. Belə prosesin tətbiqinə imkan yaratmaq üçün Bank riskin idarə edilməsi qaydalarını yaratmışdır ki, bnun da əsas məqsədi Bankı risklərdən qorumaq və Banka qarşıda qoyulmuş fəaliyyət məqsədlərinə nail olması üçün imkan yaratmaqdır. Risklərin idarə edilməsi çərçivəsi vasitəsilə Bank aşağıdakı risklərin idarə edilməsini həyata keçirir:

***Kredit riski***

Bank kredit riskinə məruz qalır ki, bu da maliyyə aləti üzrə bir tərəfin öz öhdəliklərini yerinə yetirə bilməməsi və digər tərəfin maliyyə itkisinə məruz qalması ilə nəticələnməsindən yaranan riskdir.

Riskin idarə edilməsi və monitorinqi müəyyən edilmiş səlahiyyətlər çərçivəsində həyata keçirilir. Bu proseslər Kredit Komitəsi və Bankın İdarə Heyəti tərəfindən icra edilir. Kredit Komitəsi tərəfindən hər hansı müraciət olmayana qədər kredit prosesləri üzrə bütün tövsiyələr (borcalan üçün təsdiq edilmiş hədlər və ya kredit sazişinə edilmiş düzəlişlər və sair) filialın riskin idarə edilməsi üzrə meneceri, yaxud Risklərin İdarə edilməsi Departamentinin meneceri tərəfindən təhlil edilir və təsdiqlənir. Gündəlik riskin idarə edilməsi prosesi Kredit Departamentlərinin və Filiallarının Kredit bölmələrinin rəhbərləri tərəfindən həyata keçirilir.

Bank bir borcalan, yaxud borcalan qrupları və sənaye seqmentləri üzrə qəbul edilmiş risklərin məbləğini məhdudlaşdırmaqla üzərinə götürdüyü kredit risklərinin səviyyəsini strukturlaşdırır.

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

Borcalan, yaxud məhsul (sənaye sektoru) üzrə kredit riski səviyyəsinə qarşı qoyulmuş məhdudiyyət İdarəetmə Şurası tərəfindən rüblük olaraq təsdiqlənir. Banklar və brokerlər daxil olmaqla hər hansı bir borcalan halınd əriskə məruzqalma həddi daha sonra balans və balansdankənar maddələrlə bağlı riskləri əhatə etməklə Kredit Komitəsi tərəfindən müəyyən olunmuş alt-limitlərlə məhdudlaşır. Limitlər üzrə faktiki risklə məruzqalma hallarına gündəlik nəzarət olunur.

Müvaiq hesab edilən hallarda və əksər kreditlərlə əlaqədar olaraq Bank girov, eləcə də fərdi və korporativ zəmanətlər qəbul edir. Bəzi kredit məbləğləri qeyd olunan təminat vasitələrinin əldə edilməsi mümkün olmayan fərdi şəxslərə verilmiş kreditlərdən ibarətdir. Belə kreditlər davamlı olaraq nəzarətdə saxlanılır və illik, yaxud daha qısa müddətlərdə təhlil edilir.

Kreditlərin ayrılması üzrə öhdəliklər kredit, zəmanət və ya akkreditiv formasında çıxış edən istifadə edilməmiş kredit vəsaitlərindən ibarətdir. Balansdankənar uçotda olan maliyyə alətləri üzrə kredit riski müqavilə tərəfinin müqavilə şərtləri və müddəalarına əməl edə bilməməsi nəticəsində zərərin baş verməsi mümkünlüyü kimi müəyyən olunur. Kreditin ayrılması öhdəliyi üzrə kredit riskinə gəldikdə isə, Bank yerinə yetirilməmiş belə öhdəliklərin ümumi məbləğinə bərabər potensial zərər riski ilə üzləşir. Lakin zərərin ehtimal edilən məbləği yerinə yetirilməmiş ümumi kredit öhdəliklərindən azdır, ona görə ki, kreditin ayrılması üzrə öhdəliklərin əksəriyyəti müştərilərin xüsusi kredit standartlarına davamlı qaydada cavab verə bilməməsindən asılı olaraq şərtidir. Bank maliyyə vəziyyəti haqqında hesabat və maliyyə alətləri halında olduğu kimi, riskin təsir nəticələrinin azaldılması limitlərini və cari monitorinq prosesini tətbiq etməklə kreditlərin verilməsinin təsdiqlənməsi prosedurana əsaslanan eyni kredit siyasətini şərti öhdəliklər üçün də istifadə edir. Bank balansdankənar uçotda əks etdirilən şərti öhdəliklərin ödəniş müddətinə qədər dövrü nəzarətdə saxlayır, çünki daha uzunmüddətli öhdəliklər qısamüddətli kredit öhdəlikləri ilə müqayisədə daha çox kredit riskinə məruz qalır.

**Kredit riskinə məruz qalan maksimal məbləğ**

Kredit riski müştəri və ya maliyyə aləti üzrə tərəf müqabili müqavilə üzrə öhdəliklərini yerinə yetirmədiyi təqdirdə Bankın maliyyə zərərinə uğrayacağı riskdir. Bankın kredit risklərinin tənzimlənməsi üçün siyasət və prosedurları vardır (həm uçota alınmış maliyyə aktivləri, həm də uçota alınmamış müqavilə öhdəlikləri üçün); o cümlədən, portfel cəmləşmələrinin məhdudlaşdırılması üzrə qaydalar və kredit riskinə fəal surətdə nəzarət edən Kredit Komitəsinin yaradılması barədə qaydalar daxildir. Kredit siyasəti Müşahidə Şurası tərəfindən nəzərdən keçirilir və təsdiqlənir.

Kredit siyasətində aşağıdakılar əks olunur:
- kredit ərizələrinin baxılması və təsdiqlənməsi prosedurları;
- borcalanların (korporativ və fərdi) kredit qabiliyyətinin qiymətləndirilməsi metodikası;
- tərəf müqabillərinin, emitentlərin və sığorta şirkətlərinin kredit qabiliyyətinin qiymətləndirilməsi metodikası;
- girovun qiymətləndirilməsi metodikası;
- kreditlərin sənədləşməsinə (rəsmiləşdirilməsinə) dair tələblər;
- kreditlərin və sair kredit risklərinin mütəmadi monitorinqi üzrə prosedurlar.

Korporativ kredit ərizələri müvafiq müştəri rəhbərliyi tərəfindən yazılır və sonra korporativ kredit portfelinə məsuliyyət daşıyan Kredit Departamentinə ötürülür. Hesabatların təhlili müştərinin biznes və maliyyə fəaliyyətini nəzərə alan strukturlaşmış təhlilə əsaslanır. Kredit müqaviləsi və hesabat müstəqil olaraq Risklərin İdarə Edilməsi Departamenti tərəfindən baxılır və kredit siyasətinin tələblərinə uyğun olması təsdiqi üzrə ikinci rəy verilir. Kredit Komitəsi, Kredit Departamenti və Risklərin İdarə Edilməsi Departamenti tərəfindən təqdim edilmiş kredit ərizələrinə baxır. Fərdi əməliyyatlar, Kredit Komitəsinin gözlənilən yekun təsdiqindən və xüsusi risklərdən asılı olaraq həmçinin Kreditlərə Nəzarət Departamenti, eləcə də Hüquq, Mühasibatlıq və Vergi Departamentləri tərəfindən baxılır.

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

Bank davamlı olaraq fərdi kredit risklərinin fəaliyyətinə nəzarət edir və müntəzəm olaraq müştərilərin ödəmə qabiliyyətini yenidən müəyyənləşdirir. Yenidən baxış borcalan tərəfindən təqdim edilmiş və ya Bank tərəfindən əldə edilmiş müştərinin ən son maliyyə hesabatları və sair məlumatlara əsaslanır. Dərəcələndirmə modelləri və Risklərin İdarə Edilməsi Departamenti tərəfindən işlənib hazırlanmış ərizə məlumatlarının təsdiqi prosedurlarından istifadə etməklə Satış Departamenti fərdi kredit ərizələrinə baxır.

Fərdi müştəri təhlilindən əlavə, kredit portfeli Risklərin İdarə Edilməsi Departamenti tərəfindən kredit konsentrasiyası və bazar risklərinə uyğun olaraq müəyyən edilir.

Kredit riskinin maksimal dərəcəsi, bir qayda olaraq, maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində və uçota alınmamış müqavilə öhdəliklərinin məbləğlərində əks olunur. Potensial kredit riskinin azaldılması məqsədi ilə aktivlərin və öhdəliklərin mümkün qarşılıqlı əvəzləşdirilməsi effekti əhəmiyyətli xarakter daşımır.
Aşağıdakı cədvəldə hesabat tarixinə maliyyə aktivləri ilə bağlı maksimal kredit riski təqdim olunur:

Hesabat tarixinə uçota alınmamış müqavilə öhdəlikləri ilə bağlı maksimal kredit riski 25-ci qeyddə təqdim olunmuşdur.

| | 31 dekabr 2017-ci il | December 31, 2016 |
|---|---|---|
| **ASSETS** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri (kassada olan nağd vəsaitlər xaric) | 32,525 | 56,713 |
| Banklardan və sair maliyyə təşkilatlarından alınacaq vəsaitlər | 68,060 | 140,199 |
| Müştərilərə verilmiş kreditlər | 219,803 | 239,153 |
| İnvestisiya qiymətli kağızları | 39,774 | 23,375 |
| Mənfəət və ya zərərdə ədalətli dəyərində qeyd olunan maliyyə alətləri | - | 1,771 |
| Sair maliyyə aktivləri | 2,593 | 2,815 |
| Kreditlər və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | 11,652 | 11,119 |
| Verilmiş zəmanətlər və oxşar öhdəliklər | 10,054 | 7,327 |
| **Cəmi maksimal məruzqalma** | **384,461** | **482,472** |

Müştərilərə verilmiş kreditlər qarşılığında girov və Müştərilərə verilmiş kreditlərə münasibətdə kredit riskinin təmərküzləşmə təhlili 12-ci qeyddə təqdim olunmuşdur.

Hesabat tarixində tanınmamış müqavilə öhdəlikləri üzrə kredit riskinə maksimal məruzqalma 22-ci qeyddə təqdim olunmuşdur.

### Girov və digər kredit təminatları

Tələb olunan girovun məbləği və növü qarşı tərəfin kredit riski qiymətləndirməsindən asılıdır. Girovların növləri və qiymətləndirmə parametrlərinin qəbul edilməsinə dair qaydalar tətbiq olunur.

Əldə edilən əsas girov növləri aşağıdakılardır:

- Avtomobil kreditləri üzrə: pul vəsaitləri, avtomobil girov saxlama hüququ, üçüncü tərəf zəmanətləri;
- Biznes kreditləri üzrə: daşınmaz əmlak, inventor və ticarət üzrə debitor borcları, üçüncü tərəf zəmanətləri;
- İstehlakçı kreditləri: pul vəsaitləri, kreditli məişət avadanlıqları, üçüncü tərəf zəmanətləri, yaşayış mülkiyyəti üzərində girov;
- Mikrokreditlər üzrə: pul vəsaitləri, inventor və ticarət üzrə debitor borcları, üçüncü tərəf zəmanətləri, daşınmaz əmlak; və
- Kart üzrə kreditlər: pul vəsaitləri, üçüncü tərəfin zəmanətləri.

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

Rəhbərlik girovun bazar dəyərinə nəzarət edir, əsas müqaviləyə uyğun olaraq əlavə girov tələb edir və kreditin dəyərsizləşməsi üzrə ehtiyatın adekvatlığının təhlili zamanı əldə edilmiş girovun bazar dəyərinə nəzarət edir

*Dəyərsizləşmənin qiymətləndirilməsi*

Kredit dəyərsizləşməsinin qiymətləndirilməsində əsasən "roll-rate" portfel üzrə qiymətləndirmə modeli əsas götürülür. Bu qiymətləndirmə modelində gecikən məbləğlərin müxtəlif zaman aralıqlarında hərəkəti ölçülür. Bank dəyərsizləşmə zərərinə qarşı iki istiqamətdə tədbir görür: fərdi qaydada qiymətləndirilən ehtiyatlar və toplu şəkildə qiymətləndirilən ehtiyatlar.

*Fərdi qaydada qiymətləndirilən ehtiyatlar*

Bank hər əhəmiyyətli kreditə uyğun ehtiyatı fərdi qaydada müəyyən edir. Ehtiyat məbləğləri müəyyən edilərkən nəzərə alınan bəndlərə tərəf müqabilinin biznes planının dayanıqlılığı, maliyyə çətinliyi yarandıqda maliyyə nəticələrini artırmaq bacarığı, planlaşdırılan gəlirlər və müflisləşmə olduğu təqdirdə gözlənilən dividend ödəmələri, digər maliyyə dəstəyinin olması və girovun əldə edilə bilən dəyəri və gözlənilən pul vəsaitlərinin zamanlaması daxildir. Dəyərsizləşmə zərərləri gözlənilməz şərait daha diqqətli yanaşma tələb etmədiyi təqdirdə hər hesabat tarixində qiymətləndirilir.

*Toplu qaydada qiymətləndirilən ehtiyatlar*

Fərdi əhəmiyyəti olmayan müştərilərə verilmiş kreditlər üzrə (bura kredit kartları, ev ipotekası və təminatsız istehlak kreditləri daxildir) və fərdi dəyərsizləşməyə dair obyektiv sübut olmayan fərdi əhəmiyyətli kredit zərərləri üzrə ehtiyat toplu şəkildə qiymətləndirilir. Ehtiyatlar hər hesabat tarixində hər portfelə ayrıca baxılmaqla qiymətləndirilir.

Toplu qiymətləndirmə fərdi qiymətləndirəm zamanı dəyərsizləşməyə dair obyektiv sübut olmadıqda belə portfeldə olması ehtimal edilən dəyərsizləşməni nəzərə alır. Dəyərsizləşmə zərərləri "roll-rate" qiymətləndirmə modelini nəzərə almaqla hesablanır. Daha sonra dəyərsizləşmə zərəri Bankın ümumi siyasətinə uyğunluğunun yoxlanması məqsədi ilə kredit rəhbərliyi tərəfindən təhlil edilir.

Maliyyə zəmanətləri və akkreditivlər kreditlərdə olduğu kimi qiymətləndirilir və ehtiyatla təmin edilir.

***Coğrafi təmərküzləşmə***

Riskin İdarə Edilməsi Komitəsi qanunvericilik və qanuni tənzimləmə sahəsində müşahidə olunan risklərə nəzarət edir və onların Bankın fəaliyyətinə təsirini qiymətləndirir. Belə yanaşma Banka Azərbaycan Respublikasının investisiya mühitindəki dəyişikliklərdən yaranan itkiləri minimuma endirmək imkanı yaradır.

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

Aktiv və öhdəliklərin coğrafi təmərküzləşməsi aşağıda göstərilir:

| | Azərbaycan Respublikası | Qeyri-İƏİT ölkələri | İƏİT ölkələri | 31 dekabr 2017-ci il Cəmi |
|---|---|---|---|---|
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 37,158 | 92 | 9,244 | 46,494 |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | 66,720 | - | 1,340 | 68,060 |
| Müştərilərə verilmiş kreditlər | 219,803 | - | - | 219,803 |
| Satılabilən investisiya qiymətli kağızları | 39,892 | - | - | 39,892 |
| Sair maliyyə aktivləri | 2,594 | - | - | 2,594 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri** | **366,167** | **92** | **10,584** | **376,843** |
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 103,733 | 16 | - | 103,749 |
| Müştərilərə ödənilməli vəsaitlər | 244,660 | - | - | 244,660 |
| Sair maliyyə öhdəlikləri | 14,380 | - | - | 14,380 |
| Subordinasiya borcları | 24,267 | - | - | 24,267 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri** | **387,040** | **16** | **-** | **387,056** |
| **XALİS VƏZİYYƏT** | **(20,873)** | **76** | **10,584** | **(10,213)** |

| | Azərbaycan Respublikası | Qeyri-İƏİT ölkələri | İƏİT ölkələri | 31 dekabr 2016-cı il Cəmi |
|---|---|---|---|---|
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ AKTİVLƏRİ** | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 34,069 | 1,153 | 39,435 | 74,657 |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | 130,556 | - | 9,643 | 140,199 |
| Müştərilərə verilmiş kreditlər | 239,153 | - | - | 239,153 |
| Satılabilən investisiya qiymətli kağızları | 23,558 | - | - | 23,558 |
| Mənfəət və ya zərərdə ədalətli dəyərində qeyd olunan maliyyə alətləri | 1,771 | - | - | 1,771 |
| Sair maliyyə aktivləri | 2,815 | - | - | 2,815 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri** | **431,922** | **1,153** | **49,078** | **482,153** |
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 174,331 | 361 | - | 174,692 |
| Müştərilərə ödənilməli vəsaitlər | 292,075 | - | - | 292,075 |
| Sair maliyyə öhdəlikləri | 13,660 | - | - | 13,660 |
| Subordinasiya borcları | 25,275 | - | - | 25,275 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri** | **505,341** | **361** | **-** | **505,702** |
| **XALİS VƏZİYYƏT** | **(73,419)** | **792** | **49,078** | **(23,549)** |

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

***Likvidlik riski***

Likvidlik riski ödəniş vaxtı çatdıqda depozitlərin geri götürülməsi tələbinin və maliyyə alətləri ilə bağlı digər maliyyə öhdəliklərinin qarşılanması üçün kifayət qədər vəsaitlərin mövcud olması ilə bağlı riskdir.

APİK (Aktivlər və Passivləri İdarəetmə Komitəsi) Bankın növbəti maliyyə ili üçün strategiyasını müəyyənləşdirərək, bu növ riskləri ödəniş müddətinin təhlili yolu ilə nəzarətdə saxlayır. Cari likvidlik onun saxlanılması və pul vəsaitlərinin hərəkətinin optimallaşdırılması üçün valyuta bazarında ticarət əməliyyatlarında iştirak edən Xəzinədarlıq Departamenti tərəfindən idarə olunur.

Likvidlik riskini idarə etmək üçün Bank aktivlərin/öhdəliklərin idarə olunması prosesinin bir hissəsi olaraq, müştərilər və bank əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinin gündəlik monitorinqini həyata keçirir. Rəhbərlik depozitlərin geri götürülməsi tələbinin qarşılanması üçün ödəniş müddəti çatmış vəsaitlər üzrə minimal məbləğ hədlərini və belə tələblərin gözlənilməz məbləğlərdə irəli sürüldüyü təqdirdə təmin edilməsi üçün istifadəyə hazır olmalı banklararası və digər borc vəsaitlərinin minimal məbləğinə qarşı məhdudiyyətlər müəyyənləşdirir.

Aşağıdakı cədvəldə müqavilə üzrə diskontlaşdırılmamış pul vəsaitlərinin hərəkəti əsasında likvidlik riskinin təhlili göstərilir. Aşağıdakı məlumatlar Bankın əsas idarəedici heyətinə verilmiş daxili məlumatlara əsaslanır.

| 31 dekabr 2017-ci il tarixinə maliyyə öhdəlikləri | 3 aydan az | 3-12 ay | 1-5 il | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 11,260 | 29,978 | 50,388 | 28,237 | 119,863 |
| Müştərilərə ödənilməli vəsaitlər | 103,956 | 83,453 | 66,657 | 1 | 254,066 |
| Sair maliyyə öhdəlikləri | 14,380 | - | - | - | 14,380 |
| Subordinasiya borcları | 310 | 821 | 4,361 | 24,357 | 29,849 |
| Kreditlər və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | 11,652 | - | - | - | 11,652 |
| **Cəmi diskontlaşdırılmamış maliyyə öhdəlikləri** | **141,558** | **114,252** | **121,406** | **52,595** | **429,810** |

| 31 dekabr 2016-cı il tarixinə maliyyə öhdəlikləri | 3 aydan az | 3-12 ay | 1-5 il | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 29,539 | 58,878 | 91,356 | 13,782 | 193,555 |
| Müştərilərə ödənilməli vəsaitlər | 104,100 | 121,287 | 89,514 | 2,053 | 316,954 |
| Sair maliyyə öhdəlikləri | - | 13,660 | - | - | 13,660 |
| Subordinasiya borcları | 327 | 852 | 4,542 | 26,601 | 32,322 |
| Kreditlər və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | 11,119 | - | - | - | 11,119 |
| **Cəmi diskontlaşdırılmamış maliyyə öhdəlikləri** | **145,085** | **194,677** | **185,412** | **42,435** | **567,610** |

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən fiziki və hüquqi şəxslər bir çox hallarda yığılmış faizləri itirməklə müddətli əmanətlərini geri ala bilər. Bu əmanətlər ödəniş müddətlərinə uyğun olaraq təsnif olunur. Bankın rəhbərliyi fiziki və hüquqi şəxslərin öz müddətli əmanətlərini müəyyən olunmuş ödəniş müddətlərindən tez geri götürəcəyini gözləmir.

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

Aşağıdakı cədvəldə aktiv və öhdəliklərin ödəmə tarixlərinə görə təhlili göstərilmişdir.

| | Hesablanmış orta effektiv faiz dərəcəsi | 1 ayadək | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən çox | Qeyri-müəyyən ödəmə müddəti | 31 dekabr 2017-ci il Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | | |
| Faiz dərəcəsi sabit olan alətlər | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4.16% | 37,940 | - | - | - | - | - | 37,940 |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | 4.91% | - | 25,095 | 11,096 | - | - | - | 36,191 |
| Müştərilərə verilmiş kreditlər | 15.60% | 27,820 | 19,765 | 52,341 | 85,291 | 34,586 | - | 219,803 |
| Satılabilən investisiya qiymətli kağızları | 5.43% | - | - | - | 25,191 | 8,155 | - | 33,346 |
| Cəmi faiz dərəcəsi sabit olan maliyyə aktivləri | | 65,760 | 44,860 | 63,437 | 110,482 | 42,741 | - | 327,280 |
| Faiz qazandırmayan maliyyə aktivləri | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 8,484 | - | - | - | - | - | 8,484 |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | | - | - | 4,561 | - | - | 27,308 | 31,869 |
| Satılabilən investisiya qiymətli kağızları | | - | - | 6,428 | - | - | 118 | 6,546 |
| Sair maliyyə aktivləri | | 2,594 | - | - | - | - | - | 2,594 |
| Cəmi faiz qazandırmayan maliyyə aktivləri | | 11,078 | - | 10,989 | - | - | 27,426 | 49,493 |
| Faiz dərəcəsi dəyişkən alətlər | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5.88% | 70 | - | - | - | - | - | 70 |
| Cəmi faiz dərəcəsi dəyişkən alətlər | | 70 | - | - | - | - | - | 70 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri və qiymətli metallar** | | **76,908** | **44,860** | **74,426** | **110,482** | **42,741** | **27,426** | **376,843** |
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | | |
| Faiz dərəcəsi sabit olan alətlər | | | | | | | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 3.65% | 8,613 | - | 27,031 | 44,865 | 21,719 | - | 102,228 |
| Müştərilərə ödənilməli vəsaitlər | 7.68% | 14,025 | 45,753 | 79,144 | 64,785 | 1 | | 203,708 |
| Subordinasiya borcları | 4.50% | 41 | - | - | - | 24,226 | - | 24,267 |
| Cəmi sabit faiz qazandıran maliyyə öhdəlikləri | | **22,679** | **45,753** | **106,175** | **109,650** | **45,946** | **-** | **330,203** |
| Faiz qazandırmayan maliyyə öhdəlikləri və təəhhüdlər | | | | | | | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | | 1,521 | - | - | - | - | - | 1,521 |
| Müştərilərə ödənilməli vəsaitlər | | 40,952 | | | | | | 40,952 |
| Sair maliyyə öhdəlikləri | | 14,380 | - | - | - | - | - | 14,380 |
| Kreditlər və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | | 11,652 | - | - | - | - | - | 11,652 |
| Cəmi faiz qazandırmayan maliyyə öhdəlikləri və təəhhüdlər | | 68,505 | - | - | - | - | - | 68,505 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri və təəhhüdlər** | | **91,184** | **45,753** | **106,175** | **109,650** | **45,946** | | |
| Faiz həssaslığı kəsiri | | 43,151 | (893) | (42,738) | 832 | (3,205) | | |
| **Toplam faiz həssaslığı kəsiri** | | **43,151** | **42,258** | **(480)** | **352** | **(2,853)** | | |
| Likvidlik çatışmazlığı | | (14,276) | (893) | (31,749) | 832 | (3,205) | | |
| **Cəmi likvidlik çatışmazlığı** | | **(14,276)** | **(15,169)** | **(46,918)** | **(46,086)** | **(49,291)** | | |

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

| | Hesablanmış orta effektiv faiz dərəcəsi | 1 ayadək | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilədək | 5 ildən çox | Qeyri-müəyyən ödəmə müddəti | 31 dekabr 2016-cı il Cəmi |
|---|---|---|---|---|---|---|---|---|
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ AKTİVLƏRİ** | | | | | | | | |
| Faiz dərəcəsi sabit olan alətlər | | | | | | | | |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | 3.47% | 8,871 | - | 14,920 | 31,248 | - | - | 55,039 |
| Müştərilərə verilmiş kreditlər | 17.34% | 41,215 | 27,434 | 65,862 | 80,790 | 23,852 | - | 239,153 |
| Satılabilən investisiya qiymətli kağızları | 5.66% | - | - | - | 15,333 | 8,042 | - | 23,375 |
| Cəmi faiz dərəcəsi sabit olan maliyyə aktivləri | | 50,086 | 27,434 | 80,782 | 127,371 | 31,894 | - | 317,567 |
| Faiz qazandırmayan maliyyə aktivləri | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | | 73,557 | - | - | - | - | - | 73,557 |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | | - | - | 46,245 | 35,715 | - | 3,200 | 85,160 |
| Satılabilən investisiya qiymətli kağızları | | - | - | - | - | - | 183 | 183 |
| Mənfəət və ya zərərdə ədalətli dəyərində qeyd olunan maliyyə alətləri | | - | - | 1,771 | - | - | - | 1,771 |
| Sair maliyyə aktivləri | | 2,815 | - | - | - | - | - | 2,815 |
| Cəmi faiz qazandırmayan maliyyə aktivləri | | 76,372 | - | 48,016 | 35,715 | - | 3,383 | 163,486 |
| Faiz dərəcəsi dəyişkən olan alətlər | | | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 5.83% | 1,100 | - | - | - | - | - | 1,100 |
| Total floating interest rate instruments | | 1,100 | - | - | - | - | - | 1,100 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri və qiymətli metallar** | | **127,558** | **27,434** | **128,798** | **163,086** | **31,894** | **3,414** | **482,153** |
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | | | |
| Faiz dərəcəsi sabit olan alətlər | | | | | | | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 5.11% | 6,064 | 16,722 | 54,940 | 82,680 | 9,532 | - | 171,938 |
| Müştərilərə ödənilməli vəsaitlər | 9.54% | 13,048 | 53,181 | 111,315 | 79,976 | 1,985 | - | 259,505 |
| Subordinasiya borcları | 4.50% | 42 | - | - | - | 25,233 | - | 25,275 |
| Cəmi sabit faiz qazandıran maliyyə öhdəlikləri | | 21,154 | 69,903 | 166,255 | 162,656 | 36,750 | - | 456,718 |
| Faiz qazandırmayan maliyyə öhdəlikləri və təəhhüdlər | | | | | | | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | | 2,754 | - | - | - | - | - | 2,754 |
| Müştərilərə ödənilməli vəsaitlər | | 32,570 | - | - | - | - | - | 32,570 |
| Sair maliyyə öhdəlikləri | | 13,660 | - | - | - | - | - | 13,660 |
| Kreditlər və istifadə edilməmiş kredit xətləri üzrə öhdəliklər | | 11,119 | - | - | - | - | - | 11,119 |
| Cəmi faiz qazandırmayan maliyyə öhdəlikləri və təəhhüdlər | | 60,103 | - | - | - | - | - | 60,103 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri və təəhhüdlər** | | **81,257** | **69,903** | **166,255** | **162,656** | **36,750** | | |
| Faiz həssaslığı kəsiri | | 30,032 | (42,469) | (85,473) | (35,285) | (4,856) | | |
| **Toplam faiz həssaslığı kəsiri** | | **30,032** | **(12,437)** | **(97,910)** | **(133,195)** | **(138,051)** | | |
| Likvidlik çatışmazlığı | | 46,301 | (42,469) | (37,457) | 430 | (4,856) | | |
| **Toplam likvidlik çatışmazlığı** | | **46,301** | **3,832** | **(33,625)** | **(33,195)** | **(38,051)** | | |

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

Yuxarıdakı cədvəldə ödəmə müddəti ilə bağlı şərtlər müqavilə şərtlərinə uyğundur, lakin fiziki şəxslər qüvvədə olan qanunvericiliyə əsasən deposit haqqında razılaşmanı belə razılaşmanın qüvvədə olduğu son tarixdən əvvəl ləğv etmək hüququna malikdir.
Dəyişkən faiz dərəcəsində baş verən dəyişikliklər hesabat dövrünün sonunda müəyyən edilmiş faiz dərəcələri üzrə texminlərdən fərqli olduğu halda, qeyri-törəmə maliyyə aktivləri və maliyyə öhdəlikləri ilə bağlı dəyişkən faiz dərəcəli alətlər üzrə cədvələ daxil edilmiş məbləğlər dəyişə bilər.

### *Bazar riski*

Bazar riski bazardakı faiz dərəcələri və valyuta mübadilələrində dəyişikliklərin olması nəticəsində maliyyə alətinin ədalətli dəyərində və ya gələcək pul vəsaitlərinin hərəkətindəki dəyişikliyin yarana bilməsi ilə nəticələnən riskdir. Bankın hər hansı mühüm kapitallı, sabit korporativ gəliri və ya törəmə-alətləri yoxdur.

### *Faiz dərəcəsi riski*

Bank üzən faiz dərəcələri ilə borc vəsaitləri əldə etdiyindən Bank faiz dərəcəsi riskinə məruz qalır.

Aşağıda göstərilən həssaslıq təhlili hesabat dövrünün sonunda həm törəmə, həm də qeyri-törəmə alətlər üzrə faiz riskinə məruzqalma əsasında müəyyən edilmişdir. Üzən faiz dərəcəsinə malik öhdəliklər üzrə təhlil dövrün sonunda öhdəliyin ödənilməmiş məbləğinin bütün il üzrə ödənilmədiyini hesab etməklə həyata keçirilir. Faiz dərəcəsi riski barədə əsas idarəedici heyətə məlumat verildikdə 100 baza dərəcəsində artım və ya azalmaya istinad edilir ki, bu da rəhbərliyin faiz dərəcələrində mümkün dəyişikliklərin qiymətləndirilməsini əks etdirir.

Faizlərin 100 baza dərəcəsində artdığı/azaldığı və bütün digər dəyişən göstəricilər sabit qaldığı təqdirdə:

- 31 dekabr 2017 və 2016-cı il tarixlərinə tamamlanan illər üzrə gəlir müvafiq olaraq 29 min manat və 1,381 min manat azalar/artar. Bu əsasən Bankın dəyişən faiz dərəcəli kreditlər üzrə faiz risklərinə məruz qalmasına aiddir.

### *Valyuta riski*

Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrindəki dəyişikliklərin baş verməsi səbəbindən maliyyə alətlərinin dəyərində dəyişikliyin yaranması ilə bağlı riskdir. Bankın Müşahidə Şurası ARMB qaydaları əsasında valyuta mövqeləri üzrə hədləri müəyyən etmişdir. Xəzinədarlıq Şöbəsi gündəlik əsasda Bankın valyuta mövqeyinə nəzarət edir.

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

Bankın xarici valyuta dərəcəsi riskinə məruz qalmasına dair məlumat aşağıdakı cədvəldə təqdim olunur:

| | AZN | ABŞ dolları | Avro | Digər valyuta | 31 dekabr 2017-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 30,713 | 8,017 | 7,470 | 294 | 46,494 |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | 27,497 | 39,223 | 1,340 | - | 68,060 |
| Müştərilərə verilmiş kreditlər | 149,138 | 70,657 | 8 | - | 219,803 |
| Satılabilən investisiya qiymətli kağızları | 6,546 | 33,346 | - | - | 39,892 |
| Sair maliyyə aktivləri | 1,278 | 1,222 | 94 | - | 2,594 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri** | **215,172** | **152,465** | **8,912** | **294** | **376,843** |
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 92,601 | 11,036 | 112 | - | 103,749 |
| Müştərilərə ödənilməli vəsaitlər | 99,813 | 136,473 | 8,359 | 15 | 244,660 |
| Sair maliyyə öhdəlikləri | 14,062 | 259 | 59 | - | 14,380 |
| Subordinasiya borcları | - | 24,267 | - | - | 24,267 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri** | **206,476** | **172,035** | **8,530** | **15** | **387,056** |
| **AÇIQ MÖVQE** | **8,696** | **(19,570)** | **382** | **279** | |

Xarici valyuta məzənnələrində dəyişikliklərlə bağlı risklər, xüsusilə xarici valyuta üzrə açıq mövqelərin idarə edilməsi zamanı yaranan risklər son illər ərzində məzənnələrdəki qeyri-sabitlik nəticəsində artmışdır. Nəticədə bu risklərə nəzarət rəhbərliyi ciddi şəkildə maraqlandıran məsələ olmuşdur. Direktorlar Şurası Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən açıq valyuta mövqeləri ilə bağlı müəyyən olunmuş tələblərə uyğunluğun təmin edilməsi və Bank üçün xarici valyutalarla əməliyyatlardan yaranan risklərin məbləğini məhdudlaşdırmaq məqsədilə müvafiq siyasətin yaradılması üçün məsuliyyət daşıyır. İdarə Heyəti gündəlik olaraq açıq valyuta mövqeyi haqqında məlumatlarla təmin edilir və bununla xarici valyuta ilə bağlı riskləri ölçə və onlara nəzarət edə bilir.

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

| | AZN | ABŞ dolları | Avro | Digər valyuta | 31 dekabr 2016-cı il Cəmi |
|---|---|---|---|---|---|
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 21,369 | 49,308 | 3,445 | 535 | 74,657 |
| Banklardan və sair kredit təşkilatlarından alınacaq vəsaitlər | 33,020 | 106,405 | 774 | - | 140,199 |
| Müştərilərə verilmiş kreditlər | 182,846 | 56,307 | - | - | 239,153 |
| Satılabilən investisiya qiymətli kağızları | 183 | 23,375 | - | - | 23,558 |
| Mənfəət və ya zərərdə ədalətli dəyərində qeyd olunan maliyyə alətləri | - | 1,771 | - | - | 1,771 |
| Sair maliyyə aktivləri | 1,761 | 911 | 143 | - | 2,815 |
| **Cəmi qeyri-törəmə maliyyə aktivləri** | **239,179** | **238,077** | **4,362** | **535** | **482,153** |

| | AZN | ABŞ dolları | Avro | Digər valyuta | 31 dekabr 2015-ci il Total |
|---|---|---|---|---|---|
| **QEYRİ-TÖRƏMƏ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Banklara və sair maliyyə təşkilatlarına ödənilməli vəsaitlər | 136,461 | 38,173 | 58 | - | 174,692 |
| Müştərilərə ödənilməli vəsaitlər | 88,873 | 199,994 | 3,177 | 31 | 292,075 |
| Sair maliyyə öhdəlikləri | 13,660 | - | - | - | 13,660 |
| Subordinasiya borcları | - | 25,275 | - | - | 25,275 |
| **Cəmi qeyri-törəmə maliyyə öhdəlikləri** | **238,994** | **263,442** | **3,235** | **31** | **505,702** |
| **AÇIQ MÖVQE** | **185** | **(25,365)** | **1,127** | **504** | |

Valyuta riskinə qarşı həssaslıq. Aşağıdakı cədvəldə manatın müvafiq xarici valyutalara qarşı mübadilə məzənnəsinin 35% (2016: 35%) dərəcəsində artması və ya azalması halına qarşı Bankın həssaslığını göstərən təfərrüatlar açıqlanır. Həssaslıq təhlili yalnız xarici valyuta ilə ifadə edilmiş qalıq monetar vəsaitləri özündə birləşdirir və xarici valyuta məzənnələrində 35%-lik (2015: 35%) dəyişiklik nəzərə alınmaqla onların dövrün sonundakı valyuta mövqeyinin bir valyutadan digərinə çevrilməsinə düzəliş edir. Həssaslıq təhlilinə xarici kreditlər, o cümlədən Bankla xarici əməliyyatlar üçün kreditlər (belə kreditlər kreditorun v əya borcalanın əməliyyat valyutasından fərqli valyutada ifadə olunur) daxildir. Aşağıdakı müsbət rəqəmlər manatın müvafiq valyutaya qarşı 35% güclənməsi müqabilində mənfəət və digər kapital vəsaitlərində baş verməs artımı göstərir. Manatın müvafiq valyutaya qarşı 35% zeifləyəcəyi təqdirdə, mənfəət və digər kapital vəsaitləri müqayisəli təsirə məruz qala, aşağıdakı balans göstəriciləri isə müsbət rəqəmlərlə ifadə oluna bilərdi.

| | ABŞ dollarının təsiri | | Avronun təsiri | |
|---|---|---|---|---|
| | 2017 | 2016 | 2017 | 2016 |
| Vergiöncəsi mənfəət | (6,850) | (8,878) | 134 | 394 |

In Rəhbərlik hesab edir ki, həssaslığın təhlili aidiyyəti xarici valyuta mübadiləsi riski üçün səciyyəvi deyil, çünki ilin sonuna olan itkilər riski il ərzindəki itkilər riskini əks etdirmir.

## 26. RİSK İDARƏÇİLİYİ QAYDALARI (davamı)

Həssaslıq təhlilində məhdudiyyətlər

Yuxarıda qeyd olunan cədvəllər digər ehtimallar dəyişmədiyi halda əsas ehtimaldakı dəyişikliyin təsirini əks etdirir. Ehtimallar və digər amillər arasında qarşılıqlı əlaqə mövcuddur. O cümlədən, qeyd etmək lazımdır ki, bu həssaslıqlar sabit deyil və böyük, yaxd kiçik təsirlər bu nəticələrə daxil edilməməli və ya çıxarılmamalıdır.

Həssaslığın təhlilində Bankın aktiv və öhdəliklərinin fəal şəkildə idarə edilməsi nəzərə alınmır. Bundan başqa, bazarda hər hansı dəyişiklik baş verdiyi zaman Bankın maliyyə vəziyyəti dəyişə bilər. Məsələn, Bankın maliyyə riskinin idarə eidiməsi strategiyası bazar dəyişiklikləri ilə bağlı riskə məruzqalma halının idarə olunması məqsədini daşıyır. İnvestisiya bazarları başlanğıc mərhələlərdən keçdiyi zaman, rəhbərlik tərəfindən görülən tədbirlər investisiyaların satılması, invetsisiya portfeli üzrə ayırmalarda dəyişikliyin edilməsi və digər qoruyucu tədbirlərin həyata keçirilməsindən ibarət ola bilər. Nəticə etibarilə, təxminlərdəki dəyişikliyin faktiki təsiri öhdəliklərdə özünü büruzə verə bilmir, lakin aktivlər maliyyə vəziyyəti haqqında hesabatda baazar dəyəri ilə qeyd edilir. Belə olan təqdirdə, öhdəliklər və aktivlər üçün ölçmə əsaslarının müxtəlif olması nizamnamə kapitalında dəyişikliyə gətirib çıxara bilər.

Yuxarıdakı həssaslıq təhlilləri üzrə digər məhdudiyyətlərə Bankın yalnız hər hansı dəqiqliklə proqnozlaşdırıla bilinməyən mümkün qısamüddətli bazar dəyişikliklərinə dair mövqeyini əks edirən potensial riski göstərmək üçün şərti bazar dəyişikliklərindən istifadə olunması və bütün faiz dərəcələrinin eyni tərzdə dəyişəcəyi ilə bağlı təxminlər daxildir.

***Qiymət riski olan məhsullar***

Bank ümumi və xüsusi bazar qiyməti dəyişmələrinə məruz qalan məhsulları ilə bağlı qiymət riski ilə üzləşir.

Bank, bazar mühitində baş verən mənfi dəyişikliklərdən yarana biləcək mümkün zərəri dövri şəkildə təxmin etməklə, eləcə də zərər üzrə müvafiq məhdudiyyətlər, marja və təminatla bağlı tələblər müəyyən etməklə və onların tətbiqi vasitəsilə qiymət riskini idarə edir. İstifadə edilməmiş kredit öhdəlikləri ilə bağlı olaraq, Bank belə öhdəliklərin ümumi məbləğinə bərabər vəsaitin itirilməsi riskinə məruz qalır. Buna baxmayaraq, zərərin ehtimal edilən məbləği daha azdır, çünki öhdəliklərin əsas hissəsi kredit müqavilələrində irəli sürülən müəyyən şərtlərdən asılıdır.

***Əməliyyat riski***

Əməliyyat riski sistemin işləməməsi, insan amili, fırıldaqçılıq və ya xarici hadisələrin təsiri nəticəsində yaranan zərər riskidir. Nəzarət sistemi düzgün fəaliyyət göstərmədikdə əməliyyat riskləri nüfuza xələl gətirə, habelə hüquqi və ya qanuni tədbirlərlə, yaxud da maliyyə itkiləri ilə nəticələnə bilər. Bank bütün əməliyyat risklərinin aradan qaldırılmasını planlaşdıra bilməsə də, belə riskləri nəzarət qaydaları vasitəsilə, eləcə də mümkün risklərin monitorinqini və onlara cavab tədbirlərini həyata keçirməklə idarə etməyə çalışır. Nəzarət tədbirlərinə vəzifələrin effektiv bölgüsü, çıxış, təsdiqləmə və üzləşdirmə prosesləri, habelə işçilərə təlim keçirilməsi və qiymətləndirilməsi prosesləri daxildir.

## 27. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

31 dekabr 2017-ci il tarixindən sonra 31 avqust 2019-cu il tarixinə Bankın normativ kapitalı 56.8 milyon manat və ümumi kapital adekvatlığı əmsalı 25.09% təşkil etməklə MBNP-nin tələblərinə uyğun olmuşdur.

31 dekabr 2017-ci il tarixindən sonra 2019-cu il ərzində Bank Azərbaycan Respublikasının Dövlət Əmlak Məsələləri Komitəsinə olan borcunu ödəmişdir (bax: 19-cu qeyd).